DEMOKRATİYAYA GEDƏN UZUN YOLDA...

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDA

Məqalələr, müsahibələr
1994–2008

Hikmət Hacızadə

qanun nəşriyyatı

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

Bu kitabda Azərbaycanın müstəqillik uğrunda apardığı mübarizənin liderlərindən biri, görkəmli siyasi və ictimai xadim Hikmət Hacızadənin 1994-2008-ci illərdə yazdığı məqalələri və media nümayəndələrinə verdiyi müsahibələri yer alır.

HİKMƏT HACIZADƏNİN
Arxiv
KİTABXANASINDAN

Hikmət Hacızadə
DEMOKRATİYAYA GEDƏN UZUN YOLDA...
Məqalələr, müsahibələr (1994–2008)
Bakı, Qanun Nəşriyyatı, 2024, 256 səh.

Ölçü: 145x215 mm
Cild: qalın
Çapa imzalandı: 14.08.2024

Kitabın tərtibatçıları: Bahar Hacızadə
Sabit Bağırov
Korrektor: Əyyar Tahir
Mətn dizaynı: Aytac Abdul
Texniki redaktor: Xəyalə Əhmədova

Üz qapağındakı rəsm Ben Şanın "İşsizlər" rəsmidir (fraqment)

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pr., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-995-1

© Hikmət Hacızadə, 2024
© Qanun Nəşriyyatı, 2024

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

"Demokratiyanı axtarın, ona can atın...
Müstəqil olmaq istəyiriksə, böyük intellektual və mənəvi
səy göstərməliyik. Özümüzə qalib gəlməliyik.
Onda görərsiz ki, dünya da bizə əl tutur,
Tanrı da bizə yar olur".

Hikmət Hacızadə

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

İÇİNDƏKİLƏR

ÖN SÖZ 9
ТУРКМЕНИСТАН СТАЛ НЕЙТРАЛЬНОЙ СТРАНОЙ.
ООН ПРИЗНАЛ НЕЙТРАЛИТЕТ ТУРКМЕНИСТАНА.
ЭТО МОГ БЫ СДЕЛАТЬ И АЗЕРБАЙДЖАН 11
KOMDESSU ÇERNOMIRDİNƏ ŞÜBHƏ İLƏ YANAŞIR.
AC FÖVQƏLDÖVLƏTİN KÖLGƏSİ QƏRBİ TƏŞVİŞƏ SALIB 17
PREZİDENT ÖLKƏSİNİ ÜMUMMİLLİ HƏMRƏYLİYƏ ÇAĞIRIR.
ANCAQ BU, O DEMƏK DEYİL Kİ, HAMI PREZİDENTİN
ƏTRAFINDA BİRLƏŞMƏLİDİR 20
NÖVBƏTİ SEÇKİLƏRDƏ KİMƏ SƏS VERƏCƏKLƏR? 23
BU DƏRYADA BOĞULANLAR DA OLDU...
BALIQ SEVDASINA DÜŞƏNLƏR DƏ 30
UDMAĞI DA, UDUZMAĞI DA BACARMAQ LAZIMDIR
BİR ÜMUMMİLLİ PROBLEM HAQQINDA 35
AZƏRBAYCANDA LİBERALİZM MÜSAVAT PARTİYASI ANALİTİK
MƏRKƏZİNİN BAŞÇISI HİKMƏT HACIZADƏ İLƏ MÜSAHİBƏ 41
ИДЕЯ, КОТОРУЮ ИЩУТ ВСЕ 46
МЕНЯЙСЯ, ИЛИ УМРИ 59
İSLAM DÜNYASI DEMOKRATİK İSLAHATLAR ƏRƏFƏSİNDƏ.
DƏYİŞİKLİK KÜLƏYİ 65
MÜSTƏQİL AZƏRBAYCANDA DİNİ ETİQAD AZADLIĞI (1998) 81
РЕЛИГИОЗНАЯ СВОБОДА В АЗЕРБАЙДЖАНЕ – 2000 93
MƏN "TORPAQ!" QIŞQIRANAM 99
ADAM GƏRƏK KİŞİ OLSUN, KİŞİ DƏ ADAM! 106

HİKMƏT HACIZADƏNİN ARXİV 2025 KİTABXANASINDAN

İDEYALARIMI HƏYATA KEÇİRMƏK
ÜÇÜN 3 İL VAXT LAZIM OLUR 115
ŞƏKİLİLƏR DİKTATURAYA QARŞI HƏMİŞƏ MÜBARİZƏ APARIBLAR 123
ВЫСТУПЛЕНИЕ ПЕРЕД АССОЦИАЦИЕЙ
АЗЕРБАЙДЖАНСКИХ ВЫПУСКНИКОВ АМЕРИКАНСКИХ
ОБРАЗОВАТЕЛЬНЫХ ПРОГРАММ
(ALUMNİ ASSOCİATİON, ACCELS). 130
ÖLKƏNİN BÖHRAN ŞƏRAİTİNDƏ
İDARƏ EDİLMƏSİ HAQQINDA
KENNEDİ VƏ KUBA BÖHRANI 136
AZƏRBAYCANIN İLK DİSSİDENTİ VƏ İLK PREZİDENTİ.....147
İNSAN HAQLARI "XEYRİMİZƏ" POZULURSA.....152
КАРАБАХСКИЙ КОНФЛИКТ И ДЕМОКРАТИЯ.....161
AZADLIĞIMIZIN HÜDUDLARI VƏ ETİQAD AZADLIĞI 171
ЧТО ПРОИСХОДИТ В МУСУЛЬМАНСКОМ МИРЕ
И БУДУЩЕЕ РЕЛИГИОЗНОЙ СВОБОДЫ В АЗЕРБАЙДЖАНЕ 183
ВЕЧНАЯ ВОЙНА, ИЛИ ВЕЧНЫЙ МИР? 196
НОВАЯ ИДЕНТИЧНОСТЬ ДЛЯ НОВОГО АЗЕРБАЙДЖАНА 201
ЧТО СТАЛО С АЗЕРБАЙДЖАНСКОЙ СВОБОДОЙ?.....232

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

ÖN SÖZ

Hörmətli oxucu!

Bu kitab Azərbaycan Respublikasının görkəmli siyasi xadim Hikmət bəy Hacızadənin 1994–2008-ci illərdə yazmış məqalələrinin və kütləvi informasiya vasitələrinə vermiş müsahibələrinin toplusudur. H.Hacızadənin 1988–1993-cü illəri əhatə edən məqalə və müsahibələrinin 1-ci cildi olaraq 2021-ci ildə nəşr edilmişdir. Beləliklə, bu kitab H.Hacızadə əsərlərinin 2-ci cildi hesab edilə bilər. Bu cildə 1993-cü ilə aid onun bir yazısı da daxil edilib. Səbəbi ondadır ki, həmin yazı 1-ci cildin nəşrindən sonra aşkar edilib.

Hikmət bəy 1993-cü ilin iyul ayında Azərbaycan Hökumətində tutduğu yüksək vəzifələri tərk etdikdən sonra həm siyasi, həm də ictimai səhnələrdə görkəmli simalardan biri olmuşdur. Bu səbəbdən əlinizdə olan kitab tariximizi araşdıran həm alimlər, həmdə adi vətəndaşlar (xüsusilə öz tarixi ilə maraqlanan gənclər) üçün böyük əhəmiyyət kəsb edir.

Bütün materiallar kitabda xronoloji ardıcıllıqla təqdim edilir. Kitabın tərtibatçıları çalışmışlar ki, Hikmət bəyin həmin dövrə aid bütün siyasi əhəmiyyətli yazıları və müsahibələri burada əks etdirilsin. Lakin, istisna edilmir ki, gələcəkdə Hikmət bəyə aid yeni materiallar tapılsın. Belə hallar olarsa, kitabın yeni nəşrində bu materialların daxil edilməsinə yəqin ki, çalışılacaq.

HİKMƏT HACIZADƏNİN ARXİV 2025 KİTABXANASINDA

Materiallar kitaba orijinal dildə və üslubda daxil edilmişdir. Çünki istənilən tərcümə müəllifin fikri və hisslərini tam əks etdirə bilmir. Məhz bu səbəbdən tərtibatçılar kitaba orijinal dildəki materialı daxil etmişlər.

Sabit Bağırov

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

ТУРКМЕНИСТАН СТАЛ НЕЙТРАЛЬНОЙ СТРАНОЙ. ООН ПРИЗНАЛ НЕЙТРАЛИТЕТ ТУРКМЕНИСТАНА. ЭТО МОГ БЫ СДЕЛАТЬ И АЗЕРБАЙДЖАН

Об этом выдающемся событии ничего не сообщили ни Российское ни наше телевидение, лишь короткое сообщение промелькнуло в новостях радио "Свобода" и была опубликована маленькая заметка в "Известиях" и объяснить это можно лишь одним – завистью и неверием, что Туркменистан смог совершить выдающийся дипломатический прорыв, гарантирующий его независимость.

12 декабря 1995 года Генеральная Ассамблея ООН приняла резолюцию о признании ПОСТОЯННОГО НЕЙРАЛИТЕТА ТУРКМЕНИСТАНА. Как гласит резолюция "Генеральная Ассамблея ООН приветствует стремление Туркменистана к активной и позитивной роли в развитии мирных, дружественных и взаимовыгодных отношений с государствами региона и всего мира". Генеральная Ассамблея ООН призвала государства – члены ООН уважать и поддерживать этот статус Туркменистана, его суверенитет и территориальную целостность. По решению правительства Туркменистана 12 декабря объявлен национальным государственным праздником.

 Satış üçün nəzərdə tutulmayıb

На пресс-конференции по случаю этого события министр иностранных дел Туркменистана Б.Шихмурадов заявил, что этот выдающийся праздник туркменского народа был бы невозможен без всемерной ванного в Ашгабаде. Выступившие на пресс-конференции послы Турции, Пакистана, США, Украины, Индии, Ирана, Узбекистана, России и других стран отметили, что Туркменистану не только удалось найти международное признание своей нейтральной внешнеполитической доктрины, но и внести нечто новое, в практику ООН, где впервые принята подобная резолюция, ЗАКРЕПЛЯЮЩАЯ ЗА ГОСУДАРСТВОМ НЕЙТРАЛЬНЫЙ СТАТУС НА ОСНОВЕ ВСЕОБЩЕГО КОНСЕНСУСА.

НЕМНОГО ОБ АЗЕРБАЙДЖАНСКОМ НЕЙТРАЛИТЕТЕ

Что и говорить, Туркменистан, который мы всегда считали во всех отношениях менее развитым чем наша страна, путем гигантских интеллектуалных усилий сделал великий дипломатический шаг. Они приняли, на наш взгляд, самую удачную для свой страны внешнеполитическую доктрину. Туркменистан не является сегодня членом никакого военного союза и безусловно очень много получит от своего нейтралитета.

А что же сделали мы? Наша внешнеполитическая доктрина после вхождения в Оборонный Союз СНГ при нынешнем правительстве нисколько не помог нам в противостоянии Армянской агрессии. Вместо этого, сегодня, мы находясь в военном союзе СНГ, противостоим “потенциальным противникам” России – странам НАТО и ее члену Турции.

Satış üçün nəzərdə tutulmayıb

Надо сказать, что доктрина внешнеполитического нейтралитета обсуждалась и в кулуарах демократического правительства в начале 1993 г. Вопрос об Азербайджанском нейтралитете был поднят мной (я находился в то время на посту посла Азербайджана в России) перед руководством страны в специальном докладе, который был озаглавлен: "О геополитическом фоне Кельбаджарских событий".

И позвольте привести здесь один из разделов этого многостраничного доклада (написанного стразу после захвата Кельбаджара) президенту, госсекретарю и спикеру парламента республики, посвященного поиску выходов из тупика, в который загнала нас Россия:

"АФГАНСКИЙ" И "АВСТРИЙСКИЙ" ВАРИАНТЫ ВЫХОДА ИЗ СИТУАЦИИ

а) "АФГАНСКИЙ" ВАРИАНТ

Невзирая на материальные потери и людские жертвы продолжать военное сопротивление Армяно–Российскому альянсу. Объявить джихад и пусть горит земля под ногами оккупантов. Если продержаться в таком режиме беспрерывной кровавой Отечественной войны хотя бы год, то возможно мировое сообщество вступится за нас, начнет оказывать на Россию серьезное давление, которое после двух, трех лет войны заставит русских оставить нас в покое.

Потери от такой войны могут быть сопоставимы с потерями афганского народа: убито 6% населения; покалечено – 20%; хозяйство полностью разрушено. Но если есть решимость, готовность на жертвы и (что немаловажно) умение воевать, то можно повести народ путем бескомпромиссного сопротивления.

 Satış üçün nəzərdə tutulmayıb

б) “АВСТРИЙСКИЙ” ВАРИАНТ

НЕЙТРАЛИТЕТ И ПОЛНЫЙ УЧЕТ ИНТЕРЕСОВ СВЕРХДЕРЖАВ

Как известно, в 1955 году между США, Россией, Англией и Францией с одной стороны и Австрией – с другой был подписан договор “о восстановлении независимой демократической Австрии”. Согласно договору эти сверхдержавы брали на себя обязательства уважать независимость и территориальную целостность и нерушимость границ Австрии, гарантировали невозможность ее присоединения к ФРГ, а Австрия брала на себя обязательство следовать демократическим принципам и соблюдать нейтралитет.

Сегодня возможность такого решение обсуждается в Украинском парламенте: Украина отказывается от ядерного оружия, а Россия и США с союзниками гарантируют нерушимость Украинских границ. Этот план вызвал горячее одобрение со стороны правых в США. Работа в этом направлении продолжается.

Конечно, Азербайджан не Украина с ядерным оружием, но приложив огромные интеллектуальные усилия наше правительство и наше общество (!), в принципе может убедить Россию, США, Турцию и Иран в том, что мы разумная и демократическая “кавказская Австрия”. Сможем убедить их разделить свое влияние в Азербайджане поровну и больше не терзать республику.

Истинный нейтралитет – это и отказ от всякой идеологической экспансии. Нам действительно придется перестать говорить о российском империализме и исламском фундаментализме, Великом Туране, освобождении с помощью Народного Фронта угнетенных башкиров, тамилов, уйгуров и Далай Ламы.

Satış üçün nəzərdə tutulmayıb

И как нам не жаль но, придется на годы отказаться от идеи пропаганды объединения Северного и Южного Азербайджана... Придется идти путем проложенным Ататюрком – "нет у нас сил" на поддержку всех азербайджанцев и тем более всех тюрок, интересы граждан Азербайджанской Республики – превыше всего.

Необходимо вести демократическую этническую политику в республике. Принять международные нормы в определении понятия НАЦИЯ – таким образом АЗЕРБАЙДЖАНСКАЯ НАЦИЯ – ЭТО СООБЩЕСТВО ВСЕХ ГРАЖДАН АЗЕРБАЙДЖАНА БЕЗ РАЗЛИЧИЯ ПО ЭТНИЧЕСКОМУ ПРИЗНАКУ, ОНА СОСТОИТ ИЗ РАЗЛИЧНЫХ ЭТНИЧЕСКИХ ГРУПП – ТЮРКОВ, ЛЕЗГИНОВ, РУССКИХ, ТАЛЫШЕЙ, КУРДОВ, ЕВРЕЕВ И ОБЯЗАТЕЛЬНО АРМЯН.

АЗЕРБАЙДЖАНСКАЯ КУЛЬТУРА ДОЛЖНА БЫТЬ ОБЪЯВЛЕНА СЛОЖНЫМ СПЛАВОМ РАЗЛИЧНЫХ ЭТНИЧЕСКИХ КУЛЬТУР (как это например зафиксировано в официальной национальной концепции Франции).

Внутри азербайджанского общества нужен консенсус об азербайджанском нейтралитете и демократических принципах нашей жизни. Кроме того, общество должно быть готово к такому статусу: журналисты, например, должны иметь совесть, которой у них нет, а лидеры движения не должны совать журналистам газету в рот (об этом мне с гневом писали несколько депутатов европейских парламентов: "...вы лишь прикрываетесь демократической маской").

Начиная от президента и до каждого из нас: насилие над конкретным человеком, оскорбление его достоинства должно восприниматься как своя личная трагедия. Без

 Satış üçün nəzərdə tutulmayıb

этого нам в своей демократичности, искренности не убедить Запад.

(20 мая 1993 г. Москва,
Представительство Азербайджана)

Следует сказать, что и президент Эльчибей, и другие руководители страны в мае 1993 года весьма благосклонно отнеслись к этой идее, но осуществить все это, тогда уже не оставалось времени. Пока мы думали о независимости и борьбе с агрессором, почти все политические силы страны объединились против нас в едином желании захватить кресло власти, приблизиться к нему, дотронуться до него хоть пальцем.

Мы готовились стать нейтральной демократичной кавказской Австрией, а стали страной, с голодающим населением, которая на карте международных демократических организаций закрашена в черный цвет, как “несвободная страна”.

Ну, что же, теперь будем учиться у Туркменистана.

Satış üçün nəzərdə tutulmayıb

KOMDESSU ÇERNOMIRDİNƏ ŞÜBHƏ İLƏ YANAŞIR. AC FÖVQƏLDÖVLƏTİN KÖLGƏSİ QƏRBİ TƏŞVİŞƏ SALIB[1]

Beynəlxalq Valyuta Fondunun başçısı Mişel Komdessu ilə Rusiya Federasiyasının baş naziri Viktor Çernomırdin arasında aparılan danışıqlar yeni hökumətin imici üçün uğursuzluqla nəticələnib. BVF Rusiyanın yeni iqtisadi kursunu bəyənməyib. Demək, Rusiyanın Qərbdən lazımi maliyyə yardımı gözləməsinə dəyməz.

RF maliyyə nazirinin l-ci müavini Dubinin BVF nümayəndələri ilə görüşərkən onlar Rusiyaya 1.5 milyard dollar məbləğində, yəni hər rusiyalı üçün cəmi 10 dollar kredit müzakirə edəcəklərini vəd ediblər.

Çernomırdin hökumətinin planlaşdırdığı 10 faizlik büdcə kəsirindən narahat olan BVF nümayəndələri Rusiyaya ciddi maliyyə yardımı göstərilməsi məsələsini müzakirə etməkdən imtina ediblər. Bununla əlaqədar M.Komdessu bildirib ki, Rusiya öz evində qayda-qanun yaratmayana qədər Qərbdən sanballı kömək almayacaq.

Qərbdən yardım almaq üçün Rusiya inflyasiyasını azaltmalı və ziyanla işləyən müəssisələrinin fəaliyyətini dayandırmalıdır. Komdessu həmçinin cənab Çernomırdinin iqtisa-

[1] "Azadlıq" qəzeti, 04 İyul 1994

Satış üçün nəzərdə tutulmayıb

di hesablamalarının düzgünlüyünə şübhə etdiyini söyləyib. Biz isə belə hesab edirik ki, Qərb, əhalisi 150 milyonu ötən bir ölkədə islahatların keçirilməsinə maliyyə yardımı, yəni təxminən 80 milyard dollar pul vermək iqtidarında deyil.

Burası da var ki, RF-in daxili və xarici siyasəti 1990-cı ildən bəri kredit, humanitar yardım formasında Rusiyaya 30 milyard dollaradək yardım göstərən Qərb dövlətlərini də narahat etməyə bilməz. Liberal iqtisadi siyasətdən imtina edilməsi, keçmiş SSRİ respublikalarına Rusiyanın təzyiqinin artırılması, rusların Balkanlara və Yaxın Şərqə yol tapması – bütün bunlar onu göstərir ki, Rusiya hələ ac olsa da, fövqəldövlət olmaq, beləliklə, həm də qonşu xalqları bədbəxt eləmək niyyətindədir.

Aydın məsələdir ki, Şərqdə şər imperiyasının dirçəlməsinə Qərb biganə qalmayacaq. ABŞ konqresində də, hökumətində də Qərbdən maliyyə yardımı alması üçün Rusiyanın qarşısına qoyulan tələblərin artırılması məqsədilə fəal çıxışlara rast gəlinir. ABŞ Dövlət katibinin müavini Stroub Talbott son çıxışlarının birində bildirib ki, NATO-nun Sülh naminə əməkdaşlıq planı Rusiyanın təcavüzkar niyyətlərinə qarşı da istifadə etmək üçündür. ABŞ konqresində Yeni çəkindirmə (Novoye sderjivaniye) siyasəti yeritməyin zərurəti haqqında tezisin fəal müzakirəsinə başlayıblar. ABŞ diplomatları Kiyevdə (Ukraynaya 700 milyon dollar pul ayrılıb), Alma-Atada (Baykonur kosmodromu haqda razılaşmalar müzakirə edilir) və keçmiş SSRİ-nin başqa respublikalarında fəal siyasət yeritməyə başlayıblar.

Amerika strateqləri Rusiya sərhədləri boyunca **Baltik–Qara dəniz birliyi yaratmaq ideyası ilə ciddi məşğul olmağa başlayıblar.**

Rusların əleyhinə olan bu sanitar kordonun müəllifi görkəmli antikommunist Zbiqnev Bjezinskidir (həmin adamın oğlu Yan bu gün Ukrayna parlamentinin rəsmi müşaviridir).

 Satış üçün nəzərdə tutulmayıb

Çox güman, Rusiyada imperialist tendensiyaların güclənməsi Qərbin sərt reaksiyasına səbəb olacaq. Günü bu gün Vaşinqtonda yeni hərbi doktrina müzakirə olunur. Bu doktrinaya görə, ABŞ və onun müttəfiqləri hər hansı ölkənin öz imperiyapərəst ambisiyalarına görə bəlkə münaqişələrin (hətta keçmiş SSRİ ərazisində də) qızışdırmasına yol verməyəcəklər.

Martın 23-də BMT rəhbərliyi Təhlükəsizlik Şurasının daimi üzvü olan ölkələrə müraciət edib ki, Bosniyadakı sülhpərvər əməliyyatlarda türk qoşunlarının (təxminən 1000 nəfərlik) iştirakına icazə versinlər. Təhlükəsizlik Şurası türk qoşunlarına bu icazəni verərsə, onda tezliklə bu qoşunlar Abxaziyaya da gələ bilərlər. Belə olsa, deməli, türklərin Qarabağa gəlməsi də mümkündür...

Demokratik Qərblə Rusiya arasında qarşıdurmanın artması son nəticədə soyuq müharibənin başlanmasına səbəb ola bilər. Tamamilə aydındır ki, zəifləmiş Rusiya ikinci soyuq müharibəyə duruş gətirə bilməyəcək.

Rusiyadakı iqtisadi və siyasi olayları müşahidə edərkən belə nəticəyə gəlmək olar ki, 1994-cü il keçmiş SSRİ ölkələri üçün dönüş ili olacaq.

Ümid edirik ki, rus xalqı keçmişdəki əzəmət xülyasını axtarmaq cəhdlərindən əl çəkəcək və demokratik islahatlarını başa çatdıracaq. Biz həmin islahatların keçmiş SSRİ-nin başqa ölkələrində də davam etdirilməsini arzulayırıq.

Öz torpaqlarını düşmən işğalçılarından azad etmək üçün hər hansı beynəlxalq köməyi səbirsizliklə gözləyən Azərbaycan isə 1996-cı ilin yazına kimi dözməlidir. Heç bir xarici hərbi bazanın torpağımızda yerləşdirilməsinə imkan verməməli, öz suverenliyimizi heç bir kəslə bölüşdürməməliyik. Çünki dünya birliyinin bizim problemlərimizə münasibətinin dəyişəcəyinə inanmağımız üçün tam əsasımız var.

 Satış üçün nəzərdə tutulmayıb

PREZİDENT ÖLKƏSİNİ ÜMUMMİLLİ HƏMRƏYLİYƏ ÇAĞIRIR. ANCAQ BU, O DEMƏK DEYİL Kİ, HAMI PREZİDENTİN ƏTRAFINDA BİRLƏŞMƏLİDİR[1]

RUSİYADA

Çərşənbə axşamı Rusiya prezidenti B.Yeltsin ümummilli həmrəylik haqqında razılaşma layihəsini geniş ictimaiyyətin müzakirəsinə verib. Layihə 25 iri siyasi partiya və ictimai təşkilata təqdim edilib.

Prezidentin fikrincə, bu sənəd gələcək "qanlı oktyabr" hadisələrinə səbəb ola bilən siyasi qarşıdurmaların qarşısını alacaq.

Sənədi imzalayan siyasi qüvvələr öz üzərinə hansı öhdəlikləri götürür?

- Öz fəaliyyətlərini demokratik prinsiplər üzərində quracaqlar.
- Ölkənin yeni konstitusiyanı əsas qanun hesab edəcəklər.
- Öz məqsədlərinə çatmaq üçün zor işlədilməsinə yol verməyəcəklər.
- Meydana gələn bütün ziddiyyətləri dinc yolla həll edəcəklər.

[1] 18 İyun 1994

Satış üçün nəzərdə tutulmayıb

- Mitinq və nümayişlərin təşkilatçıları toplantı iştirakçılarının davranışlarına görə məsuliyyət daşıyacaqlar. (Demokratik ölkələrdə mövcud olan qanunvericiliyə görə, mitinqlərdə iştirak edənlərin davranışına əsasən həmin mitinqi təşkil edənlər yox, polis məsuliyyət daşıyır).
- Tətilləri təşkil edən həmkarlar təşkilatları yalnız iqtisadi tələblər irəli sürəcəklər.

Demək, ümummilli həmrəylik heç də Azərbaycan ictimaiyyətində yaranmış təsəvvürdən fərqli olaraq mücərrəd milli maraq naminə ayrı-ayrı vətəndaşların, yaxud siyasi partiyaların siyasi haqlarının pozulmasını nəzərdə tutmur. Çünki adətən, hər bir hakimiyyət öz maraqlarını ümummilli maraqlar kimi qələmə verməyə çalışır.

Odur ki, Yeltsin başqalarını siyasi fəaliyyəti dayandırmağa yox, siyasətdə zor üsullarını tətbiq etməkdən çəkindirməyə çağırır. Yeltsinin təqdim etdiyi layihənin demokratik qanunvericilikdən fərqli cəhətləri də var ki, bu da yalnız 5-ci və 6-cı maddələrdə özünü göstərir.

AZƏRBAYCANDA

Son dörd ildə üç yerə parçalanmış Azərbaycanda da ümummilli həmrəylik haqqında söhbətlər getməkdədir. Azərbaycan demokratları dəfələrlə belə həmrəyliyin zəruri olduğunu söyləyiblər, amma bu heç də o demək deyil ki, hər hansı siyasi qüvvə öz fəaliyyətini dayandırmalıdır.

Bu cür ümummilli həmrəylik vətənin bu gün fövqəladə bir vəziyyətdə olmasına əsaslanmalıdır. Ölkə tarixindəki belə məqamların mahiyyəti ondan ibarətdir ki, köhnə mənəvi dəyərlərini itirmiş cəmiyyət yeni dəyərləri və yeni hüquqi qaydaları hələ ki əldə edə bilmir. Ona görə də son dörd ilin hadisələrində iştirak edən bütün siyasi qüvvələr bir-birinin

 Satış üçün nəzərdə tutulmayıb

səhvlərini bağışlamalı və demokratik qanunçuluq, insan hüquqlarının qorunması və zorakılığa yol verilməməsi şəraitində yenidən fəaliyyətə başlamalıdır.

Buna görə ilk növbədə hakimiyyət və müxalifət bir-birini əfv etməlidir. Siyasi mövqeyinə görə həbs olunmuş adamlar azadlığa buraxılmalıdır. Son dörd ildə siyasi motivlərə görə qaldırılan bütün cinayət işləri dayandırmalıdır. Və nəhayət, ümummilli həmrəylik haqqında memorandum imzalanmalı, bu sənəddə tərəflər öz niyyətlərinə çatmaq üçün zor vasitələrindən istifadə etməyəcəyini təsdiqləməlidir.

Əgər bütün bunlar baş verməzsə, biz həmişə xarici düşmənlərimizə qarşı zəif və gücsüz tərəf mövqeyindən çıxış etməli olacağıq.

Satış üçün nəzərdə tutulmayıb

NÖVBƏTİ SEÇKİLƏRDƏ KİMƏ SƏS VERƏCƏKLƏR?[1]

"Dəyişikliklər lap yaxşıdan pisə doğru olsa da, həmişə müəyyən yüngüllük gətirir".

Vaşinqton İrvinq

Yenidənqurma başlayandan, yəni keçmiş SSRİ məkanında nisbətən sərbəst seçkilər keçiriləndən seçicilərin ovqatında kəskin dəyişikliyin şahidi olmuşuq. İlk postkommunist seçkilərdə çoxluq iqtisadi islahatlar və milli suverenlik arzulayan antikommunist və millətçi liderlərə səs verdi. Amma növbəti (yaxud növbədənkənar) seçkilərdə səs çoxluğunu iqtisadi şok terapiyasına qarşı çıxan kommunistpərəst qüvvələr qazandı.

Bütün bunlara səbəb nədir?

Nəyə görə yeni iqtidar dövründə əhalinin həyat səviyyəsi üç dəfə pisləşdiyi halda, ictimai şüur demokratik hökumətin faydalığını qəbul etmək istəmir?

Seçicilərin ovqatı, ümumiyyətlə, hökumət siyasətinin səviyyəsindən asılıdırmı? Bəs onda bu ovqat nədən asılıdır, bəs üçüncü və dördüncü seçkilərdə seçicilər kimə səs verəcəklər? Qərbdə də ictimai ovqatda dəyişikliklər olurmu, olursa bu nə ilə əlaqədardır? Bu sualı açıqlamaq üçün məşhur Amerika tarixçisi Artur Şlezingerin "Amerika siyasətinin dövrləri" məqaləsini nəzərdən keçirək.

[1] 18 İyun 1994

Satış üçün nəzərdə tutulmayıb

Artur ŞLEZİNGER: AMERİKA SİYASƏTİNİN DÖVRLƏRİ

Müdrik adamlar bəşəriyyət tarixindəki dəyişikliklərin, qabarma və çəkilmələrin qanunauyğunluğunu qeyd edirlər. 1841-ci ildə Amerika filosofu Ralf Emerson yazırdı: *"İki partiyanın, konservatizm (mühafizəkarlıq) və yenilik (islahatçılıq) partiyalarının mübarizəsi dünya yaranandan mövcuddur. Hər dəfə gah bir tərəf, gah o biri tərəf qalib gəlir və mübarizə yenidən başlayır, dəyişən isə yalnız şüarlar və görkəmli şəxsiyyətlərin adı olur".*

50 ildən sonra isə Henri Adams dövrilik tezisinin daha düzgün variantını hazırladı. O, Amerika Respublikasının ilk dövrlərini tədqiq edərək yazırdı: *"Saat rəqqası təxminən 12 ildən bir dövr edir: müstəqillik haqqında deklarasiya qəbul ediləndən düz 12 il sonra uğurlu konstitusiya (!-H.H.) yaradıldı; bir 12 ildən sonra isə mövcud hökumətə müqavimət meydana gəldi; sonrakı onikiillik daha çox enerji qabarması ilə tarixə düşdü; növbəti onikiillikdəki dəyişiklikləri indi uşaq da müəyyənləşdirə bilər".*

Mənim atam isə dövrilik fenomenini başqa cür izah edirdi. O yazırdı ki, rəqqas konservatizmlə liberalizm arasında dövr edir. Adamsın göstərdiyi 3 dövrün ardınca atam 1812-ci il müharibəsindən sonrakı geriləmə dövrünü, 1829–1841-ci illərdə Ceksonun demokratikləşmə dövrünü; quldarların qurduğu milli hökumətdə 1841–1861-ci illərdə təzyiqin artması dövrünü; 1861–1869-cu illərdə quldarlığın ləğvi 1869–1901-ci illərdə konservativ hakimiyyət; 1901–1919-cu illər tərəqqi dövrünü; 1919–1931-ci illərdə respublikanın bərpası dövrünü; 1931–1947-ci illər "yeni siyasət" dövrünü vurğulayırdı.

Bu dövrlərin altısı demokratiyanın inkişafına, beşi isə demokratiyanın boğulmasına xidmət edib. Hər dövr təxminən 16 il yarım davam edib.

 Satış üçün nəzərdə tutulmayıb

Dövr başa çatdıqdan sonra millət əvvəlki status quo-ya qayıtmır. Adətən mühafizəkarlar hakimiyyətə gələndən sonra mövcud liberal islahatları qoruyub saxlayırlar. Dəyişikliklər spiralvari xətt üzrə inkişaf edir ki, bu da nəticələrin cəmlənməsinə səbəb olur.

İqtisadçı Albert O.Hirşman dövriliyin daha bir modelini təqdim edir. Onun fikrincə, sənaye inqilabından başlayaraq qərb cəmiyyəti şəxsi və ictimai xoşbəxtlik kimi ziddiyyətli anlayışları müntəzəm olaraq dəyişib. Cəmiyyət şəxsi maraq dövründən ictimai maraq mərhələsinə adlayır.

ƏGƏR HƏQİQƏTƏN DƏ BELƏ BİR DÖVRİLİK, BELƏ BİR SİKL MÖVCUDDURSA, onda onun mahiyyəti xarici şərtlərlə yox, daxili amillərlə izah olunmalıdır. Hər yeni faza əvvəlkinin şərtlərindən qidalanır, sonra isə özünə yollar açmış olur. Başqa sözlə, hər dövr özü-özünü yaradır.

Qəzalar istisna olunmaqla heç bir xarici hadisə dövrü qabaqlaya bilməz. Müharibə, depressiya, inflyasiya yalnız meylləri gərginləşdirə bilər, dövr özü isə müstəqil inkişaf edəcəkdir. (Siyasi dövr hətta işgüzar dövr kimi təsir gücü olan anlayışla da müqayisədə öz müstəqilliyini təsdiq edir). Dövrilik fenomeninə görə Karterin hakimiyyətə gəlməsi qanunauyğunluq sayılmırdı, Karter isə demokratik partiyanın ənənələrindən imtina etdi və özündən 100 il əvvəl hakimiyyətdə olan Hrover Klivmenddən sonra ən mühafizəkar demokratik prezident oldu.

Bu cür DÖVRİ MÜSTƏQİLLİK, söz yox ki, insan təbiətinin köklərinə əsaslanır. Müstəqilliyin psixologiyası da dövrilik əsasına söykənir. Sosial dəyişikliklər sürətləndikcə insan sonsuz narazılıqlarla xarakterizə olunan varlığa çevrilir: arzuların sərhədi olmadığından onları bütövlüklə gerçəkləşdirmək mümkün olmur...

 Satış üçün nəzərdə tutulmayıb

Siyasi Dəyişikliklərin əsas mənbəyi narazılıq hissinin daim olmasıdır. İnsanlar həm şəxsi, həm də ictimai baxımdan hər hansı bir şeydən uzun müddət razı qala bilmirlər. Biz gah bu, gah da başqasının dadına baxmaq istəyirik, son nəticədə hər şey bizi narazı salır, peşmançılıq hissi isə axırda siyasi kursun dəyişməsinə səbəb olur.

Bundan başqa, bir problem həll edilərkən mövcud siyasi kurs nə qədər faydalı və uğurlu olsa belə, yeni problem meydana çıxan zaman kurs lazımi nəticələr vermir. Bəzi problemləri isə, ümumiyyətlə, həll etmək mümkün olmur. BİR AZ SONRA İSƏ HÖKMƏN YENİ BİR İSTƏK YARANIR – DƏYİŞİKLİKLƏR DÖVRÜ MEYDANA GƏLİR.

Hər fazanın (şəxsi maraq, yaxud ictimai fəaliyyət) öz ziddiyyətləri var. Həyat şəraitini yaxşılaşdırmağa çalışan ictimai fəaliyyət nisbətən qısa dövr ərzində çoxsaylı dəyişikliklər edir (bu fikir birbaşa bizim, demokratların hakimiyyətinə aiddir – H.H.). Yeniliklərdən yaranan başgicəllənmə elə vəziyyətə gətirir ki, siyasi orqanizm boğulmağa başlayır, çünki bütün bu yenilikləri həzm etmək üçün vaxt lazımdır.

Bundan başqa, uzun müddətli "ictimai fəaliyyət emosional yorğunluğa səbəb olur. Millətin yüksək siyasi təzyiq altında yaşamaq qabiliyyətinin də öz hüdudları var. Təbiət də nəfəsini dərməlidir. Artıq adamlar qəhrəmanlıq cəhdləri nümayiş etdirə bilmirlər. Onlar hay-küysüz şəxsi həyatlarını davam etdirmək istəyirlər. İctimai mübarizənin kiçik nəticələrindən peşman olan kəslər yenə də azad olmağa can atırlar". Bu haqda Q.Menken yazırdı: "Təmtəraqlı və mənasız sözlərdən ibarət olan 20 illik dəyişməz pəhrizdən bezikən amerikalılar yalançı idealizmi qəbul edə bilmirlər. İntellektual fırıldaqdan təngə gələn vətəndaş ağıllı sərsəmliyə qovuşur". Beləliklə, ictimai fəaliyyət, ehtiras, islahatlar geri çəkilirlər...

Satış üçün nəzərdə tutulmayıb

"ŞƏXSİ MARAQ DÖVRLƏRİNDƏ DƏ ZİDDİYYƏTLƏR YARANIR. Belə dövrlər narazılıq, kritisizm, həyəcan, etiraz kimi sualtı cərəyanlarla xarakterizə olunur. Bu tamahkar yarışda əhalinin bir hissəsi uduzur, məğlub olur. Ziyalılar təcrid olunurlar. İctimai problemlər kəskinləşir. Eqoistcəsinə düşüncələr adamları əsəbiləşdirir, onlar son nəticə kimi materializmdən bezikirlər.

Ümumi məsuliyyət hissindən azadlıq dövrü millətin enerjisini bərpa edir. Adamlar həyatın mənasını məişətdən kənarda, öz "şəxsi maraqlarından" kənarda axtarmağa başlayırlar. Onları artıq belə sual düşündürmür ki, ölkə xalq üçün nə edə bilər? Adamları maraqlandıran budur ki, onlar ölkə üçün nə kimi işlər görə bilərlər? (Bu, C.Kennedinin ifadəsidir – H.H.) Onlar artıq döyüşə qalxmağa da hazırdırlar. Və bu zaman köhnə üsulla həll edilə bilməyən hər hansı bir məsələ (bizdə 1988-ci ilin "Topxana məsələsi" – H.H.) detonator olur və yeni siyasi dövrə – "ictimai fəaliyyət" dövrünə keçid başlayır. Hələ eramızdan 3 min il əvvəl Çində deyirdilər ki, göylərdən verilən hakimiyyət daimi deyil...

DÖVRİLİK PROSESİNİN DAHA BİR ASPEKTİ DƏ VAR Kİ, bu da siyasi dövrün hərəkətinə səbəb olan nəslin təcrübəsində ifadə olunur. Tarixin təhlili vahidi (siniflər, etnoslar və s. – H.H.) kimi çıxış edən nəsil konsepsiyası lap yaxın vaxtlarda yaranıb.

Ənənəvi cəmiyyətdə dəyişikliklər nəzərə çarpmaz olurdu və hər nəslin adamları öz ata-babaları kimi eyni tərzdə yaşayırdılar. Amma tarixin gedişatı sürətləndikcə yeni nəsillər yeni hadisələrlə qarşılaşdılar ki, buna görə də fərqli xüsusiyyətlər qazandılar. İndi sosial vəziyyət yox, yaş həddi sosial indikator rolunda çıxış edir. Aleksis de Tovil yazırdı: "Demokratik ölkələrdə hər nəsil yeni bir xalqdır".

Satış üçün nəzərdə tutulmayıb

Nəslin siyasi həyatı 30 il davam edir (Orteqa–Manheym). Birinci 15 ildə siyasi həddə çatan nəsil hakimiyyətini möhkəmlədən əvvəlki nəsillə mübarizə aparır. Növbəti 15 ildə özü hakimiyyətdə olur.

Orteqa–Manheymin 15 illik dövrləri Henri Adamsın 12 illik və atamın 16 illik dövriliklərinə uyğun gəlir.

Hakimiyyətdə olan nəsillə siyasi həddə qədəm qoyan nəsil arasındakı qarşılıqlı əlaqə mövcuddur. Çünki onların arasındakı antoqonist nəsil dəyişikliklər etmək fikrindədir. Hakimiyyətə gələn hər yeni nəsil əvvəlki nəslin etdiklərini qəbul etmir və 30 il əvvəl mövcud olan idealları ilahiləşdirir.

* * *

Hikmət HACIZADƏ

Bəs növbəti seçkilərdə xalq kimə səs verəcək? İslahatlar partiyasına (demokratlar), yoxsa mühafizəkar "Qayda-Qanun" partiyasına (partokratlar)? Bu seçkinin vaxtından, siyasi dövrümüzün hansı fazasına düşməyindən asılıdır. Bu ondan asılıdır ki, görəsən, xalq seçkilərə qədər demokratların cəmiyyət üzərinə yağdırdığı yeniliklər və qeyri-müəyyənliklərdən yorulduğu kimi, indiki hakimiyyətin yaratdığı boğucu "sabit"likdən də bezəcək, ya yox.

Fikrimcə, demokratların gətirdiyi yenilikləri adamlar Qorbaçov Yenidənqurmasının qeyri-müəyyənliyi və Qarabağ münaqişəsindən törəyən xaosla şüurda birləşdirdilər.

Azərbaycanda "ictimai fəaliyyət" və "şəxsi maraq" dövrləri nə qədər davam edəcək – bu suala oxucular cavab tapmalıdır. Burada A.Şlezingerin ilk baxışdan qəribə görünən nəticəsini bir daha qeyd etmək istərdim: *"... hər dövr özü özünü yaradır. Qəzalar istisna olunmaqla heç bir xarici hadisə dövrü qa-*

Satış üçün nəzərdə tutulmayıb

baqlaya bilməz. Müharibə, depressiya yalnız meylləri gərginləşdirə bilər, dövr özü isə müstəqil inkişaf edəcəkdir".

Azərbaycandakı bugünkü hadisələr və yaranmış ictimai meyllər Şlezingerin fikirlərini tamamilə təsdiq edir. İqtisadi və hərbi uğursuzluqlara baxmayaraq cəmiyyət indiki hakimiyyətin qoyduğu qaydalardan hələ yorulmayıb. Yaxud belə də söyləmək olar ki, cəmiyyət demokratların təqdim etdiyi islahatlar axınından dincələ bilməyib.

Şlezingerin dövrün müstəqil inkişafı barədə gəldiyi nəticədən belə bir gözlənilməz nəticə də çıxır: **əgər "İslahatçı" partiya hakimiyyətə gələn zaman cəmiyyət Qayda-Qanun istəsə, partiya islahatları dayandıracaq, yaxud da ki, əgər "Qanun" partiyası hakimiyyətə gələn zaman cəmiyyət islahatlar tələb etsə, partiya həmin islahatları keçirmək məcburiyyətində qalacaq.**

Satış üçün nəzərdə tutulmayıb

BU DƏRYADA BOĞULANLAR DA OLDU... BALIQ SEVDASINA DÜŞƏNLƏR DƏ[1]

Hikmət Əbdurrəhim oğlu Hacızadə 1954-cü ildə Bakıda doğulub. Atası coğrafiyaçı professor olub, anası üzvi kimya müəllimidir. 1977-ci ildə BDU-nun fizika fakültəsini bitirib. 1983-cü ildə Moskvada biofizika ixtisası üzrə dissertasiya müdafiə edib, fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi alıb. Botanika institutunda baş elmi işçi işləyib. Evlidir. Oğul atasıdır.

Həyat yoldaşı Bahar Hacızadə biologiya elmləri namizədidir.

1988-ci ildən AXC-nin təşkilatçılarından: proqram və nizamnaməsinin müəlliflərindən biri, İdarə Heyətinin üzvü olub. 1991-ci ildə AXC-nin orqanı "Svoboda" qəzetinin redaktoru, 1992-ci ilin mayında baş nazirin SSRİ işləri üzrə müavini, Azərbaycanın Rusiyada səlahiyyətli nümayəndəsi olub. 1993-cü ilin iyulunda istefa verib. 1993-cü ilin sentyabrından "Azadlıq" qəzetinin məsləhətçisi, oktyabr ayından Müsavat partiyasının üzvü və analitik mərkəzin rəhbəridir.

Nərgiz Əfəndiyeva: Hikmət bəy, siyasətə gəlişiniz necə oldu?

Hikmət Hacızadə: 1988-ci il idi. Yenidənqurma kimi tarixə yazılan il. Həqiqətən yeniləşmə ab-havası duyulurdu. SSRİ

[1] "Müsavat" qəzeti, 02 Noyabr 1994

Satış üçün nəzərdə tutulmayıb

adlı məkanda hər şey ətalətdən qurtulmuşdu. Bir də həmin illərdə başlanan Qarabağ problemi. Buna qarşı ilk etiraz səsini ucaldan akademiyanın ziyalıları oldu. O vaxtdan Zori Balayana cavabın müəllifi kimi tanınan İsa Qəmbərlə tanışlığım başlandı.

1988-ci ilin yayında o mənə gənc alimlər klubunun işində iştirak etməyi məsləhət gördü. Sonralar həmin klubun özəyi AXC yarandı. Yaxşı yadımdadır, vur-tut 20 nəfəri birləşdirən çeşmə idik o vaxtlar. Sonra... Sonra isə irəli sıçrayış başlandı. Yaşlı nəsil üçün məlum olmayan istək dolu bir dünya, sonsuz bir dəniz yarandı. Elə bir dəniz ki, boğulanlar da oldu, hələ dəryada balıq sevdası ilə yaşayanlar, gözünü sonsuz üfüqlərə dikənlər də var.

N.Ə.: İndi siz Müsavat partiyasında analitik mərkəzin rəhbərisiniz. Mərkəz nə iş görür?

H.H.: Mərkəz təzəcə formalaşır, kadrların seçilməsi, mövzuların müəyyənləşdirilməsi ilə məşğuluq. İşçilərin sayını o qədər də artırmaq niyyətində deyilik. İşimizi ölkənin müstəqil intellektual mərkəzləri ilə vəhdətdə qurmağa çalışırıq.

İşləyəcəyimiz mövzulardan bir neçəsini sadalaya bilərəm. Misal üçün, demokratik dövlətin məğlubiyyət səbəbləri; indiki şəraitdə demokratik hərəkatın təşkili; Müsavat partiyası aparıcı müxalifət partiyası kimi; partiyanın nizamnamə sənədlərinin işlənməsi; partiyanın seçkiqabağı proqram və taktikası; ölkə həyatının müxtəlif sahələrinin idarə olunması və s.

N.Ə.: Hikmət bəy, bəs niyə məhz Müsavatı seçdiniz?

H.H.: İnanın ki, hər cur formalizmdən usanmışdım. İstefa verib Moskvadan qayıdandan sonra hansısa ictimai təşkilatda, cəmiyyətdə iştirak etmək fikrində deyildim. Təkbaşına demokratiyanın təbliğçisi olmaq istəyirdim. Ancaq İsa Qəmbər məni inandıra bildi və partiyanın işinə qoşuldum. İndi Müsavat partiyası formalaşma yolundadır. Hələ bilinmir

 Satış üçün nəzərdə tutulmayıb

bundan konkret nə çıxacaq, amma partiyanın tərkibi, üzvlərinin çoxu ilə tanışlığım məni belə bir inama gətirir ki, Müsavat sözün həqiqi mənasında demokratik partiyaya çevrilə və yeni Azərbaycanın taleyində aparıcı rol oynaya bilər.

N.Ə.: İndi çox soruşulan, bəlkə də diletant sualını Sizə ünvanlandırmaq istərdim: Müsavata qoşulmağınız bəzi adamları heyrətləndirib, onların fikrincə, Siz yalnız Qərb dəyərlərini qiymətləndirən, millətçiliyi inkar edən bir şəxssiniz...

H.H.: Xatırladım ki, millətçiliyin də beşiyi Qərbdi. Doğma nə varsa, mənə də yad deyil. Mən mütərəqqi makarondan milli əriştəni daha üstün tuturam. Bizim müsahibəmiz çərçivəsində millət, milli maraq, insan hüquqları, Şərq və Qərb barədə müzakirə açmaq çətindir. Bircə onu deyə bilərəm ki, indi milli mədəniyyətimizin atributu saydığımız çox şey Qərbdə 200–300 il əvvəl olub. Avropa və orta əsr romanlarını oxuyarkən bugünkü azərbaycanlı xarakterinə və qarşılıqlı münasibətlərinə rast gəlmək olur. Mən etnik millilik əleyhinəyəm. Zənnimcə, yalnız türkçülük təməlində nə daxili, nə də ki xarici siyasət qurmaq doğru deyil. Digər baxımdan, belə hesab edirəm ki, etnik millətçilik dövlətin təhlükəsizliyinin başlıca düşmənidir. Bunu bizim məğlubiyyətin səbəblərindən biri hesab edirəm.

Bir çoxlarının millət və millətçilik anlayışlarına meylini yaxşı başa düşürəm. Belə gətirib ki, cəmiyyətimizdə bu sözlər iki mənalıdır.

Həmin adamlar, soruşsan, şovinizmin tam əleyhdarı olduğunu deyəcək, millətçiliyi isə müstəqil dövlət qurmaq cəhdi kimi yozacaq.

Bir az da dərinə getsək, məlum olacaq ki, beləsi üçün "millət" etnik anlayışdır, "millət" türk deməkdir, millətçilik isə – tayfabazlıq. Bəs onda Azərbaycanda yaşayan başqa millətlər öz hüquqlarından istifadə etməsin? Nəyə görə bizim tayfa millət-

Satış üçün nəzərdə tutulmayıb

çiliyimiz təbii sayıldığı halda Jirinovskinin və "Sadvalın" millətçiliyi pislənməlidir? Hər halda, başqa etnik qruplara nisbətən bizim – Azərbaycan türklərinin – milli özünəməxsusluğunu itirmək qorxusu yoxdur. Qeyd edim ki, millət və millətçilik haqqında müzakirələr hələ XVIII əsrdə Avropada başlanıb.

Və demokratik prinsiplərin birisi də budur ki, millət (national) etnik yox, bərabərhüquqlu vətəndaşlıq statusu ilə müəyyənləşsin. Özünü fransız millətindən sayan hər kəs üçün anadan fransız doğulmaq vacib deyildi. Bu yalnız Fransa dövlətinin tam hüquqlu və məsuliyyətli vətəndaşı deməkdir.

İndinin özündə hesab edirlər ki, fransız milləti bir neçə etnik elementin, Fransa mədəniyyəti isə həmin etnik mədəniyyətlərin vəhdətindən formalaşıb. (Fransada yaşayan ərəb – "ərəb mənşəli fransızdır").

Böyük Britaniyada xarici pasportlarda millət (nation) qrafasında ingilis, ya şotland yox, britaniyalı yazılır (daxili pasport heç yoxdur). İnsanın etnik mənsubiyyəti (bizdə – milliyyəti, milləti) heç bir rəsmi sənəddə göstərilmir. İnsan hətta etnik mənsubiyyətini özü özünə seçə bilər, istər fransız olar, istər yəhudi, istər qaraçı, çünki bu heç kimə qanun qarşısında heç bir imtiyaz vermir.

Bütün demokratik dövlətlərin qanunvericiliyində məsələyə bu cür yanaşılır. Birləşmiş Millətlər Təşkilatının adı da məhz bu prinsipdən gəlir.

Belə anlayışda "millət" sözü SSRİ-də "xalq" sözünə bərabərdir (Azərbaycan xalqı və s.). Beləliklə Azərbaycanın xalqı – Azərbaycan milləti deməkdir. Azərbaycan milləti ölkəmizin bütün vətəndaşlarından ibarətdir: türk, talış, ləzgi və başqa etnik mənsubiyyəti olanlardan...

Yalnız belə halda millətçilik mütərəqqidir və bu torpaqda yaşayanların hamısının müstəqil dövlət qurmaq əzmi kimi başa düşülür. Türkçülüyə və ya talışçılığa gəldikdə isə onu

 Satış üçün nəzərdə tutulmayıb

hər insan, mədəniyyət xadimi sərbəst özünə seçsin. Bütün məktəblərdə Azərbaycan torpaqlarının tarixini öyrənməlidirlər. Türklərin, ya ləzgilərin tarixini öyrənmək hər konkret rayonda yerli özünüidarəetmə orqanları tərəfindən müəyyən olunmalıdır...

N.Ə.: Respublikadakı indiki şəraiti necə qiymətləndirirsiniz? Çoxlarını narahat edən odur ki, milli razılıq yoxdur və bunun ümumi işə güclü zərbəsi dəyir.

H.H.: Bu yanlış təsəvvürdür. İqtidarla müxalifət arasında rəsmi sənədlərdə əks olunmasa da, razılıq mövcuddur. Ümumi düşmənə qarşı yönəldilən yazılmamış razılaşma desək, yanılmarıq.

Daha doğrusu, demokratlar müharibə dövründə öz siyasi fəaliyyətinə şüurlu sədd qoyublar. Müsavat partiyası isə bu haqda rəsmi müraciət qəbul edib. Belə addım demokratik prinsiplərə tam uyğundur... Bizim hər vaxt qalmaqal salmaq imkanımız olsa da, bunu düşmənə qarşı müqaviməti zəiflətməmək xətrinə etmirik.

N.Ə.: İş elə gətirə bilər ki, indiki iqtidar da səhnədən getsin. Onda Müsavatın respublikanı idarə etmək iqtidarı varmı?

H.H. Əgər xalq müstəqillik və demokratiyanı dəstəkləsə demokratik müxalifət ölkəni idarə edə bilər. Özü də indiki iqtidardan qat-qat yaxşı. Rəqəmlərə və xəritəyə nəzər yetirsək onların nəyi və necə idarə etdiyini aydınca görərik. İnanıram ki, yeni gəlişimizdə keçmişin səhvlərindən nəticə çıxarıb daha yaxşı idarə edə bilərik.

N.Ə.: Hikmət bəy, ən çox sevdiyiniz ifadə?

H.H.: Z.Freydin ifadəsidir: "Ağlın səsi gur deyil, lakin inadkardır və o eşidilməyincə susmayacaq".

Satış üçün nəzərdə tutulmayıb

UDMAĞI DA, UDUZMAĞI DA BACARMAQ LAZIMDIR[1]

BİR ÜMUMMİLLİ PROBLEM HAQQINDA

Vuruş, axtar, tapmasan da, təslim olma.

Robert Skott
(Cənub Qütbünü 1912-ci ildə fəth edənlərdən biri)

Artıq bir neçə gündür Milli Məclis neft kontraktını ratifikasiya edib. Həmin gün – noyabrın 15-də düşdüyüm vəziyyətdən silkinib çıxmaq, qəlbimi bürüyən qəmli-kədərli təəssüratlarımı bölüşmək istəyirəm.

Məni düşündürən təkcə bu deyil ki, kontrakt Azərbaycana 6 milyard dollarlıq (müxtəlif ekspertlərin rəyinə görə) ziyan vurub, çünki hər bir yerdə qələbə də olur, məğlubiyyət də. Məni düşündürən bu da deyil ki, biz Azərbaycanın bu günü və sabahı üçün əlverişli şərait yaratmaq kimi ümummilli bir vəzifə ətrafında iqtidarla müxalifətin birləşməsi imkanını əldən verdik. Məni ən çox təsirləndirən bu oldu ki, məğlubiyyəti yenə eyni cür qəbul etdik – eyni etinasızlıqla, eyni xaraktersizliklə. Belə sakitcə uduzmağa, görünür, vərdiş eləmişik...

Bizim futbol həvəskarları bu mənzərəni yaxşı xatırlayırlar: "Neftçi" başqa meydançada oynayır. Hesab rəqiblərin xeyrinə 1:0-dır. Oyunun sonuna 10 dəqiqə qalıb. Amma açıq-aşkar

[1] "Azadlıq" qəzeti, 22 Noyabr 1994

Satış üçün nəzərdə tutulmayıb

görünür ki, hesab dəyişməyəcək. Oyunçularımız heç buna cəhd də göstərmirlər. Başlarını salıb meydan boyu məqsədsiz gəzişirlər. Mübarizəsiz-filansız hakimin final fitini gözləyirlər. Yox, "Şaxtyor" belə oynamırdı. Özündən qat-qat güclü rəqiblə son anadək mübarizə aparıb qalib gəlirdi.

Qələbəni "qopartmaq" qaçılmaz məğlubiyyətdən xilas olmaq – idmanı idman, mübarizəni mübarizə eləyən də məhz bu cəhətlərdir. Elə bizim idmanımızda da, bir çoxumuzda da məhz bu cəhətlər çatışmır.

Təəssüf ki, bizim demokratiya uğrunda mübarizəmizdə də eyni hala dəfələrlə rast gəlmişik. Çox olub ki, mübarizə taleyin final hökmünə qədər maneəsiz-zadsız dayandırılıb...

Mütəllibovun vaxtında Ali Sovetə seçki keçirilirdi. AXC Ağstafa rayon şöbəsi mənim namizədliyimi irəli sürmüşdü. Rəqibim isə raykom katibi idi. Seçkiqabağı kampaniya çox uğurla keçirdi. Mənim namizədliyimi dəstəkləyən cəbhəçilər bizim qalib gələcəyimizə tam əmin idilər. Artıq rolları bölüşdürmüşdük, seçkinin gedişinə nəzarət üçün məntəqələrə ayrı-ayrı adamlar göndəriləsiydi. Yəni təmiz mübarizəyə tam hazır idik. Seçki günü səhərdən isə planlarımız dağılmağa başladı. Müşahidəçilərimiz seçki məntəqələrində rəqib komandanın və yerli milis işçilərinin elə həyasız hərəkətləri ilə rastlaşdılar ki, bu təzyiq dərhal çaşqınlığa və ruh düşkünlüyünə səbəb oldu. Kampaniyaya mən rəhbərlik edirdim. Özüm bir-bir məntəqələri gəzməli oldum. Məcbur olub tərəfdarlarımı ruhlandırırdım ki, seçkinin axırınadək dözsünlər, məntəqədən çıxıb getməsinlər. Bu isə, doğrudan da, çətin başa gəlirdi. Hətta rəqib komandanın adamları bizim uşaqlardan birini vəhşicəsinə döyüb şil-küt etmişdilər, o oğlan isə qan içində olsa da, postunu tərk etməmişdi. Amma seçkinin doğru keçirilməməyi, nəticənin əvvəlcədən bəlli olması çoxunu işdən soyutmuş, ruhdan salmışdı.

Satış üçün nəzərdə tutulmayıb

Rəqibimin öz kəndindəki seçki məntəqəsində olan oğlan saat beşdə dözməyib getmişdi. Onun sözləri indiki kimi yadımdadır:

– Hikmət bəy, məni söyürdülər – dözürdüm, nə sözlər demirdilər – ürəyimi sıxıb dayanmışdım. Ancaq onlar süfrə açıb məni də yeməyə dəvət edəndə çıxıb getdim ki, onlarla duz-çörək kəsməyim...

Həmin ötkəm raykom katibi ilə seçki mübarizəsində mən məğlub oldum və geriyə – Bakıya qayıtdım.

Seçkinin ikinci mərhələsində AXC-nin seçki kampaniyasını həyata keçirtmək mənə tapşırılmışdı, çünki Sabit Bağırov özü seçkidə namizəd idi. Həmin gün də bizim demokratiyanın bəxtindən ara-sıra, seyrək yağış yağırdı. Seçicilərin çoxu keçmişlə gələcək arasında gedən mübarizəyə elə pəncərə arxasından tamaşa edirdi.

Mən AXC-nin Çapayev küçəsindəki baş qərargahında Azərbaycanın bütün bölgələrindən çox bəd xəbərləri toplamaqla məşğul idim. Seçicilər heç bir fəallıq nümayiş etdirməmişdilər: adamların passivliyindən istifadə edən partokratlar isə prosesi öz istədikləri kimi aparırdılar.

AXC fəalları da bizim başımıza toplaşmışdılar. Nə qədər səy etdimsə də onları məntəqələrə göndərə bilmədim. Uşaqların hamısı mübarizənin mənasızlığını anlayıb məğlubiyyətlə barışmışdı. Bayırda da yağış yağırdı – belə havada çölə-bayıra çıxıb ayaq döyməyin nə mənası, partokratları elə bu isti otaqda da rahatca söymək olardı?...

4 iyun hadisələrini yada salaq. O zaman Surət Hüseynovun qiyamçı dəstələri Bakıya yaxınlaşanda da məgər belə olmamışdımı? Bakılılar ölkənin taleyinin həll olunmasını laqeydcəsinə müşahidə etmişdilər. Demokratlar da öz ənənələrinə sadiq qalaraq hadisələrin gedişini dəyişə bilməmişdilər. Bu gün qaçqın çadırlarında ağır günlərini yaşayanlar da, gecə-gündüz çörək növbəsində ömürlərini saat-saat puça verənlər də, günü-güzəranı məhkəmələrdə keçənlər də bir şeyi anlamalıdır ki, bütün

Satış üçün nəzərdə tutulmayıb

bunlara səbəb həmin o vaxt iradəsizliyimiz, laqeydliyimizdir...

Kontrakt ratifikasiya olunduqdan sonra bizim deputatlar və Sabit Bağırovla görüşdüm. Onlara hücum etməkdən başqa əlimdən nə gəlirdi ki?

– Bəs nə oldu? Niyə bu mübarizədə səssizcə geri çəkildiniz? Niyə deputatlara müraciət etmədiniz? Niyə anlatmadınız ki, oyansınlar, səsinizə səs versinlər, axı indi tək bizim yox, bizdən sonrakı nəsillərin də taleyi həll olunurdu. Axı siz 20 yanvar qırğınının müzakirəsində bu ümummilli dərddən öz maraqları naminə istifadə etmək istəyənləri geri oturda bilmişdiniz...

Aldığım cavab ənənəvi oldu:

– Heç bilmirdik ki, bizi TV-də göstərəcəklər. Bilmirdik ki bizə söz verəcəklər. Sizin oradakı mühitdən xəbəriniz yoxdur, bilmirsiniz ki, hər iclasda necə dəhşətlərin şahidi oluruq. Elə vəziyyət yaranır ki, adam başını götürüb qaçmaq istəyir. Biz cəmisi beş-altı demokratıq, onların da hamısı iclaslara gəlmir ki... Bir də biz desək də, deməsək də, onsuz da hər şey həll olunub. Axı biz də insanıq, bəzən biz də ruhdan düşürük...

Qurban olum sizə, siz adi insan deyilsiniz, siz bizim ümidimizsiniz, ruhdan düşməyin, sizin buna ixtiyarınız yoxdur! Axıradək vuruşun. Mübarizənin qələbə, yaxud məğlubiyyətlə bitəcəyindən asılı olmayaraq yorulmayın, geri dönməyin. Elə mübarizə aparın ki, gələcəkdə övladlarınıza deyə biləsiniz: ”əlimizdən gələni və ondan da artığını etmişik”.

Mən bilmirəm ki, Məmməd Əmin Rəsulzadəyə kim nəyə görə hörmət edir, mənsə bu insana baş əyirəm, ilk növbədə ona görə ki, o, həyatının son dəqiqəsinə qədər – Sovet imperiyasının get-gedə gücləndiyi və genişləndiyi bir dövrdə də öz ideyası uğrunda mücadiləsini dayandırmayıb və son nəfəsində – bizim qələbəmizdən 35 il əvvəl dünyasını Azərbaycan kəlməsi ilə dəyişib...

Satış üçün nəzərdə tutulmayıb

“Vuruş, axtar, tapmasan da, təslim olma!” Bu, Britaniyanın böyük tədqiqatçısı Robert Skottun mübarizə aparmaq istəyən insana müraciətidir. Antarktidaya, Cənub Qütbünə iki ekspedisiya təşkil edib. Ekspedisiyalar uğursuzluqla nəticələnib. Skott isə ruhdan düşməyib, üçüncü dəfə cəhd göstərib və nəhayət Cənub Qütbünə çatıb. Cənub Qütbünə çatanda Robert Skott buraya Norveç bayrağının sancıldığını görüb – norveçli Amundsen onu bir neçə gün qabaqlamışdı. Əslində peşmançılıq üçün bundan böyük bir səbəb ola bilməzdi... Skott geri qayıdan zaman öz dayanacağına bir neçə mil qalmış donub həlak olub. Günü bu gün bütün dünya bu qəhrəman şəxsiyyətin xatirəsini əziz tutur....

Bu yazıda toxunduğum məsələ, görünür, bizim ümummilli psixoloji problemimizdir və bu problemi təkcə iradənin gücünə həll etmək mümkün deyil. Qələbəyə inamının, iradənin mentalitetimizin tərkib hissəsinə çevrilməsi üçün ailədəki tərbiyədə, milli maarifdə müəyyən dəyişikliklər edilməlidir. Mən həyat mövqeyi olan bütün insanları bu problem ətrafında düşünməyə çağırıram. Bu problem – Udmağı bacarmaq və Uduzmağı bacarmaq problemidir...

Sonda M.Formenin məşhur “Ququ quşu yuvası üzərində bir uçuş” filmindən epizodu yada salmaq istəyirəm. Filmin qəhrəmanı Makmerfi ruhi xəstəxanadakı palata yoldaşları arasında təbliğat aparır ki, onlar xəstəxananın müdiriyyəti qarşısında öz tələblərini bildirsinlər. Tələb isə bundan ibarətdir ki, xəstələrin TV ilə başqa proqrama – beysbol üzrə final oyununa baxmasına icazə verilsin. Amma baş tibb bacısı xəstələrin qorxaqlığından və iradəsizliyindən istifadə edib səsvermə keçirir və demokratik qaydada özünə lazım olan nəticəni alır... Xəstələr əvvəlki proqrama baxmağa məcbur olurlar. Çox tanış vəziyyətdir, eləmi?

Məğlub olan Makmerfi özünə yer tapa bilmir. O, məğlub olmuş xəstələrin yığışdığı hamamxanaya girir, onları əsəbiləşdirib ayıltmağa çalışır... Deyir ki, əlüzyuyanı sındırıb yol

 Satış üçün nəzərdə tutulmayıb

açacaq, xəstəxanadan çıxacaq, gedib şəhəri gəzəcək. O mərc gəlmək istəyir ki, döşəməyə möhkəm bərkidilmiş əlüzyuyanı qaldırıb yol açа biləcək. Xəstələr açıq-aydın görürlər ki, Makmerfinin dedikləri boş şeydir, əlüzyuyanı onsuz da tərpədə bilməyəcək. Bunu başa düşsələr də, ona baş qoşmurlar. Makmerfi hirsli-hirsli geri çəkilir və tam sükutda qapıya tərəf gedir. Qapının kandarında isə, geri dönüb xəstə komandasına məğrurcasına deyir: "Mən heç olmasa cəhd elədim... Hər halda mən çox cəhd elədim..."

Satış üçün nəzərdə tutulmayıb

AZƏRBAYCANDA LİBERALİZM[1] MÜSAVAT PARTİYASI ANALİTİK MƏRKƏZİNİN BAŞÇISI HİKMƏT HACIZADƏ İLƏ MÜSAHİBƏ

"Azadlıq": Eşitdiyimiz kimi, Müsavatın yeni proqramı başa çatmaq üzrədir. Kifayət qədər böyük miqdarda liberal müddəaları özündə cəmləşdirən bu proqram haqda nə deyə bilərsiniz?

H.H.: Proqram işlənib tamamlanmaq mərhələsindədir. Hazırlandıqdan sonra dərc edilsin, sonra danışarıq (mən istərdim ki, bu sənəd "Azadlıq" qəzetində işıq üzü görsün).

"Azadlıq": Liberalizmin tarixindən və təkamülündən danışsaydınız maraqlı olardı.

H.H.: Liberalizm (klassik formada) çağdaş demokratiya nəzəriyyəsinin əsasını təşkil edən siyasi fəlsəfədir. Liberalizmə görə (liberal – azad sözündəndir) insan anadan olandan təbii, şəxsi və siyasi azadlıqlara malikdir. Başqa şəxsə ziyan vurmayan bu azadlıqları nə bir kəs, nə cəmiyyət, nə də dövlət tapdalaya bilər.

Qədim yunan demokratiyasını "çoxluğun idarəetməsi" kimi müəyyənləşdirsək, liberal demokratiyanı "çoxluğun insan hüquqları ilə məhdudlaşdırılmış idarəetməsi" adlandıra bilərik. Bu isə o deməkdir ki, heç bir səsvermə, heç bir

[1] "Azadlıq" qəzeti, 28 Yanvar 1995

Satış üçün nəzərdə tutulmayıb

qanun insanın mülkiyyət hüququnu, söz azadlığını, çıxış etmək, köçüb getmək və s. hüquqlarını əlindən ala bilməz. Qədim Yunanıstanda isə çoxluğun insanı bu hüquqlardan məhrum etmək səlahiyyəti var idi.

Liberalizm siyasi fəlsəfə kimi XVII–XVIII yüzilliklərdə Hobbs, Lokk, Kant, Adam Smit, Monteskyö kimi "liberalizm klassikləri"nin əsərlərində öz təsdiqini tapıb. Bu siyasi fəlsəfə "ABŞ-ın müstəqillik haqqında deklarasiyası", ABŞ Konstitusiyası, Fransanın "insan və vətəndaş hüquqları haqqında deklarasiyası"nda parlaq şəkildə əks olunub. Fransızların adı çəkilən deklarasiyasında Böyük Fransa İnqilabının məqsəd və vəzifələri belə müəyyənləşdirilib: "Azadlıq, Mülkiyyət, Təhlükəsizlik, zora qarşı müqavimət göstərmək hüququ". Həmin şüarlar günü bu gün çağdaş demokratiyanın əsasını təşkil edir. M.Ə.Rəsulzadənin "İnsanlara hürriyyət, millətlərə istiqlal" da liberalizmin şüarıdır.

Liberalizmə görə, sərt dövlət idarəçiliyi özünüidarə edən cəmiyyətdən və bazar vasitəsilə özünü tənzimləyən iqtisadiyyatdan daha pisdir. Bu fikri izah edərkən Liberalizmin əsaslandığı müddəa budur ki, insan təbiətən ağıllı, düşüncəli olduğu üçün azad olarkən özü-özünə ziyan vurmayacaq (Demək, çağdaş demokratiya, özünüidarə yalnız düşüncəli adamlar, ağıllı cəmiyyət üçündür). Klassik liberalizmin əsaslandığı məşhur müddəalar bunlardır:

- insan həyatının mütləq dəyəri;
- azadlığın insan üçün ən yüksək dəyər sayılması;
- insanların yaranandan bərabərliyi;
- insanın zəkalı və xeyirxah olması;
- insanın təbii və pozulmaz hüquqlara malik olması;
- insanın pozulmaz hüquqlarını müdafiə məqsədilə ümumi razılıq əsasında dövlətin yaradılması;

Satış üçün nəzərdə tutulmayıb

- insanla dövlət arasındakı münasibətlərin müqavilə əsasında qurulması (yəni dövlət müqavilə şərtlərini pozarsa, insanlar üsyan etmək, hakimiyyəti devirmək və istədikləri dövləti qurmaq hüququna malikdirlər);
- demokratik yolla qəbul edilən Qanunun aliliyi "Qanunda Azadlıq".
- cəmiyyətin idarə edilməsində dövlətin rolunun məhdudlaşdırılması. Geniş özünü idarə;
- insanın şəxsi həyatının təhlükəsizliyi, həmçinin dövlətin müdaxiləsindən qorunmaq;

Dini əqidəyə görə, insan Allahın idarəsinin mahiyyətini anlamaq iqtidarında deyil. Liberalizmə görə, həyatda insanın anlaya bildiyi idrak həqiqətinə əsaslanmaq lazımdır.

"Azadlıq": Liberalizm hansı ölkələrdə təsdiq olunub, qalib gəlib?

H.H.: Bu gün Qərbdə konservatorlardan tutmuş sosial-demokratlara qədər özünü demokratik hesab edən bütün partiyalar liberalizm dəyərlərini qəbul edir. Qərb demokratiyası ölkələri isə liberal demokratiya ölkələridir.

80-ci illərin axırlarında məşhur Amerika siyasətşünası Frensis Fukuyama məşhur "Tarixin sonu" adlı essedə yazırdı: "Şahidi olduğumuz günlər yalnız "soyuq müharibə"nin və ya müharibədən sonrakı tarixin müəyyən dövrünün sonu deyil, ümumiyyətlə, tarixin sonudur; bir sözlə, bu, bəşəriyyətin ideoloji təkamülünün son mərhələsi və qərbin liberal demokratiyasının tamamlanmış idarəetmə forması kimi bütünlüklə təsdiqinin başlanğıcıdır".

Demokratiyanın təsdiqindən danışılarsa, bu o deməkdir ki, liberalizm təsdiq olunub. Əslində, şəxsi, siyasi, sosial azadlıqların və qanunun aliliyinin təmin edildiyi ölkələrdə liberalizm daha çoxdur. Müxtəlif demokratik beynəlxalq

 Satış üçün nəzərdə tutulmayıb

təşkilatlar (məsələn, Freedom House) dünya ölkələrindəki hadisələrə nəzarət edir, insan hüquqlarının tapdanmasının kəmiyyət və keyfiyyətini müəyyənləşdirir, ümumi vəziyyəti qiymətləndirirlər. Beləliklə, liberal dəyərlərin təsdiqi səviyyəsinə görə ölkələr üç yerə bölünür: azad ölkələr; ayrı-ayrı hallarda insan hüquqlarının pozulduğu ölkələr; azad olmayan ölkələr. Freedom House təşkilatı 1994-cü ilin əvvəllərində Azərbaycanı ayrı-ayrı hallarda insan hüquqlarının pozulduğu ölkələr sırasına daxil edib. İndi bu bədnam cərgədə respublikamızın adı Fil Dişi Sahili kimi ölkələrlə yanaşı çəkilir.

"Azadlıq": Liberalizmlə millətçilik arasındakı əsas ziddiyyətlər hansılardır?

H.H.: Müqayisə etmək üçün isə millətçiliyin dəqiq tərifini göstərmək lazımdır:

- Millətçiliyə görə, milli və siyasi sərhədlər üst-üstə düşməlidir – millətin öz müqəddəratını təyin etmək hüququ da buradan rişələnir.
- Liberalizmdən fərqli olaraq millətçilik şəxsiyyəti yox, milləti əsas götürür. Millətçilik belə hesab edir ki, milli mənafe naminə insan hüquqlarının pozulması mümkündür.
- Millət anlayışını müəyyənləşdirməliyik. Əgər millət dedikdə etnik anlayış nəzərdə tutulursa, onda bu millətçilik qeyri-demokratik hesab ediləcək. Liberal nəzəriyyədə isə millət termini etnik və başqa fərqləri nəzərə almadan müstəqil dövlətin bütün vətəndaşlarını əhatə edir. Millət haqqında liberal anlayış bütün demokratik ölkələrdə qəbul olunmuş anlayışdır və elə buna görə də biz Birləşmiş Millətlər Təşkilatının üzvü sayılırıq...

"Azadlıq": Liberalizmin Azərbaycanda inkişaf perspektivlərini necə görürsünüz?

H.H.: Əslində Azərbaycan Konstitusiyasında bir çox liberal dəyərlər öz əksini tapıb, amma bunları həyata keçirmək, gördüyümüz kimi, asan məsələ deyil.

Hələ ki, liberal dəyərlər, liberalizm praktikası haqqında bizim ictimaiyyətin dəqiq təsəvvürü yoxdur. AXC-nin I və qismən II proqramı insan hüquqlarının toxunulmazlığı, şəxsiyyət hüquqlarının hər hansı kollektiv hüquqlardan yüksəkdə durması haqda müddəaları həmin prinsiplərə arxalanır.

Hazırda Müsavat Partiyasının yeni proqramı hazırlanmaqdadır və mən ümid edirəm ki, bu, demokratik bir partiyanın, yəni əsas liberal dəyərləri özündə cəmləşdirən partiyanın proqramı olacaq. Amma proqramdakı müddəaların partiya üzvlərinin həyat normasına çevrilməsi üçün sanballı işlər görmək lazım gələcək, bu yöndə biz əlimizdən gələni əsirgəməyəcəyik.

Satış üçün nəzərdə tutulmayıb

ИДЕЯ, КОТОРУЮ ИЩУТ ВСЕ[1]

Чтобы соответствовать требованию времени

Выработка и постоянное переосмысление общенациональной идеи – идеи, которая объединила бы нацию и указала бы ей путь решения ее главных проблем – одна из важнейших задач во все времена и для всех народов.

Откуда мы происходим? Каковы мы сегодня? И что нам всем дальше делать? Вот на какие вопросы должно ответить любое сообщество, желающее стать нацией (самим решать свою судьбу) и занять в ряду наций достойное место.

Предложенная и в конце концов принятая большинством общенациональная идея затем обычно находит свое отражение в главных документах нации – святых книгах, национальных декларациях, конституциях, или меняющихся чаще доктринах государственной политики и концепциях стратегии национальной безопасности.

Необходимость и проблемы выработки общенациональной идеи удачно сформулированы в следующем высказывании знаменитого английского философа А.Н. Уайтхеда (1861–1947): “Каждая нация должна постоянно проводить реформы, чтобы соответствовать требованию

[1] “III ERA” Jurnalı, N1, 1996

Satış üçün nəzərdə tutulmayıb

времени, но одновременно она должна следить за тем, чтобы эти реформы не развалили нацию".

Поиск общенациональной идеи происходит постоянно у всех наций – следует из утверждения Уайтхеда. Особенной интенсивен этот поиск у наций, вновь формирующихся или находящихся на историческом изломе.

Итак, нынешние поиски нашими интеллектуалами идеи, которая могла бы стать общенациональной для нового Азербайджана, процесс естественный и крайне необходимый. И всякий, кто внимательно наблюдал за этими поисками последние восемь лет (с начала Перестройки, с тех пор как стало возможно свободное обсуждение) сможет подтвердить, какой большой путь в своем интеллектуальном развитии проделало наше общество.

...Кто контролирует прошлое, тот и контролирует и будущее (1)

Вспомним, что коммунистическая доктрина настолько стерла из народной памяти и убрала из библиотек (точно, как у Дж. Оруэлла в "1984") наше прошлое, что нам приходилось с каждым актом познания открывать давно уже известные миру истины.

Большая работа за последние несколько лет была проведена по возвращению нашей исторической памяти. Первая, начавшаяся еще с Хрущевской оттепели и захватившая общество дискуссия, была дискуссия об этногенезе азербайджанцев. Результатом ее стал возродившийся и популярный сегодня тюркизм и как побочный продукт его – тюркский этнический национализм.

С приближением распада СССР из-за границы на родину стали возвращаться запрещенные при коммунис-

Satış üçün nəzərdə tutulmayıb

тах произведения азербайджанских политических философов и политологов, выдающихся государственных деятелей независимого Азербайджана 1918–1920 годов и, конечно же, огромное интеллектуальное наследие партии Мусават – носителя идеи независимости.

В ряду идей, претендующих на общенациональный статус и продолжающих влиять на общественное сознание в Азербайджане, следует отметить выдвинутое в середине 19 века Мирзой Фатали Ахундзаде "западничество" или "европеизм" в качестве пути выхода из кризиса для всего мусульманского востока.

Важным шагом на пути нашей самоидентификации стала доктрина "Тюркизм, Европеизм, Ислам", выдвинутая Али беком Гусейнзаде в самом начале 20 века. Доктрина эта, наряду с ценностями европейской цивилизации, проповедовала необходимость культурного объединения всего тюркского мира, выработки единого тюркского языка на основе османского, призывала помнить о своих корнях и особенностях. Доктрина А.Гусейнзаде и была воплощена основателями независимого Азербайджана (1918–1920 гг.) в цветах национального республиканского знамени. Современный смысл, вкладываемый в эти три цвета нашего знамени, можно выразить так: "Независимость, Модернизм, Духовность".

Определяющее влияние на общественное сознание оказала идея "азербайджанизма", впервые обстоятельно представленная в 1905 году великим писателем и публицистом Джалилом Мамедкулизаде в его статье "Азербайджан". Именно Дж.Мамедкулизаде впервые четко отчертил географическое, культурное и духовное простран-

Satış üçün nəzərdə tutulmayıb

ство Азербайджана как от общемусульманского, так и от общетюркского пространства.

В период между революциями 1905 и 1917 годов интеллектуалы в Азербайджане все больше и больше увлекаются идеей демократии и независимости, обсуждают возможную судьбу независимой страны, ее политическое и социальное устройство.

"Людям – свободу, нациям – независимость" – этот девиз, выдвинутый основателем партии Мусават и председателем Национального Совета, объявившего в 1918 году независимость страны, и по сей день признается всеми азербайджанскими демократами как главный политический ориентир в их деятельности, как идея, которую бы они хотели видеть в качестве общенациональной.

Активно обсуждается сегодня в демократических кругах и идея "Национального солидаризма" (milli təsanüd), выдвинутая Мамедэмином Расулзаде в эмиграции в 30 гг. в качестве надклассовой идеи социального устройства страны. Ни дикий капитализм, ни советский социализм, – писал Расулзаде, – мы должны вести социальную политику не в пользу какого-нибудь одного класса, но проводить политику в интересах всей нации, общества в целом. Предложенный Расулзаде "Солидаризм" был фактически идеей "демократического социализма", проводимой сегодня в жизнь европейскими социал-демократами…

Я пишу "идеи, претендующие на общенациональный статус" или "хотели бы видеть эту идею в качестве общенациональной" потому, очевидно, что между идеей, выдвигаемой для решения национальных проблем

 Satış üçün nəzərdə tutulmayıb

мыслителями, и идеей, которую для этих целей принимает нация, часто бывает мало общего. Мыслители предлагают нужное, в то время как нация принимает возможное сегодня решение. Так, например, из широко пропагандируемых демократами конца 80-х годов идеи: "Независимость, Права Человека, Либеральные, политические и экономические реформы" – широкими слоями населения была воспринята лишь идея независимости…

Мы независимы, что же дальше?

Итак, на наш взгляд, сегодня нация близка к консенсусу по вопросу о нашем происхождении и необходимости независимости, но все это идеи, направленные вовне – на определение нашего места в мире, сообществе наций. С обретением независимости мы столкнулись с еще более важными задачами:

Национальная Безопасность

Как удержать нашу независимость от внешних и внутренних угроз, иными словами, как обеспечить Национальную Безопасность?

Идея национальной безопасности – первая, главная и вечная из всех общенациональных идей. Без того, чтобы эта идея завладела сознанием большинства населения, не может быть и речи о существовании независимой государственности. Суть этой идеи для каждого гражданина страны в следующей цепочке рассуждений: у меня и у живущих в этой стране граждан есть общие интересы, и они в том, что мы сами в свою пользу решаем судьбу этой страны. Если нации будет плохо, то плохо будет и мне. Вот

Satış üçün nəzərdə tutulmayıb

почему каждый из нас должен непрерывно тратить силы и средства для предотвращения угрозы национальной безопасности – угрозы "народу, территории и образу жизни" (из "стратегии национальной безопасности США, 1996). Каждый из нас, реализуя свои личные интересы, не должен наносить ущерба национальным интересам (здесь речь идет не о реализации неотъемлемых прав человека, а о его личных политических или экономических интересах). Итак, идея национальной безопасности – это идея ответственности за нацию.

С сожаление отмечу, что идея национальной безопасности пока не стала общенациональной идеей для граждан Азербайджана… Ну что ж, ведь мы только начинаем: нашей независимости, нашему самостоятельному совместному проживанию лишь 5 лет…

Свобода или порядок

Для многих оказалось сюрпризом, что независимость сама по себе не принесла нам счастья, она лишь средство и причем, одно из нескольких для достижения стабильного и достойного существования.

Как же устроить жизнь внутри страны? Для этого, во-первых, следует ответить на вопрос о том, что мы за люди – азербайджанцы. Каковы мы сегодня? Действительно ли каждый из нас способен вынести свободу? А может мы – люди, которым нужно принуждение, как говорили старики "qılınc müsəlmanıq" – люди, за которыми нужен постоянный надзор и забота со стороны некоего БОЛЬШОГО БРАТА (Дж. Оруэлл).

И по этому главному вопросу общество сегодня разделено на два лагеря. Линия раздела проходит не там,

Satış üçün nəzərdə tutulmayıb

где кажется на первый взгляд, не между властями и оппозицией. Вернее, если с властями все ясно, то даже демократическая оппозиция разделена на тех, кто считает наивысшей ценностью свободу, и тех, кто считает самоцелью достижения порядка – между теми, кто считает, что права человека имеют приоритет во взаимоотношениях с государством, и теми, кто считает, что коллективные интересы (общества, нации, государства) выше прав человека. Но, вглядись-ка в самого что ни на есть либерального либерала – и ты увидишь, что линия раздела между стремлением к свободе и желанием стабильности проходит по его сердцу…

Вовлеченность в сообщество

Еще одно важная нерешенная общественная проблема – это проблема "вовлеченности в сообщество". Кого мы имеем ввиду, когда говорим "мы", "нация". Чье это государство? Является ли Азербайджан государством только лишь азербайджанских тюрок или это государство всех (без этнического и др. исключения) граждан страны, и все они имеют равные возможности для жизни в стране и, что очень важно, одинаковый доступ к власти? Чей флаг развевается перед ООН?

Социальное устройство

Нет у нас пока никакого четкого представления и о новом социальном устройстве страны. Все мы согласны с тем, что государство должно помогать своим менее удачливым гражданам, но насколько? Что мы выберем – свободный рынок или экономическую безопасность? Насколько свобода рынка должна быть ограничена, что-

Satış üçün nəzərdə tutulmayıb

бы не тормозить развитие и предотвращать социальные взрывы?

Мониторинг, который переживет свое время

На долю нашего поколения интеллектуалов выпала завидная честь впервые в истории страны рассмотреть эти идеи, адаптировать их к азербайджанским реалиям и предложить обществу на выбор в качестве пути национального развития все это многообразие. Незатихающая в периодической печати полемика и внутрипартийные дискуссии об общенациональной идее показывают решимость и упорство нации по преодолению возникших перед нами трудностей.

Сегодня обсуждается и "азербайджанизм", и западничество, и применимость ныне триады "тюркизм, европеизм, ислам", и животрепещущая сегодня тема объединения Южного и Северного Азербайджана. Общество изучает выбор между национализмом и космополитизмом, независимостью или принудительной интеграцией, "политикой открытых дверей" или автаркией, исламизмом или светским путем развития, социализмом или либерализмом, и конечно же, демократией или авторитаризмом – спором, продолжающимся еще со времен Перикла и Платона.

Собрать воедино всю эту дискуссию, сделать фотографический срез современного общественного сознания, оставить будущим исследователям подробные карты, по которым они могли бы воссоздать наше время, понять наши устремления и успешнее прогнозировать свое развитие, – эту благородную задачу выполнила под руководством Наджафа Наджафова группа мониторинга

Satış üçün nəzərdə tutulmayıb

Центра экономических и политических исследований – FAR centre при содействии американской организации Freedom House.

Очевидно, что проведенный мониторинг "Азербайджан: в поисках национальной идеи" надолго переживет многие сегодняшние социологические исследования, проводимые в Азербайджане, а распространение его среди членов политического и научного сообщества страны предоставит уникальную возможность им окинуть взглядом состояние умов в новом Азербайджане, поможет в коррекции политического курса и постановки новых научных задач.

Общенациональная идея в России

Отмечу, что как сами поиски общенациональной идеи, так и социологические исследования по этой теме, интенсивно проводятся во многих государствах бывшего СССР, так же, как и мы находящихся в процессе самоопределения. Так, по сообщения издающейся в Москве "Независимой газеты" (РГ, 22 мая 1996), Российский независимый институт социальных и национальных проблем провел всероссийский опрос общественного мнения (2 тыс. респондентов) по теме "Общенациональная идея", дающий так необходимую сегодня информацию о современном российском менталитете. Так, сообщает НГ, противостояние Западу склонны рассматривать в качестве национальной идеи 2–2,5% опрошенных, вхождение в общеевропейский дом – 12%, объединение всех славянских народов – 8–9%, социализм – 10%, православие - 6%, фашизм – 0,1–0,2 %, международное сотрудничество в деле решения глобальных проблем, формирование рыночной экономики, завоева-

Satış üçün nəzərdə tutulmayıb

ние Россией лидирующих позиций в науке, технологии и образовании – по 25% и выше. Возглавляет этот список идея единения народов России в целях ее возрождения как великой державы – свыше 40%. Чуть отстает от нее идея правового государства – 30–38%. Вот идеалы, к которым стремятся сегодняшние россияне. Почему бы не провести подобный социологический опрос и у нас в Азербайджане?

В этой связи интересен отзыв еженедельной газеты "Московские Новости" (19–26 мая, 1996) об увидевшем свет в конце 1995 года четырехтомнике "Иное" ("Аргус", Москва) и названный редактором издания "хрестоматией новорусского сознания". "Иное" – это сборник статей популярных сегодня публицистов, политологов, социологов на ту же тему: Кто мы? Откуда? Куда идем? Россия – Третий Рим, Блудница, Мекка для историков, Незаживающая тема планеты. Кто такие русские – этнос, супер-этнос? Чем была для России Октябрьская революция? Будущее России с коммунизмом или без? России нужна катастрофа, чтобы начать сначала? Западничество погубит Россию? Власть в новой России должна быть у наиболее энергичных вундеркиндов – "новых русских"? Россию спасет гибрид либерализма и обновленного консерватизма? Вот лишь некоторые из обсуждаемых авторами четырехтомника идей. И мы бы могли выпустить подобный сборник на азербайджанском материале.

Интересна трактовка общенациональной идеи в опубликованном в той же "Независимой газете" (23 мая 1996) правительственном проекте "Политика национальной безопасности Российской Федерации" (1996-2000).

 Satış üçün nəzərdə tutulmayıb

Безопасность и развитие:

Обеспечение национальной безопасности РФ – это деятельность государства и всего общества, направленная на осуществление национальной идеи, на защиту национальных ценностей и национальных интересов …

Общенациональная идея и общенациональные ценности:

…Исторически Россия – наследница Древней Руси, Московского царства, Российской империи и Союза ССР. Геополитически Россия занимает уникальное положение в Евразии, что… дает ей возможность играть важную стабилизирующую роль в глобальном балансе сил. …Идеологически Россия – хранительница многовековой духовной традиции, в основе которой находится стремление к воплощению высших идеалов справедливости, нравственности и братства. С точки зрения национальной, Россия – многоэтническая общность, сплоченная исторической судьбой русского и других народов, которые взаимодействуют в едином государстве на добровольной основе…"

Последнее предложение о взаимодействии с другими народами на "добровольной основе" особенно ярко иллюстрируется сегодняшними событиями в Чечне. Рост прокоммунистических настроений, параноидальное стремление к восстановлению империи, охота за "лицами кавказской национальности", да и приведенный выше опрос общественного мнения показывают, что общенациональной идеей для русских все еще продолжает оставаться великодержавная идея о России как о "Третьем Риме" – империи православного общинного социализма. Егор Гайдар пытался сделать как нужно, но русские делают как им это возможно.

Satış üçün nəzərdə tutulmayıb

Азербайджан: Reform or Die (2)

С сожалением следует признать, что и в Азербайджане идея демократии (самоуправление, контроль над правительством, верховенство закона, приоритетность прав человека) не стала общенациональной идеей. С поражением демократов (1993) Азербайджанским общественным сознанием завладела идея авторитаризма (впрочем, возможно она не покидала его никогда), убеждение, что компетентный диктатор, пусть и забрав нашу волю, но все же решит наши проблемы. Значительное место в общественном сознании продолжает играть и этатизм – идея всепроникающего государства-отца, которое должно управлять общественными процессами, давать нам работу и платить нам зарплату.

Результаты воздействия такой общенациональной идеи сегодня налицо. Нация, отказавшаяся от контроля над правительством, подобна организму без нервной системы, который не чувствует, как у него режут ногу.

Сегодня мир настолько усложнился и скорость перемен так возросла, что им невозможно стало управлять из одного центра какой бы просвещенный управляющий там не сидел. Ведь именно в этом была причина краха советской административной системы. Принять непривычную истину о том, что без личной свободы и общественного самоуправления, то есть без демократии, наши проблемы в принципе не решаемы – вот общенациональная интеллектуальная задача, решить которую мы пока не в состоянии. Страна гниет в безмятежном сне. Но долго это продолжаться не может. Нам придется измениться, либо исчезнуть.

 Satış üçün nəzərdə tutulmayıb

- Часть фразы из романа Дж.Оруэлла “1984” – “Кто контролирует настоящее, тот контролирует и прошлое, а кто контролирует прошлое, тот контролирует и будущее”
- Reform or Die – Измениться или исчезнуть – лозунг с плаката, выпущенного к 50-летию ООН

Журнал III ERA, № 1, 1996

Satış üçün nəzərdə tutulmayıb

МЕНЯЙСЯ, ИЛИ УМРИ[1]

1. Как вы охарактеризуете нынешнюю политическую систему в стране?

– Во-первых, я хочу поздравить читателей с новым годом! Верьте, Ищите, Не падайте духом... Этот призыв в большой мере относится и ко мне... Ну и по существу: настоящий политический режим в Азербайджане может характеризоватья как "Нелигитимный режим авторитарного государственного капитализма с переходной экономикой". Ну тут разъяснения излишни.

Сегодня общество потеряло всякий политический и гражданский контроль над правительством, которое в свою очередь потеряло ориентацию в пространстве. Чего только стоит акробатика кабинета министров вокруг изменения времени, передвижения стрелки часов. Стыдно, но эти люди стрелки часов правильно перевести не смогли и наши часы стали работать не на час раньше, как всегда, а вровень с Московскими (правда сейчас под давлением общественности часы вернули назад). А может здесь есть какой-то скрытый символ. Хоть бы так и было, а не то стыдно жить при таком правительстве...

Страна управляется разумением людей, не способных решить школьную задачу. Такому управлению подчиняться можно или при всеобщем страхе или при всеобщ-

[1] "525" qəzeti, 08 Yanvar 1996

Satış üçün nəzərdə tutulmayıb

ем безразличии (видимо это результат авитаминоза). Но непонятно тогда, откуда возмутся у страны ум и силы на возрождение, или мы будем как в Сталинское время руками заключенных строить Беломорканал?

Возрождение не может произойте без последовательной демократизации общества. Это в полной мере касается и решения Карабахского конфликта. Ведь как просто для карабахских сепаратистов представить свою борьбу как борьбу против азербайджанского тоталитаризма и за армянскую демократию! Как же они будут участвовать на выборах в наш парламент если у нас и выборов то не бывает, а депутаты назначаются сверху? Как же они отдадут своих жителей под власть азербайджанских прокуроров и судей, если наши прокуроры и судьи сплошь и рядом признаются нам в своей зависимости от указаний сверху?

Что же делать? Если сегодня большинство население показывает тотальный страх и полное равнодушие к своей судьбе и общенациональным проблемам? Не могу не вспомнить здесь пронзившее меня в самое сердце стихотворение моего родного друга, покойного Агамалы САДИГА, которое я прочел под стеклом в физическом кабинете Тофика муаллима Гасымова в 1988 году.

Yamacda bir sürü qara, ağ qoyun
Yunu yumşaq qoyun, kefi cağ qoyun
Otlayıb gövşəyir, gövşəyib yatır
Deynən yuxusuna bir haram qatır?
İstər evi uça, jurdu dağıla
İstər yad əllərə düşə, sağıla...
Dinməz...
Dili, ağzı yoxdur elə bil

Satış üçün nəzərdə tutulmayıb

Neyləsin?
Qoyundur,
İnsan ha deyil...

А что же делать нам, демократическим активистам, пока “сон разума рождает чудовищ”? Ну, что ж давайте займемся собой! Давайте разберемся в наших целях, наших средствах борьбы, оглядимся на тех, кто нас окружает. Я вот смотрю, так никто и не нашелся, чтобы взять на себя причины нашего поражения. Мы даже не смогли ни на кого из нас свалить эти ошибки, даже на это у нас не хватило смелости. Все, кто позорил и подводил нас тогда и сейчас с поднятыми головами расхаживают среди нас. Как тут не отчаятся, не потерять цель? Если мы до сих пор плохо понимаем основы демократии, я уже не говорю о порядке применения ее конкретных положений к жизни, то куда нам спешать? Не получится ли у нас при приходе к власти все тот же авторитаризм, который мы будем облагораживать универсальным термином “милли”?

Кроме того, неплохо было бы и о семье подумать я и многие как я вот уже 8 лет без единого дня отдыха сражаемся за расширение нашей свободы – свободы выражать себя и свободы работать! И вот, когда появилась хоть и небольшая, но возможность честно работать, почему-то многие из нас не спешат заняться какой-либо конкретной работой, честным зарабатыванием денег. Многие предпочитают сидеть и ждать, когда в результате демократического чуда наступит всеобщее счастье и справедливость! ...Но ведь и тогда нужно будет работать. Кто-то сядет в кресло, а остальные... извольте попахать. Никакое правительство не избавит нас от необходимости мучительно трудиться.

 Satış üçün nəzərdə tutulmayıb

2. Хикмет бей, нужен ли либерализм народу, сотнями лет подвергавшемуся мракобесию, а затем 70 лет жившему под советским режимом?

– Нужен ли? Либерализм нужен нам как воздух и вода, как основа возрождения. Говорил и опять повторяю, мы не одни на этой планете. Мы в состоянии не прекращающегося межнационального соревнования. Посмотрите, как высоко поднялись нации, освоившие ценности либерализма и где находимся мы. Нет творчества без свободы, а без творчества – развития! Как-то я увидел плакат на эмблеме ООН: "REFORM or DIE" – "Меняйся, или умри". Как видим это проблема международная.

3. Вы руководитель Аналитического Центра партии Мусават, Ваши прогнозы на 1996 год.

– Никто не может сказать, что разгадал объективный закон по которому движется история. В истории нет предопределенности и все зависит только от нас. Надо работать и думать, думать и работать и решение появится, я в это верю...

Что же касается нынешнего правительства, то оно столкнулось с неразрешимой дилеммой, которую можно обозначить как Власть, или Развитие. Как развить промышленность и торговлю если всеобщая коррупция давит даже слабые ростки инициативы? Но если бороться с коррупцией, предположим, искоренить ее, всем зажить честно, то на чем будет держаться их Власть? Если все будет честно, то кто тогда и за какие средства будет поддерживать их Власти. Зачем же тогда им реформы?

Кроме того, как показывает опыт других стран переходного периода, как только реформы сдвигаются с ме-

Satış üçün nəzərdə tutulmayıb

ста, она сразу же вызывают к жизни и желание свободы, а это и есть конец их власти. И опять, так зачем же им реформы?...

Считаю, что пока мы не станем честными, не победим коррупцию, не примем, что права человека имеют приоритет во взаимоотношениях с нацией, государством мы сильными не станем. Итак, без личной, политической и экономической честности (темизлик, леягет) нам ни реформы провести удасться, ни Карабах вернуть.

Я принципиально утверждаю неразрешимость наших личных и национальных проблем без последовательной демократизации, и пусть нынешние платные "идеологи" авторитаризма промышляющие в проправительственных газетах попробуют доказать нам обратное.

4. Что Вы можете сказать об отзывах иностранных наблюдателей на наших выборах и почему они так разнятся?

– Я уже отвечал в прессе на этот вопрос, лишь повторюсь: Знайте, что мир очень хорошо понял, что произошло на наших выборах в парламент.

Совместная Комиссия ООН И ОБСЕ: "Демократичность выборов находится под большим сомнением", "Выборы в Азербайджане не соответствуют международным стандартам". Представители Европарламента: "Мы не сможем принять Азербайджан с такими нарушениями закона о выборах в Совет Европы".

Председатель сенатской комиссии США по Хельсинкским соглашениям: "Выборы в Азербайджане не были ни свободными и ни справедливыми". Всемирная демократическая организация FREEDOM HOUSE на своей

 Satış üçün nəzərdə tutulmayıb

ежегодной “Карте развития демократии в мире” раскрасила Азербайджан в черный цвет, как несвободную страну (Грузия раскрашена там в серый цвет, как страна, где имеются отдельные нарушения прав человека) и так далее.

Что же касается более мягких отзывов, то они исходили от тех, которые хотят разжиться нашей нефтью и потому более лояльны к властям, с которыми потом и должны будут вести переговоры о нефти. Представители же независимых международных организаций более свободны.

Кроме того, мы должны помнить, что когда мы говорим “демократические страны”, – это автоматически не означает, что там сидят демократические чиновники. Это означает, что чиновники в демократических странах очень сильно зависят от избирателей, от демократической общественности своей страны и мы должны серьезно сотрудничать с их демократической общественностью.

Satış üçün nəzərdə tutulmayıb

İSLAM DÜNYASI DEMOKRATİK İSLAHATLAR ƏRƏFƏSİNDƏ. DƏYİŞİKLİK KÜLƏYİ[1]

20-ci yüzilliyin ikinci yarısı bizi görünməmiş dəyişikliklərlə qarşılaşdırdı. Dünya tarixində xarakterinə, sürətinə və miqyasına görə belə dəyişikliyə rast gəlinməmişdir. Mürtəce millətçiliyin inkişafı və süqutu, kütləvi antimüstəmləkə hərəkatı, sovet sosializminin yayılması və iflası və bunların hamısı Britaniyanın baş naziri Makmillanın məşhur sözləri ilə desək, bütün istiqamətlərdə "dəyişikliklər küləyi"nin tüğyan etməsindən xəbər verirdi.

Bu gün çoxları belə bir fikrə gəliblər ki, sayı bir milyarda çatan İslam dünyası öz tarixində köklü dəyişikliklər etmək ərəfəsindədir. Bu dəyişikliklər dünyanın 50-dək ənənəvi islam cəmiyyətlərini demokratikləşdirməli və zamanın tələbinə uyğunlaşdırmalıdır.

İSLAM DEMOKRATİYA İLƏ BİR ARAYA SIĞA BİLƏRMİ?

Çağdaş islam ölkələrində insan haqlarının vəziyyəti acınacaqlıdır. Yalnız iki müsəlman ölkəsində – Türkiyə və Li-

[1] Məqalə Nyu-York Kolumbiya Universitetinin "İnsan haqları və dini azadlıqlar" (Mart, 1997) konfransındakı çıxış əsasında hazırlanıb və "Azadlıq" qəzetində dərc edilib, 05 İyul 1997

Satış üçün nəzərdə tutulmayıb

vanda dünyəvi dövlət və seçkilər var. Həmin dövlətlərdə insan haqlarının vəziyyəti isə demokratik dünya birliyini daim narahat edən məsələlərdən biridir. Ərəb yarımadasındakı ölkələrin feodalizm quruluşu, eləcə də İran, İraq, Liviya və başqa müsəlman ölkələrində repressiv rejimin hökm sürməsi üzündən bəzi müşahidəçilər belə bir tələsik nəticə çıxarıblar ki, islam, xüsusən də ərəb mədəniyyəti ilə demokratiya bir araya sığa bilməz. Amerikadakı Harvard Universitetinin məşhur professoru Samuel Hantinqton böyük hay-küyə səbəb olan "Sivilizasiyaların toqquşması" adlı məqaləsində ("Cleach of Civilization", Foreign Affairs, 1993) yazır: "Əksər müsəlman ölkələrində demokratiyanın uğursuzluğuna başlıca səbəb islam mədəniyyətidir". Daha sonra elə həmin məqalədə iddia edilirdi ki, demokratiyanın uğurlu inkişafı üçün guya ən zəruri şərt elə Qərb xristianlığıdır.

Bu mövqeyi dəstəkləyənlər unudurlar ki, Avropanın ateist mütəfəkkirləri xristianlığa qarşı məhz həmin iradları irəli sürürdülər. Məsələn, Nitsşe deyirdi ki, xristianlıq insanın iradəsini əlindən alan və onda canlı nə varsa, hamısını məhv edən bir dindir (bax: F.Nitsşe, "Antixristianin"). Qərbin Platondan Hegelə, Berkə və Marksadək gəlib çıxan möhkəm antidemokratik ənənəsi də unudulur. Bunu da yaddan çıxarırlar ki, 50-ci illərədək Avropada demokratik hüquqi dövlət quruluşu qayda yox, istisna hal sayılırdı.

İudaizm, xristianlıq və islam mənbələrini obyektiv nəzərdən keçirərkən müəyyən etmək olar ki, hər dinin elə müddəaları var ki, onları həm demokratiya, həm avtoritarizm kimi təsnifləmək olar.

İSLAMDA DEMOKRATİYA?

İslam dedikdə, bu gün nəyi başa düşürük? İslam – orta əsr dahilərinin mədəniyyəti, yoxsa əfqan taliblərin cahilliyi-

Satış üçün nəzərdə tutulmayıb

dir? İslam – müstəbid dövlətdə zülm və korrupsiya, yoxsa müstəqillik və ləyaqət uğrunda mübarizəyə ruhlandıran bir idealdır?

İslam ölkələrindəki çoxsaylı təriqətlərə və üsul-idarə formalarına baxmayaraq, bütün müsəlmanlar qəbul edirlər ki, dünyada ancaq bir islam var. Onun qaynaqları Quran və Sünnədədir (Məhəmməd peyğəmbərin kəlamları və gördüyü işlər). İslam qaynaqlarını öyrənərkən aşkar etdim ki, burada seçmək azadlığı, bərabərlik, insan ləyaqəti, dini azadlıq, milli fərqlərlə hesablaşma, xalq suverenliyi, ictimai saziş, qanunun aliliyi, sosial dövlət və insanın fəal həyati mövqeyi haqqında külli miqdarda müddəalar var.

QURANİ-KƏRİMDƏN BƏZİ SİTATLARA NƏZƏR SALAQ

XALQIN İDARƏSİ. Allahın yerdəki müavini, dini nüfus sahibləri yox, hətta peyğəmbər də yox, xalqdır! Yalnız xalq öz müqəddəratını həll edə bilər: ”Mən yer üzündə müavinimi yerləşdirəcəm”(2:30). Siz insanlar yaradılan ən gözəl ümmətdiniz. Düzgünlüyü buyurardınız, adamları fənalıqdan qoruyardınız” (3:110).

Yəni yer üzündə öz həyatlarını idarə etmək və daim abadlaşdırmaq məhz insanların vəzifəsidir.

ÜMUMUN RAZILIĞI PRİNSİPİ. Peyğəmbər şəxsən özü qərar qəbul etməməlidir. O, ümumun razılığına uyğun iş görməlidir: “...işlərini məşvərətlə həll eləyirlər” (42:38), “... onlarla məsləhətləş...”(3:159), “İnandırsana bunları onlara, sənin borcun onları inandırmaqdır. Sən onlara hökm eləyən deyilsən” (88.21.22).

SEÇMƏK AZADLIĞI. İslama görə, insan seçmək hüququna malikdir. İnsanın Allah qanununu qəbul etməyə haqqı var, bu halda o özü Allah qarşısında cavab verməli ola-

Satış üçün nəzərdə tutulmayıb

caq: “De ki, “Rəbbinizin dərgahından gəlmiş haqq. İnanmaq istəyən inansın, istəməyən dansın onu” (18:29).

VİCDAN AZADLIĞI. “Dində məcburiyyət yoxdur” (2:256). “Sənmi zor işlədirsən insanları gətirmək üçün?” (10:99). “...heç məcbur edərik ki, istəməyə-istəməyə bunları qəbul edəsiniz?” (11:28).

ŞƏXSİ TƏHLÜKƏSİZLİK. “Özgənin evinə nəbadə icazəsiz, sahibinə salamsız girəsiniz” (24:27).

FƏAL HƏYATİ MÖVQE. “...Allah istəsəydi əgər, onlardan intiqamı Özü alardı. Ancaq sizləri bir-birinizlə imtahana çəkmək istəyər O”(47:4).

AİLƏ. “(ailədə) kimin gücü nəyə çatırsa, onu öz boynuna götürsün”... “...(ailədə kişi ilə arvad) işlərini məşvərətlə və ümumi razılıqla (etməlidirlər)” (2:233).

SOSİAL TƏMİNAT: “Və onların var-dövlətində əl açanın və ehtiyacı olanın da payı var idi” (51:19).

MƏHƏMMƏD PEYĞƏMBƏR

İndi də İslamın növbəti qaynağı – Sünnəyə baxaq. Peyğəmbərə qədərki və onun fəaliyyətindən sonrakı ərəb siyasi tarixinə nəzər salsaq, Məhəmməd peyğəmbər, sözsüz ki, dövrünün ən görkəmli mütəfəkkiri və siyasi xadimi sayılmalıdır.

Çağdaş demokratlar üçün belə bir fikir xüsusən maraqlıdır ki, uğurlu bir tacir olan Məhəmməd elə nadir orta əsr mütəfəkkirlərindən idi ki, liberalizmin prinsiplərindən olan seçmək azadlığı, şəxsin təhlükəsizliyi, mülkiyyət və zora müqavimət göstərmək hüququnu axıradək başa düşüb, qəbul edib, daim həyata keçirirdi.

Hədislərdə məlumat verildiyi kimi, Məhəmməd peyğəmbər buyurmuşdu: “Heç kəs günah sayılan göstərişlərə tabe

olmamalıdır. Bu kəlam yalnız dindarın tabe olmamaq hüququnu açıqlamır, o həm də göstərir ki, Allaha görə cinayətkar əmrə tabe olmamaq dindarın borcudur. Qeyd edim ki, məzmunca buna yaxın bir müddəa bu gün yalnız Almaniya Konstitusiyasında var.

"Heç bir ərəb qeyri-ərəbə nisbətən hansısa üstünlüyə malik deyil. Eləcə də qeyri-ərəb zənciyə nisbətən, zənci ağ adama nisbətən hansısa üstünlüyə malik deyil".

"Mənim icmamdakı rəy müxtəlifliyi Rəbbimizin rəhminin nişanəsidir".

"Əgər adamların (şəxsi) sirlərini açmağa səy göstərsəniz, onları məhv edərsiz, yaxud ən azı onları uçurumun kənarına atmış olarsınız".

"İman gətirmək gündə beş dəfə qərbə, yaxud şərqə baş əymək deyil. İman odur ki, Rəbbə inanıb xeyirxah və ədalətli işlər görəsiniz".

"Biz (müsəlman) başqa xalqların bizdən qabaq keçdiyi yolları addım-addım keçməliyik".

Məlumdur ki, Mədinə əhalisinin əksəriyyətindən ibarət tərəfdarlarının razılığını əldə edən Məhəmməd peyğəmbər öz üsul-idarəsinə başlamazdan öncə hökmdarla şəhər əhalisi, o cümlədən milli və dini azlıqlar arasında qarşılıqlı təəhhüdlər haqqında ictimai saziş imzaladı. Həmin "Mədinə müqaviləsi" düz min il sonra Lokk və Russonun təsvir etdiyi kimi elmi abstraksiya yox, real fəaliyyət göstərən "ictimai saziş" idi.

Nəhayət, peyğəmbərin bir kəlamını yada salmaq istərdim. Bu kəlam öz hüquqlarının müdafiəsinə qalxan adamlar üçün çox vacibdir.

"Kim şərlə üz-üzə gəlsə, silahla ona qarşı vuruşsun, gücü çatmırsa, qoy şərə qarşı fikrini açıq söyləsin, ona da gücü çat-

mırsa onda bu şəri öz ürəyində bağlasın. Amma, bu, iman gətirməyin ən zəif təzahürü olacaq".

Demokratiyanın kökü bu deyilmi? Əgər biz müsəlman aləmində despotizmi, yaxud insanın sosial passivliyini, cəhalətpərəstliyi, yaxud korrupsiyanı müşahidə ediriksə də, bütün bunların islamın qaynaqları ilə heç bir əlaqəsi yoxdur. Elə ABŞ Konstitusiyasında nə quldarlıq, nə seqrasiya haqda bir söz deyilir, halbuki irqçilik yalnız Amerika inqilabından 200 il sonra ləğv edildi.

Bu gün müsəlman aləminin mütərəqqi yönümlü dini lideri islam qaynaqlarındakı demokratik müddəalardan əməli şəkildə faydalanır. "ƏL-XOİ Fondu" Beynəlxalq İslam Xeyriyyə Cəmiyyətinin London ofisində qonaq olarkən bunun şahidi oldum.

1997-ci ilin martında Britaniya ictimaiyyəti çox mühüm bir elmi kəşfi – "klonin q"i (canlı orqanizmin dəqiq kopiyasının törənməsi) geniş müzakirə edirdi. Müzakirə iştirakçılarının çoxu mənəvi və dini baxımdan bu qeyri-təbii çoxalma üsuluna qarşı çıxırdı. Proqramlarını dünyanın hər yerində yayımlayan SkY TV şirkəti verilişlərin birində Britaniya alimləri, siyasətçiləri, ictimai və dini xadimləri arasında məsələyə münasibəti aydınlaşdırmaq üçün rəy sorğusu keçirtdi. Verilişdə Britaniyada sayı milyona çatan müsəlman icmasının liderlərinə də (verilişdə "Əl-XOİ" cəmiyyətinin bir alimi də iştirak edirdi) müraciət edildi. Öz aralarında, həmçinin də Misir və İrandakı mütərəqqi fikirli həmkarları ilə məşvərət aparan Britaniyanın islam üləmaları bu nəticəyə gəldilər ki, islam kloninqi yasaq saymır, əksinə, Allahın yerdəki nümayəndələri olan insanları daim Allahın yaratdığı mühiti və sosial şəraiti yaxşılaşdırmağa səsləyir (3:110). Odur ki, kloninqə yol vermək olar, yalnız bir şərtlə ki, bu zaman mənəvi məqsədlər rəhbər tutulsun.

Satış üçün nəzərdə tutulmayıb

UĞURSUZLUQLARIN BAŞLICA SƏBƏBİ

Demokratiyanın uğursuzluqlarını islam mənbələri ilə əlaqələndirmək qeyri-mümkündür, gördüyünüz kimi, islam mahiyyəti etibarı ilə anti-demokratik deyil! Demokratiyanın məğlubiyyətində əsas səbəb şüurumuzun qaranlığın əsarətindən çıxarılmasına yönəldilməməyidir.

Nə xeyirxah hökmdar, nə də yaxşı konstitusiya, yaxud müdrik, müqəddəs kitab öz-özlüyündə demokratiyanın uğuruna gətirib çıxarmır. Demokratiya yalnız o zaman mümkündür ki, öz hüquqları uğrunda rasional və inadkar mübarizə aparan insanlar hakimiyyətə nəzarəti həyata keçirə bilsinlər.

Fikrimcə, həm islam, həm Latın Amerikası, həm də kommunist rejimli ölkələrdə demokratiyanın qələbə çalmasının köklü, psixoloji səbəbləri eynidir. Keçmiş sosialist bloku ölkələrində yaşayan adamlara bu səbəblər tanışdır.

Məsuliyyətdən, tənhalıqdan və "azadlıqdan qaçıb" (Erix Fromm) məsuliyyətimizi bölüşən kollektiv mühitində, adi və aydın qərarlar aləmində gizlənmək, yaxud müqəddəratımızı həll edəsi "böyük qardaş"ın himayəsinə keçmək kimi məsələlər bizə yaxşı tanışdır.

Azad olmayan, antidemokratik şüurun əsas əlamətləri bunlardır: ali məqsədlər naminə insan haqlarından geri durmaq; problemə baş qoşmaqdan çəkinmək; inkişafa imkan verməyən daimi harmoniya və konsensus axtarışı, ümumi şübhəlilik; münaqişəli şüur; həm də eyni zamanda münaqişələri dinc yolla həll etmək bacarığı olmadığından hər hansı münaqişədən qaçmaq... İstənilən avtoritar cəmiyyətdə bu əlamətlər eynidir.

Nyu-Yorkun Kolumbiya Universitetində "İnsan haqları və dini azadlıqlar" proqramında iştirak edərkən müşahidə etdim ki, böyük əksəriyyəti qeyri-müsəlman olan şərqi avropalılardan heç kəsin (o cümlədən elə mənim də) cürəti çatmadı ki, təşkilat-

Satış üçün nəzərdə tutulmayıb

çıların nəzərdə tutduğu kimi, proqram mühazirəçilərini və bütövlükdə proqramı düzgün qiymətləndirə bilsin. Biz həqiqəti söyləməyə öyrəşməmişdik... Bu isə dinin yox, kommunist avtoritarizminin nəticəsi idi. "Kolumbiya"nın amerikalı tələbələri də bizimlə birgə o mühazirələri dinləyirdilər, ancaq onlar müəllimlərinin çıxışlarına çox asanlıqla qiymət yazdılar.

Göründüyü kimi, dini avtoritarizm və ekstremizm cahilliyinin demokratiyaya meydan oxuduğu nə birinci, nə də sonuncu hadisədir.

İSLAHAT CƏHDLƏRİ

Müsəlman Şərqi xristian Qərbinə nisbətən gerilədikcə islam cəmiyyətini modernləşdirmək və demokratikləşdirmək səyləri artırdı. İslam islahatçısı mütəfəkkiri əl-Əfqaninin xidmətlərindən söz açmaq yerinə düşərdi. Əl-Əfqani 19-cu əsrin ortalarında islam irsini yenidən qiymətləndirmək və islam təcrübəsini yaxşılaşdırmaq konsepsiyasını irəli sürdü. Əl-Əfqani deyirdi ki, Qərb öz təcrübəsində çağdaş Şərqə nisbətən daha çox əsl islam normalarına riayət edir.

Müsəlman aləmində dünyəvi və ateist yönlü çıxışlar da fəallaşmağa başladı. Osmanlı İmperiyasında Avropapərəst "Tənzimat" islahatı keçirildi. 19-cu əsrin ortalarında Azərbaycanda M.F.Axundzadə maarifçilik və liberalizm ideyalarını təbliğ etməyə başladı. 20-ci əsrin əvvəllərində Krım tatarı olan İsmayıl bəy Qaspiralı müsəlman ölkələri üçün yeni dünyəvi təhsil sistemi layihəsi hazırlayıb həyata keçirtdi.

İslam SSRİ respublikalarında əslində qadağan olunmuşdu. Türkiyədə isə dövlətin ciddi nəzarəti altında idi. Bu ölkələr orta əsrlər həyat tərzindən yaxa qurtarmaq işində uğur qazanmışdılar. Elə fikir yaranırdı ki, islam ölkəsini modernləşdirmək probleminin həlli yolu tapılıb.

Satış üçün nəzərdə tutulmayıb

Amma islahatçıların islamı ictimai həyatdan kənarlaşdırmaq cəhdi baş tutmadı. İslam əksər müsəlmanlar üçün özünüdərkin ən mühüm komponenti və çağdaş dünyanın hər hansı böhran və gərginliyindən universal sığınacaq olaraq qalmaqda davam edirdi. İslam həm müstəmləkəçiliyə qarşı, həm də (müstəmləkəçilik əldə edildikdən sonra) ölkə daxilində despotizmə qarşı mübarizənin bayrağına çevrilməkdəydi. Nəhayət, həm Qərb kapitalizminə və fərdiyyətçiliyinə, həm də bolşevik ideologiyasına alternativ sayılan islam sosializmi və islam ölkələrindəki millətçilik "inkişafın üçüncü yolu" kimi nəzərdən keçirilirdi.

1955-ci ildə Bandunq konfransında iştirak edən 29 Asiya və Afrika ölkəsinin millətçi liderləri də elə "inkişafın üçüncü yolu"nu elan etdilər. Konfransdan sonra bu ölkələri Üçüncü dünya ölkələri adlandırmağa başladılar. Amma ənənəvi islam cəmiyyətində müasir dövlət qurmağın bu cəhdləri də məğlubiyyətə uğradı. Bunu başa düşmək də çətin deyil. Axı heç nəyi dəyişmədən hər şeyi dəyişdirmək mümkün də deyil. İslam ölkələrində yaşayan xalqlar ağır iqtisadi və siyasi böhranla qarşılaşan zaman inkişafın dünyəvi millətçi konsepsiyasına olan ümidləri boşa çıxdı və bu xalqlar ictimai həyatın və dövlət quruculuğunun yeganə mötəbər forması kimi islama üz tutmağa başladılar. İran islam inqilabından sonra bütün müsəlman ölkələrində "islam dövləti" qurmaq zərurətindən danışmağa başladılar.

Bəs bu "islam dövləti" nə deməkdir? İslamın ənənəvi qəbulu zamanı bu ideya ən yaxşı halda çoxluğun heç nə ilə məhdudlaşdırılmayan hakimiyyəti sistemini yarada bilər. İnsan haqlarını qəbul etməyən demokratiya rejimi yaranar. Məsələn, bugünkü İran Konstitusiyasında çoxsaylı şəxsi və siyasi hüquqlar təsbit edilib. Bununla belə həmin hüquqlar yalnız is-

 Satış üçün nəzərdə tutulmayıb

lama zidd olmayan hallarda tətbiq edilə bilər. İran Konstitusiyasının 24-cü maddəsi "İslam prinsiplərinə zidd olan hallar istisna edilməklə" "özünüifadə azadlığını" təsbit edir.

"İslam dövlətləri" adlanan ölkələri kənardan seyr edərkən bu nəticəyə gəlirsən ki, bu dövlətlər xalqa nə mənəvi dinclik, nə azadlıq, nə də inkişaf verə biliblər.

İSLAHATÇILARIN YENİ NƏSLİ

İslam cəmiyyətindəki islahatlar uğursuzluğa uğradıqda – 70-ci illərdə islahatların vəzifəsi belə müəyyənləşdirildi: islamdan imtina etmək mümkün deyil, amma islam indiki avtoritar vəziyyətdə başa düşülsə, bütün inkişaf ümidləri boşa çıxacaq.

İnsan haqlarının üstünlüyünün dərk edilməsi, müxtəlifliyin inkişafın əsas hərəkətverici qüvvəsi kimi qəbul edilməsi islam islahatçılarının yeni nəslinin ideologiyasında başlıca dönüş məqamına çevrildi.

Son 20 ildə meydana çıxan və liberal fəlsəfənin əsaslarını heç də islamdan pis bilməyən bu mütəfəkkirlər islamda demokratiyanın köklərini axtarmağa başladılar. İslamı Quranda və Sünnədə olduğu kimi bütünlüklə qəbul edən bu alimlər Quranın dəyişməz mətni ilə dəyişkən həyat şəraiti arasında uyğunlaşma aparmağa çalışırlar. Onlar belə hesab edirlər ki, dövlət dini, cəmiyyət isə plüralist olmalıdır.

İslam ənənəçiləri ilə fəal fikir yarışması aparan yeni islahatçılar nəsli deyir ki, Quranda və Sünnədə hər hansı siyasi strukturun bərqərar edilməsi göstərilməyib. İslam qaynaqlarında Quran müddəalarının həyatda tətbiq üsulu barədə də heç bir göstəriş yoxdur. Müsəlman icması konkret həyati məsələnin həlli üçün qanunvericilik aktı qəbul etmək məcburiyyətində qaldığı zaman, adətən, icma "ictihad" adlanan

Satış üçün nəzərdə tutulmayıb

acıq müzakirələrdə bu qanunu Quran və Sünnə müddəalarının köməyi ilə yaratmalı olurdu. Göründüyü kimi, islam dövlətinin strukturu və islam qanunvericiliyi (Şəriət) müqəddəs kitablardan yox, icma üzvlərinin düşüncəsindən yaranıb. Müqəddəs kitab susmaqdadır. Allah qanunların de-yure yaradıcısıdır, icma üzvləri isə bu qanunları de-facto tətbiq edənlərdir.

Aydın məsələdir ki, bu qanunların mütərəqqiliyi bütünlüklə ictimai şüurun inkişaf səviyyəsindən asılıdır. Elə avtoritarçılar kimi, islahatçı-demokratların yeni nəsli də ictihaddan öz məqsədlərinə görə istifadə etməyə çalışırlar.

Misirin teologiya professoru Mühəmməd Xələf-Allah deyir: "Yeni mülahizə ictimai maraqlara daha çox uyğun gəldiyi halda, mülahizəyə əsaslanan hər şey dəyişdirilə bilər".

İran professoru Əbdul Kərim Soroş yazır: "Bizim dini qavrayışımız daimi inkişafdadır. Müqəddəs kitab dəyişilməz qalır. Bizim bu kitabı dərk etməyimiz isə daimi dəyişir. Hər kişi və qadın islamı öz anladığı kimi başa düşmək hüququna malikdir".

Qərbin akademik dairələrində ən nüfuzlu islam mütəfəkkirlərindən biri kimi tanınan professor Ə.Soroş İran İslam inqilabının dərrakəli liderlərindən olub. Ə.Soroş inqilabdan sonrakı ilk illərdə yeni ali təhsil proqramının tərtibində fəal rol oynayıb. Amma çox keçmədi ki, hakimiyyəti ələ keçirmiş dini nüfuz sahibləri Ə.Soroşun fikirlərini olduqca ziddiyyətli və hətta küfr elan etdilər. Bununla belə, ziyalılar və tələbələr arasında Soroşun böyük hörməti var. Səbəbi də aydındır. Soroş deyir: "İslam və demokratiya nəinki bir araya gələ bilər, onların birliyi zərurətdir". "Əsl dindar olmaq üçün insan ilk növbədə azad olmalıdır". "Cəza hədəsi ilə qəbul edilən inam həqiqi inam ola bilməz. Dindar öz dinindən im-

Satış üçün nəzərdə tutulmayıb

tina etmək hüququna da malik olmalıdır. Demokratiyanın əsası da bundan ibarətdir (qeyd edək ki, İranda dindən imtina ölüm hökmü ilə cəzalandırılır - H.H.).

Soroşun fikrincə, inamı qoruyan və Quranı şərh edən dini liderlər nə dövlətdən, nə də dindarlardan maliyyə yardımı almalıdır. Onlar özləri işləyib pul qazanmalıdır. Yalnız bu halda dini liderlər və bütövlükdə islam sosial sifarişlərdən tamamilə azad olacaq, müqəddəs kitabı şərh edərkən müstəqilliyini qoruyub saxlaya biləcəklər.

Başqa bir islam islahatçısı Əbdi hilali-Əksəri yazır: "Soroş müsəlmanları əsl, həqiqi müsəlman etmək istəyir. İstəyir ki, insanlar islamın yüksək dəyərlərini ənənəyə baş əyməklə, yaxud qorxuya görə yox, şüurlu şəkildə, şəxsi seçmənin nəticəsi kimi qəbul etsinlər".

Bu gün yalnız müsəlman mütəfəkkirləri yox, islam ölkələrindəki siyasətçilər də islamla demokratiyanı uyğunlaşdırmağa cəhd edirlər. Tunisin siyasi xadimi Rəşid Qannuçinin adını çəkmək yerinə düşərdi. Qannuçi 1981-ci ildə islam kontekstində demokratik proqramlı İslam Dirçəliş Partiyasının əsasını qoymuşdur. Qannuçi ictimai həyatın bütün sahələrində, qadınların hüquq bərabərliyi də daxil olmaqla, müasir və demokratik cəmiyyətə xas bütün atributları saxlayan islam sisteminin tərəfdarıdır. Qannuçi yazır: "İslamın rolu mənəvi dəyərlər sistemini müəyyən etməkdən ibarətdir. İslam mənbələrində hansısa konkret fəaliyyət proqramı yoxdur. Quran yalnız əsas prinsipləri müəyyənləşdirib. Problemlərimizin həlli üçün fəaliyyət proqramı hazırlamaq isə bizim vəzifəmizdir". Yəməndə islamçı alim İbrahim əl-Vəzir də çoxsaylı tərəfdaşları olan müxalifətçi partiya üçün islam kontekstində buna bənzər bir demokratik proqram hazırlayıb.

Satış üçün nəzərdə tutulmayıb

Dövlət quruculuğu, siyasi və şəxsi azadlıqlar, ənənələr, məişət və mədəniyyət – islamçı islahatçıların yeni nəsli bütün bunlara tənqidi baxımdan yanaşır. Misir alimi Fəthi Osman yazır: "Biz müsəlmanların açıq münasibət bildirəcəyimiz əsas məsələlər bunlardır – qadınlar və kişilər arasındakı qarşılıqlı münasibətlər, bir də müsəlmanlarla qeyri-müsəlmanlar arasındakı qarşılıqlı münasibətlər". "Nə Quran, nə də Sünnədə qəti şəkildə göstərilməyib ki, qadın yalnız ailə həyatı üçün yaranıb və onun əsas yeri dörd divar arasında olmalıdır".

Bir məsələni də qeyd edək ki, hədislərdə yazıldığına görə, Məhəmməd peyğəmbər namazlardan sonra evə qayıdan zaman ev işlərində köməklik edirmiş.

"AZADLIQ NƏSİMİ"

İslam islahatçılarının fəaliyyəti hakimiyyətin, ruhani idarələrinin və əhalinin mühafizəkar hissəsinin böyük müqaviməti ilə qarşılaşır. Bu səbəbdən bəzi islahatçılar öz ölkələrini tərk edib Qərb ölkələrində yaşamağa məcbur olurlar. Buna baxmayaraq, islamda islahat ideyaları geniş yayılmaqdadır. Əsas məsələ odur ki, İraqın müsəlman dissidenti S.M.Bəhrul Ulumun yazdığı kimi, "millət azadlıq nəsimi hiss edib". Kütləvi kommunikasiya və adamların sərbəst yerdəyişməsi əsrində demokratik ideyaların yayılmasının qarşısını almaq mümkün deyil. Bundan başqa, azad cəmiyyətlərin uğurları açıq-aşkar hiss olunduğu zaman az adam demokratiya ideyasına qarşı açıq çıxış edə bilər.

Səudiyyə Ərəbistanı kralı Fəhd "Əl-Siyasa" jurnalına verdiyi müsahibədə (mart, 1992-ci il) islam və demokratiya haqqında sualı belə cavablayıb: "Dünyada yayılmış demokratiya bizim bölgəyə uyğun gəlmir. Bizdə özünü kifayətləndirən bir sistem, mükəmməl bir din olan islam var. Sərbəst

Satış üçün nəzərdə tutulmayıb

seçkilər müsəlman dini sferasına aid deyil. Sərbəst seçki tərəfdarları bizim Səudiyyə Ərəbistanı krallığında yaşaya bilməzlər".

Ancaq başqa bir müsəlman kralı – Oman sultanı Kabus Hollandiya qəzetinə verdiyi müsahibədə (fevral, 1993-cü il) buna tamamilə zidd bir fikir söyləyib: "islam mahiyyəti etibarilə demokratikdir. Biz imkanların bərabərliyinə inanırıq. Biz inanırıq ki, həm dünyəvi, həm də dini rəhbərlərimiz Allah qarşısında məsuliyyət daşıyırlar. Biz inanırıq ki, vətəndaşların öz fikirlərini sərbəst ifadə etmək hüququ olmalıdır. İslamın əsas mahiyyəti elə bundan ibarətdir".

Bəli, bu, feodal bir kralın bəyanatı idi, həqiqətən, "heç bir kəs tənha ada deyil" (ələlxüsus 3-cü minilliyin ərəfəsində).

Müsəlman aləmini bürüyən böhrandan çıxış yollarının axtarılması və islamda demokratiya haqqında müzakirələr bu gün bütün islam cəmiyyətlərini, xüsusən, xarici ölkələrdəki müsəlman icmalarını narahat edən əsas məsələlərdir. Britaniyaya mühacirət etmiş müsəlmanlarla söhbətlər zamanı islam ölkələrinin inkişafı yolları haqqında ən ziddiyyətli fikirlərlə tanış oldum. Bu mövzu hər kəsi maraqlandırırdı. "Ənənələrimizdən imtina etsək ərəbliyimiz qalmayacaq", "biz orta əsrlər islamından xilas olmalıyıq", "nə üçün biz müasir yəhudilər kimi olmayaq? Onlar etiqadlarını qoruyurlar, amma müasir yaşayırlar".

Londonda islamın daxilində gedən daha bir maraqlı hərəkatın şahidi oldum: İslamın müxtəlif cərəyan və təriqətləri arasında dialoq yaranmaqdadır. Londonda şiələr və sünnilər eyni məsciddə ibadət edə bilirlər, ancaq əvvəllər bu, əsl problem idi. İslamın müxtəlif cərəyanlarının liderləri arasında barışıq haqqında, həm də ümumbəşəri dəyərlərə əsasən

Satış üçün nəzərdə tutulmayıb

ümumislam mövqeyinin yaradılması haqqında müntəzəm dialoqlar aparılmağa başlayıb.

Get-gedə daha çox müsəlman həyat şəraitini zamanın tələbinə uyğunlaşdırmaq qərarına gəlir. Və beynəlxalq birlik islamı qaralamaq əvəzinə bu mütərəqqi islahatçı hərəkatı dəstəkləməlidir. Eyni zamanda bəzi islam rejimlərində orta əsr cəhalətpərəstliyini yaymaq cəhdlərinə qarşı hamı öz sözünü söyləməlidir. "Biz imkan verə bilmərik ki, mədəni fərqlər repressiyaların son dayağına çevrilsin" (U.Xristoffer, iyul 1993-cü il). Demokratik ölkələr qarşısında əsasən bu iki "islam vəzifəsi" qalmaqdadır.

Şübhəsiz, müsəlman ölkələrinin dirçəlməsində əsas rol müsəlmanların öz üzərinə düşür. İslam ölkələrindəki alimlər və ziyalılar bir şeyi anlayıb qəbul etməlidirlər ki, insan vasitə yox, məqsəddir, "insan haqları ümumbəşəridir" və " başqaları" da bizim kimi insandır (Fəthi Osman).

Ancaq mənə belə gəlir ki, insan haqlarının üstün olduğunu qəbul etmək ölkəni dirçəltmək üçün yetərli amil deyil. Məsələn, bizim əməyə münasibətimiz kökündən dəyişməlidir. Müsəlmanlar, o cümlədən Azərbaycan müsəlmanları da nəhayət anlamalıdırlar ki, şan-şöhrət insanın şəxsi unikallığından irəli gələn saxta duyğu deyil, öz əlləri ilə istehsal etdiyi məhsulun bəhrəsidir.

Müsəlmanlar başa düşməlidirlər ki, əxlaq ailə əxlaqı məfhumundan daha çox-çox geniş bir məfhumdur. Və əgər hakim prezidentə "yox" deyə bilmirsə, bu, ən yüksək bir əxlaqın təzahürüdür.

Öz çətinliklərinin əsas səbəbini "Qərbin hiylələrində" görən müsəlmanlara isə sözüm budur: "Qardaş, təsəvvür et, dünyada heç Qərb yoxdur. Sonra bir özünə bax, bir ətrafına... Doğrudanmı biz öz-özlüyümüzdə bu dərəcədə kamilik?"

Satış üçün nəzərdə tutulmayıb

Biz çox çətin, amma şərəfli bir vəzifəni yerinə yetirməliyik. Bu işi bizim əvəzimizə görən olmayacaq. Biz zehni cəhətdən daha səmimi və daha cəsarətli olmalıyıq. Allah o kəslərə kömək edir ki, onlar özləri özlərinə kömək edirlər.

Satış üçün nəzərdə tutulmayıb

MÜSTƏQİL AZƏRBAYCANDA DİNİ ETİQAD AZADLIĞI (1998)

Dini çoxluğun və dini azlıqların problemləri[1]

DİNİ AZLIQLARIN PROBLEMLƏRİ

1996-cı ildə Nyu-Yorkda Kolumbiya Universitetinin "Din və İnsan haqları" proqramı işinə başlayarkən proqramın təşkilatçıları məndən soruşdular: "Dini azlıqların problemləri ilə bağlı hansı kursu seçmək istəyirsiniz?"

– Heç bilmirəm, bizdə belə problem hələ ki yoxdur. Bizdə ancaq müsəlman çoxluğu ilə bağlı bəzi problemlər var, – dedim. Az sonra isə səhv etdiyim aydın oldu.

Hələ Nyu-Yorkda olarkən Azərbaycandan dini azlıqların problemləri haqqında xəbərlər almağa başladım. Məlum oldu ki, ölkəmizdə də yeni "peyğəmbərlər" peyda olubmuş, dini fəallar onları lap ölümlə də hədələyirmişlər. Öyrəndim ki, Azərbaycana xaricdən indiyədək tanıyıb-bilmədiyimiz sektalar, təriqət və məzhəblərin təbliğçiləri (missionerlər) gəlirmişlər. Cəmiyyət onları gözümçıxdıya salır, dövlət onların fəaliyyətinə məhdudiyyət qoyurmuş.

[1] Report To The Conference "The Protection of Religious Minorities. Religious Freedom and Human Rights in Post-Communist Europe", CSHR, SIPA, Columbia University, New York, USA:, Research Center of Jewish History & Culture, Krakov University, Poland. Krakow, March 14-18, 1998

Satış üçün nəzərdə tutulmayıb

1997-ci ilin sentyabrında isə Kolumbiyada mühazirələrdə eşitdiyim bir hadisəyə oxşar hal Bakının Binəqədi rayonunda da baş veribmiş. 13 yaşlı bir qız məktəbə başı örtülü gəlib demişdir ki, tətil vaxtı Allaha tapındığından geyimində xüsusi dəyişiklik olmalıdır. Müdiriyyət isə qızı dərslərə buraxmayaraq: "Dövlət məktəbində uşaqlar müvafiq forma geyməlidirlər", – deyib. Qız isə örtüyünü açdırsalar özünü yandıracağına and içib. Direktor isə bildirib ki, qız istəyirsə, xüsusi dini məktəbdə tədris ala bilər. Bu məsələ indiyədək həll olunmayıb... Doğrusu, bu problemin həllini mən də hələ ki təsəvvür etmirəm.

Yeri gəlmişkən, FREEDOM HOUSE-ın (dünyada demokratiyanın inkişafını öyrənən Amerika təşkilatı) illik hesabatına görə, Azərbaycan azad olmayan ölkələr təsnifinə aid edilib. Ancaq altı illik müstəqillik dövründə cəmiyyətin dövlətdən qazandığı bu məhdud azadlıq belə həyat şəraitində misli görünməyən rəngarənglik yaradıb. İdeologiya, hərəkat, partiya, din, həyat tərzlərinin sayı xeyli dərəcədə artıb. Həyatdakı bu çaşdırıcı müxtəliflikdən narahat olan bəzi parlament üzvləri belə deyirdilər: 1991-ci il – "500 adda qəzet BİZİM nəyimizə gərəkdir?"; 1993-cü il – "50 siyasi partiya BİZƏ lazımdırmı?". 1996-cı ildə artıq deputatlar partiya və qəzetlərin yox: "Bu qədər dini təşkilat və yad sektaları BİZ neyləyirik?". Suallardakı "BİZ neyləyirik?" kimi ifadələr əhalinin əksəriyyəti kimi deputatların da cəmiyyət maraqlarını insanların həyatda mövqe seçmək hüququndan üstün tutmasına işarədir... Müxtəlifliyin isə artıq qarşısını almaq mümkün deyil. Azadlıq öz işini görüb. Cəmiyyət çoxfikirlilik və dözümlülük şəraitində yaşamağa alışmalıdır...

Satış üçün nəzərdə tutulmayıb

Bəs ümumiyyətlə ölkədə vicdan azadlığı məsələsi nə yerdədir? Kommunist rejiminin süqutundan sonra din cəmiyyətimizdə önəmli bir yer tutdu. 1992-ci ildə parlament "Dini etiqad azadlığı" haqqında demokratik bir qanun qəbul etdi, onlarca yeni dini təşkilat qeydiyyatdan keçdi. Elə həmin il prezidentin fərmanı ilə dini etiqad ocaqları dindarlara qaytarıldı, dini təhsilə bütün azadlıqlar verildi. Dini mərasimlərdə rəsmi şəxslər görünməyə başladılar. Siyasətçilər dindarlarla dostluq etməyə başladılar. Din amilindən istifadə edən bəzi İslam dövlətləri Azərbaycanda İslam rejiminin təbliğinə ətək-ətək pullar sərf etdilər. Amma dini intibah baş vermədi. Din mənəvi bir faktor kimi ölkəyə qayıda bilsə belə, görünür, sovet ateizminin təsiri nəticəsində Azərbaycanda şəriət – islam qanunvericiliyi çətin ki qüvvəyə minsin. Konstitusiyada da, əsas siyasi partiyaların proqramlarında da din tamamilə dövlətdən ayrılıb.

Azərbaycanlıların böyük əksəriyyəti özünü müsəlman saysa da, İslam qayda-qanunlarına əməl edənlər bir elə də çox deyil. Azərbaycanın şəhər və kəndlərində başı çarşablı qadınlar Londonda və, əlbəttə, İstanbulda da çarşab taxanlardan çox-çox azdır. Artıq din yox, dini azlıqların problemi böyük müzakirə obyektinə çevrilib.

Bu gün cəmiyyət yalnız əhalinin etiqad etdiyi ənənəvi dinləri – İslamı, Pravoslavlığı və İudaizmi qəbul edə bilir. Yeni dini təşkilatları və xaricdən axın-axın gələn həm xristian, həm də müsəlman missionerlərinə gəlincə, cəmiyyət bu növ fəaliyyəti milli birliyə xələl, milli təhlükəsizliyə zərbə kimi qəbul edirdi. "Dini etiqad azadlığı" haqqında qanun hər tərəfdən kəskin tənqidə tutulurdu.

 Satış üçün nəzərdə tutulmayıb

1996-cı ildə parlament bu qanuna dəyişikliklər etdi. Xarici missionerlərin fəaliyyəti dayandırıldı, müstəqil dini icmalara isə tövsiyə edildi ki, ənənəvi dini təşkilat mərkəzlərində qeydiyyatdan keçsinlər. İqtidar və müxalifət qəzetləri İran, yaxud Əlcəzair variantından, eləcə də Qərbin mədəni imperializmindən ehtiyatlanaraq dini təşkilatları cəmiyyətə zidd fəaliyyətdə ittiham etdilər.

İnsanın qeyri-ənənəvi həyat tərzi, yaxud onun vicdan azadlığı cəmiyyətimizin demokratikliyini növbəti dəfə ciddi sınaq qarşısında qoydu. Vahid kommunist ideologiyası səhv fikir kimi ləğv edilsə də, çoxluq hələ də hamıya şamil edilən vahid həqiqətin mövcudluğuna inanır. "İslam İttifaqı" dini təşkilatın rəhbəri Hacı Azər Ramizoğlu ötən ilin yazında "Azadlıq" qəzetinə verdiyi müsahibədə belə demişdi: "Üzümü həm iqtidara, həm müxalifətə tutub deyirəm: bizə düşmən kimi baxmasınlar. Elə bilməyin ki, sizə bənzəməyən kəs sizə düşməndir".

Yeni müsəlman təşkilatlarına yanaşma son dərəcədə ehtiyatlıdır. Yeni xristian təşkilatlarına münasibət isə düşmən münasibəti daşıyır. Parlamentdə prezidentin humanitar məsələlər üzrə müşavirinin (Fatma Abdullazadə) fəaliyyətini müzakirə edən bir deputat qardaşının dədə-baba dinimizdən üz döndərib xristianlığı qəbul etməyinə görə xanım müşaviri etibarsızlıqda suçlandırdı.

Qəzetlərdə bəzi xristian missionerlərin uşaqlar üçün dini kitablar yaymaqları oxucular tərəfindən də tənqid olunur. Bu məsələdə hökumət də fəaliyyətsiz deyil. "Dini etiqad azadlığı" haqqında qanuna düzəlişində deyilir: "Dini ədəbiyyat çap olunarkən, yaxud ölkəyə gətirilərkən mütləq Azərbaycan Nazirlər Kabineti yanında Dini İşlər Üzrə Komitənin razılığı alınmalıdır" (Maddə 23, paraqraf 3). İndi isə Azərbaycan

Satış üçün nəzərdə tutulmayıb

tərəfindən imzalanmış BMT-nin Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın 19-cu Maddəsinə nəzər salaq.

- Hər bir insan şəxsi fikri olmaq hüququna malikdir.
- Hər bir insanın öz fikrini sərbəst ifadə etmək hüququ var. Bu hüquqa dövlət sərhədlərindən asılı olmayaraq hər cür informasiya və ideyaları axtarmaq, almaq, şifahi, yazılı, mətbuat, yaxud bədii ifadə formaları vasitəsilə, yaxud özü seçdiyi başqa üsullarla yaymaq azadlığı daxildir.
- Bu maddənin 2-ci bəndində göstərilən hüquqlardan istifadə olunması xüsusi vəzifələr qoyur və məsuliyyət tələb edir. Belə ki, bu, bir sıra məhdudiyyətlərlə bağlı ola bilər. Lakin onlar qanunla müəyyənləşdirilməli və aşağıdakıların təmin edilməsi üçün zəruri olmalıdır:
- başqalarının hüquqlarına və adına hörmət edilməsi üçün;
- dövlət təhlükəsizliyinin, ictimai asayişin, əhalinin sağlamlıq, yaxud mənəviyyatının qorunması üçün;

Bu ilin yanvarında Bakıda RF vətəndaşı, "Yahova şahidləri" sektasının nümayəndəsi Aleksandr Usenkonun məhkəmə prosesi oldu. Usenko sektanın Bakı icmasını qeydiyyatdan keçirmək üçün Ədliyyə Nazirliyinin nümayəndəsinə 2000 dollar məbləğində rüşvət təklif etməkdə ittiham olunurdu. Müttəhimin vəkili bildirdi ki, Ədliyyə Nazirliyi sektanı qeydiyyatdan keçirmək üçün düz iki il Usenkodan rüşvət tələb edirmiş. Şərti olaraq 3 illik cəzaya məhkum edilən Usenko məhkəmədən sonra azadlığa buraxıldı. Dövlət televiziyası isə rəsmi məlumatda bildirdi ki, "Yahova şahidləri" terrorçu təşkilat kimi Rusiyada da qadağan edilibmiş. Təbii ki, bu məlumat yalan idi.

Satış üçün nəzərdə tutulmayıb

Hökumətin yeni dini təşkilatlara münasibətini formalaşdıran amillərdən biri də əsas dini idarələrin (Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi, Moskva Patriarxiyasının Pravoslav kilsəsi və Bakı Sinaqoqu) məsləhətləridir. Adı gedən idarələr isə, əlbəttə, yeni zirəng rəqiblərinə heç simpatiya bəsləmirlər.

Bütün bunlara baxmayaraq yeni dini təşkilatlar fəaliyyətdədir. Bu fəaliyyət həm dövlətin, həm də cəmiyyətin təzyiqi altındadır. Fəaliyyətin tam dayandırılmamağına səbəb isə Azərbaycan üçün spesifik olan müəyyən cəhətlərdir. Əvvəla, əhali dini təriqət məsələlərinə çox laqeyddir. İkincisi, iqtidarın yeritdiyi xüsusi, yumşaq avtoritarizm siyasətinə görə, istənilən şəxs hakimiyyət üçün təhlükə yarana bilən məqama qədər istədiyini edə bilər. Üçüncüsü, demokratik birlik (hüquq müdafiə təşkilatları, qəzet və siyasi partiyalardakı liberallar) dini təşkilatları müdafiə edir, Qərb dövlətləri də vicdan azadlığına xüsusi diqqət yetirirlər. Ən nəhayət, yeni dini təşkilatların tənqidçisi onların fəaliyyətini müşahidə edərkən razılaşmaya bilmir ki, necə də olsa, onlar səfillərə və günaha batmışlara yardım əlini uzadırlar, özü də bütün bunları umacaqsız edirlər. Ana kilsələr isə (əsas dini idarələr) belə işlərlə məşğul ola bilmirlər.

AZƏRBAYCAN İSLAM PARTİYASI – DİNİ ÇOXLUQ VƏ SİYASİ AZLIQ KİMİ

Söhbət dini çoxluğun, daha doğrusu, siyasi institutların vasitəsilə özlərini müəyyənləşdirməyə çalışan dindar fəalların problemlərindən gedəcək.

Dünyəvi siyasətçilərin "dindar adamlar siyasətdən uzaq dursalar yaxşıdır" fikri əslində demokratik prinsiplərlə üst-üstə düşmür. BMT-nin İnsan Haqları Ümumi Deklara-

Satış üçün nəzərdə tutulmayıb

siyasında da, Konstitusiyamızda da dindarların siyasi partiya yaratmaq niyyəti qadağan edilmir. Burada bircə əngəl var: həm dünyəvi, həm də dindar siyasətçilər istisnasız hər bir kəsin siyasi prosesdə iştirak etmək hüququnu tanımalı və başqalarına öz həyat tərzini qəbul etdirməməlidir. Təbii ki, heç kəs dövlətin müstəqilliyinə də zərbə vurmamalıdır...

İran islam inqilabı ideyalarının təsirilə yaradılan Azərbaycan İslam Partiyası (İP) 1992-ci ildə qeydiyyatdan keçmişdi. Elə İP-nin əsası qoyulduğu gündən də qəzetlər bu böyük olmayan, amma fəal partiyanın İran hökumətilə əlaqələrindən yazmağa başladı. İslam partiyasının "qərbpərəst" və "türkpərəst" demokratlar hökumətilə dialoqu alınmadı. Lakin İP-nın indiki iqtidarla bəxti heç gətirmədi. 1996-cı ildə partiyanın liderləri və yerlərdəki fəalları İrana casusluqda ittiham edilərək uzunmüddətli həbs cəzasına məhkum olundular.

İP-nın fəaliyyətinə rəsmi qadağa qoyulmasa da, azadlıqda qalan partiya fəalları bütün dairələrdə rədd edilən bir qrupa çevrildilər. Bir il götür-qoy edib dəyərləri yenidən qiymətləndirən islamçılar 1997-ci ilin əvvəllərində İP-nı bərpa etmək istiqamətində fəaliyyətə başladılar. İslam Partiyasının yeni liderləri taktiki dəyişikliklər etmək fikrinə düşdülər.

Qərara alındı ki,

- Partiyanın adı dəyişdirilib Müsəlman Demokrat Partiyası adlandırılsın;
- yeni proqram qəbul edilsin və burada demokratiyaya və konstitusiyaya daha çox yer ayrılsın;
- təcriddən qurtarmaq üçün partiya başqa müxalif qüvvələrlə ittifaqa girsin. (Axı islamçıları repressiyadan

 Satış üçün nəzərdə tutulmayıb

qorumaq istəyən olmadığı halda, görkəmli bir demokrat həbs olunarkən az qala bütün dünya hay-küy qaldırırdı).

Məlum oldu ki, İP daxilindəki mühafizəkarlar yeni dəyişiklikləri qəbul etmirlər. Ona görə də partiyanın yeni rəhbərliyi zamanın tələbləri ilə mühafizəkarların meylləri arasında manevr etməyə məcbur idi.

1997-ci ilin payızında İP-nın yeni liderləri Liberal və Sosial-Demokrat partiyaları ilə əməkdaşlıq haqqında saziş imzaladılır. Liberallarla islamçıları artıq bir məcraya yönəldən nəsnəni müəyyənləşdirə bilməyən qəzetlər bu faktı böyük təəccüblə işıqlandırdılar.

İP-nın növbəti məqsədi Müsavat idi. Müsavatın başqanı İsa Qəmbərlə söhbətlərdən sonra İP liderləri Müsavatın Divanına əməkdaşlıq haqda müqavilə təqdim etdilər.

Müqavilə hər iki partiya qarşısında müəyyən öhdəliklər qoyurdu:

- Müstəqilliyi möhkəmlətmək, demokratiyanı inkişaf etdirmək, konstitusiyanı müdafiə etmək;
- 1998-ci ilin payızındakı prezident seçkilərində əməkdaşlıq etmək (nəzərdə tutulmuşdu ki, İP Müsavatın namizədini dəstəkləyəcək);
- xarici missionerlər və qeyri-müsəlman təriqətlərə qarşı birgə mübarizə aparmaq.

Müsavat rəhbərliyi bu müqaviləni iki ay müddətində müzakirə etdi. Seçkilərə hələ doqquz ay qaldığından tələsməyə ehtiyac duyulmurdu. Əvvəlcə prezident seçkilərində daha bir qrup müttəfiq qazanmaq arzusu üstün gəldi. Müsavatçılar bu fikrə gəldilər ki, "missionerlərlə birgə mübarizə aparmaq" müddəasını mətndən çıxarandan sonra müqaviləyə imza at-

Satış üçün nəzərdə tutulmayıb

sınlar. Sonradan fikir dəyişdi: mövqeyini hələ dəqiq müəyyən etməmiş siyasi bir təşkilatla demokratların müqavilə bağlaması doğru hərəkət sayılmadı. Müsavatın Divanı mövqeyini belə açıqladı: "O zaman müqavilə bağlaya bilərik ki, İP-sı demokratik təşkilat olduğuna, "demokratiya", "konstitusiya" və "insan haqları"nı düzgün anladığına əmin olaq. Ona görə də İP-sı ilə əvvəlcə qarşılıqlı anlaşma haqqında, hər iki partiyanın eyni dəyərləri bölüşməsi haqqında protokol imzalamalıyıq, yalnız bundan sonra əməkdaşlıqdan söhbət gedə bilər.

İP və Müsavat rəhbərləri məşvərət üçün görüş təşkil etdilər. Söhbət zamanı tərəflərin mövqeləri açıqlandı. Aydın oldu ki, bəzi islamçılar demokratiya anlayışını İran hökumətinin demokratiyası kimi qəbul edirdilər. İP rəhbərlərindən biri İrandakı "Vilayəti-Fəkih" rejiminin mahiyyətini belə açıqladı: "Dövlət məsələlərini adi adamlara etibar etmək olmaz. Çünki onlar səhv edə bilər. Ona görə də əvvəl Quranı yaxşı bilən dini rəhbərlər çərçivələri müəyyənləşdirməli, sonra adi vətəndaşlar bu çərçivədə səs verməlidir". Və "ölkədə əksər əhali müsəlmandırsa, demək, qanunumuz da Şəriət qanunu olmalıdır. Konstitusiyaya gəlincə, "hələlik bu konstitusiyaya dözmək olar, gələcəkdə isə onu öz məqsədlərimizə uyğun dəyişə də bilərik".

Sonra Müsavat rəhbərliyi İP liderlərinə "Qarşılıqlı anlaşma haqqında protokol" layihəsi təqdim etdi. Mətn çox mürəkkəb görünməsə də, burada "tanış" olan demokratiya anlayışının bir çox görünməz əngəlləri vardı. Protokolda deyilirdi:

Biz, müqavilə imzalayan partiyalar razıyıq ki,

- Çoxluğun hakimiyyəti BMT-nin İnsan Haqları Ümumi Deklarasiyasında göstərilən fərdi və siyasi haqlarla məhdudlaşmalıdır;

 Satış üçün nəzərdə tutulmayıb

- Din hər kəsin şəxsi işi olub dövlətdən ayrı olmalıdır;
- İnsanın hansı dinəsə sitayiş etmək, ya etməmək və dini-ni sərbəst dəyişmək hüququ var;
- İnsan dini ayinləri təkbaşına, yaxud həmfikirləri ilə birgə yerinə yetirmək, sərhədlərdən asılı olmayaraq öz etiqadını sərbəst yaymaq hüququna malikdir;
- Məqsədimiz bütün İslam ümməti yox, Azərbaycan dövlətidir.

Protokolla tanış olan islamçılar ona münasibəti ertəsi gün belə açıqladılar.

- BMT-nin Deklarasiyasını yazan insanlardır. Biz isə insana yalnız Allah tərəfindən verilən və Quranda göstərilən hüquqları qəbul edirik.
- Dinin dövlətdən ayrılması o deməkdir ki, belə dövlətdə dindar adamlara yer verilməyəcək, deməli, Allahsız bir dövlət yaranacaq.
- İnsan öz inamında (İudaizm, Xristianlıq, İslam) azaddır, sektalar isə inam yox, yalançı inamlardır.
- İnsan Xristianlıqdan İslama keçməklə öz etiqadını dəyişə bilər, əksinə isə edə bilməz. İslam ən mükəmməl və sonuncu din olduğu üçün Quran İslamı dəyişməyi qadağan edir.
- İnsan istənilən dini ayinləri təkbaşına yerinə yetirə bilər, qrup daxilində yox. Heç kəsin gəncləri və zəif iradəliləri çaşdırmaqla yalançı dinləri yaymağa haqqı yoxdur.
- Məqsədimiz Azərbaycan və eyni zamanda bütün İslam Aləmidir.

Müsavat rəhbərliyi cavabları nəzərdən keçirib belə nəticəyə gəldi ki, bu mövqe İP yenilik tərəfdarları ilə mühafizəkarlar arasındakı gərgin daxili mübarizənin təzahürüdür.

Satış üçün nəzərdə tutulmayıb

Buna görə də Müsavat hələ ki İP ilə siyasi əməkdaşlıq haqda müqavilə bağlamamaq və məsləhətləşmələri davam etdirmək qərarına gəldi.

Məsləhətləşmələr davam edir.

NƏTİCƏ

Yuxarıdakıları nəzərə alaraq ölkədə dini və dünyəvi siyasi düşərgələrin birgə fəaliyyət prinsiplərini qısaca göstərək.

Dünyəvi dövlət sistemi tərəfdarları demokratik prinsiplərə ciddi riayət etməlidirlər:

- Heç kəsin dindar adamların siyasi prosesdə iştirak etməsini məhdudlaşdırmaq hüququ yoxdur.
- İnsanın, yaxud icmanın dünyəvi həyat tərzi sürmək kimi dini həyat tərzi sürmək hüququ da var.
- Hər hansı etiqadı təmsil edən yeni dini təşkilat Konstitusiyaya görə insana verilmiş bütün hüquq və azadlıqlardan istifadə etməlidir.
- Heç bir dini təşkilat sübutsuz cəmiyyətimizə zərər verməkdə ittiham oluna bilməz.
- Dindar siyasətçilər də BMT sənədlərində və Konstitusiyamızda göstərilmiş demokratik prinsiplərə riayət etməlidirlər:
- Ölkədə siyasi fəaliyyətin əsas məqsədi bütün İslam Dünyasını yox, Azərbaycanın milli maraqlarını qorumaqdır.
- İnsanın şəxsi həyatına müdaxilə edən, insanı bu və ya başqa ideoloji və ya dini qaydalara riayət etməyə məcbur edən hökumət qurmağa heç bir kəsin ixtiyarı yoxdur.
- Heç bir siyasi, elmi, yaxud dini nüfuz sahibinin insanın nə vaxt, kimə və necə səs vermək qərarına təsir göstərməyə haqqı yoxdur.

Satış üçün nəzərdə tutulmayıb

- İnsanın öz dininə sitayiş etmək və ya heç bir dinə sitayiş etməmək, eləcə də dinini dəyişmək haqqı var.
- Hər bir insanın İslamı, hər hansı bir başqa dini, yaxud ideologiyanı öz bildiyi kimi qavramaq haqqı var.

Tərəflər bu şərtlərə əməl etməsələr ölkədə vətəndaş sülhünə nail olmaq mümkün olmayacaq.

Və ən axırda icazə verin çox sadə dildə din azadlığının vacibliyi haqqında belə deyim:

– Əgər sektaları bu gün qadağan etsələr, onda sabah İslam partiyasını da qadağan edəcəklər. Birisi gün isə hər cür müxalif fikir də qadağan olunacaq.

Satış üçün nəzərdə tutulmayıb

РЕЛИГИОЗНАЯ СВОБОДА В АЗЕРБАЙДЖАНЕ – 2000[1]

Вступительное слово организаторов конференции

Если кто-то спас человека, то он спас целый мир.

Уважаемые участники конференции,

Позвольте мне от имени FAR центра поприветствовать вас здесь. Многие из вас помнят, что вот уже ровно два года прошло со времени проведения первой в Азербайджане конференции, посвященной Свободе Вероисповедания в нашей стране. Начиная ту первую конференцию по теме совершенно новой для нашего общества, нам приходилось объяснять, что темой нашей не является исследование верности или ошибочности той или иной религии, но нас интересовали права религиозного человека, его возможности свободно отправлять религиозную практику, взаимодействие религиозной общины и государства, всего того, что в международных пактах о правах и демократических конституциях называется свободой самовыражения, без которой современная демократия немыслима. Отмечу

[1] Июль-Август 2000, Баку

Satış üçün nəzərdə tutulmayıb

также, что в истории демократии борьба за свободу вероисповедания – борьба за религиозную терпимость, была одной из первых этапов многовековой борьбы за права человека. У нас в стране она началась в середине 90-х.

Когда мы начинали нашу конференцию два года назад, признаюсь, нам с трудом приходилось объяснять наши цели и подбирать материалы для конференции: жизнь религиозного человека и религиозной общины казалась стабильной и беспроблемной. Вроде, в посткоммунистическом Азербайджане свободно действуют и мирно соседствуют ислам, православие и иудаизм, но эти факты говорят лишь о возврате в общество трех основных традиционных вероисповеданий большинства, и это ничего не говорит нам о свободе, которой пользуется конкретный человек, выбравший себе свой особенный путь богослужения.

За последние два года в стране произошло столько событий по поднятой нами теме, что сегодня нам есть, о чем поговорить. Отмечу лишь немногие, но характерные из них:

- правительство запретило религиозным женщинам фотографироваться в чадре на паспорт, и те отказываются получать национальный паспорт, их борьба за свои права продолжается вот уже 1, 5 года
- правительство изгнало весьма уважаемого в Астаре ахунда мечети и назначило здесь ахундом человека, верного местной администрации. Из протеста религиозные люди сторонятся мечети
- произошел конфликт между новой мусульманской секцией из Амираджан и группой Гаджи Абдула,

Satış üçün nəzərdə tutulmayıb

который до этого атаковал ваххабитов в амираджанской мечети

- религиозные фанатики из организации Джейшуллах приговорили к смерти и убили за распространение ереси известного целителя и религиозного деятеля Этибара Эркина
- несколько конгрессменов США написали письма Г.Алиеву с требованием разрешить христианским сектам проповедовать в стране, и глава государства, вопреки закону и постановлению, принятому им же, распорядился не препятствовать христианским миссионерам (за мусульманских миссионеров пока вступиться некому)
- в Хачмасе местные власти отняли здание у мусульманской медресе и открыли там школу имени Г.Алиева и музей президента.

Вероятно, вам известны и другие факты преследования людей за их религиозные убеждения. Как видно, в перечисленном мной списке нет сообщения о крестовых походах, глобальном христианско-мусульманском противостоянии, всемирном еврейском заговоре или подготовке к исламской революции. Кому-то перечисленные мной факты покажутся не столь важными, но для нас важен даже один человек! Каждый человек с его неповторимым внутренним миром. Его права для нас священны. И отношение к этому человеку определяет весь строй государства. “Если кто-то спас человека, то он спас целый мир” – сказано в святых книгах.

Нелишне отметить, что на майских (2000) слушаниях в конгрессе США, где я присутствовал, ровно 1/3 вопросов, задаваемых конгрессменами этого флагмана демок-

 Satış üçün nəzərdə tutulmayıb

ратии, была посвящена свободе вероисповедания в Азербайджане.

Мы считаем свободу совести, религиозную и идеологическую толерантность одной из главных моральных основ демократического общества. Эта толерантность должна развиваться от ее первой ступени – отстраненности и безразличия к терпимости, любопытству и восторженности. Восторженности, проистекающей из осознания того, что разнообразие в нашем обществе является его великим достоянием, а не фактором его раскола.

Касаясь других проблем в религиозной сфере страны, я с сожалением отмечу, что наши обществоведы не занимаются этой проблемой. Большое количество выпестованных в советское время академических исследователей – востоковедов, исламоведов, юристовм – продолжают заниматься всем, чем угодно, но только не современными проблемами, с которыми столкнулся независимый Азербайджан.

Мне бы очень хотелось, чтобы на этой конференции мы разобрались бы с разночтениями в таких неясных определениях как "религиозный деятель, религиозное образование в школе" и, особенно, часто употребляемое "неиспользование религии в политических целях". Что юридически имеется здесь ввиду? Для этого я думаю нам следует обратиться к законодательной практике развитых демократических стран.

Долго говорили о том, что в стране нет грамотных религиозных деятелей и должного исламского образования. Но вот сегодня большое количество наших студентов-теологов вернулось из университетов соседних исламских стран, и что же мы имеем? Мало кто из них обучен тому,

Satış üçün nəzərdə tutulmayıb

чтобы сказать что-нибудь полезное религиозным гражданам нашей страны для разрешения их тревог и сомнений. Почти все наши обучившиеся за границей теологи несут нам национальные модели богослужения и сопутствующие этим моделям мифы и сказки иранского, турецкого или арабского ислама. Но если тут без мифов и сказок не обойтись, то пусть это будут азербайджанские мифы, мифы, обслуживающие нашу независимость, нашу демократию, нашу толерантность, и наши права человека. Я полностью разделяю мнение, высказанное ранее Рафиком Исмайловым о том, что нашему религиозному сообществу нужен именно азербайджанский ислам.

Несколько слов хочется сказать о теоретической части дискуссии о взаимоотношении государства и религии, которая проходила на прошлой и, я уверен, будет продолжена в рамках нашей нынешней конференции. *Исламская, Этатистская и Либеральная* модель государства обсуждались их сторонниками и предлагались обществу в качестве модели развития. И чтобы сделать эту дискуссию более конкретной, я (как заинтересованный сторонник либеральной модели) сделал следующие три таблицы, указывающие на количество прав, представляемых этими типами государства своим гражданам. Пусть этот плакат висит здесь в ходе наших семинаров, и я попросил бы наших участников высказаться по поводу его содержания.

Итак:

1. ЛИБЕРАЛЬНОЕ ГОСУДАРСТВО

- все (!) люди рождаются свободными и равными в правах перед законом

2. ЭТАТИСТСКОЕ государство

 Satış üçün nəzərdə tutulmayıb

- кроме тех, кто не похож на нас, все люди рождаются свободными, и они равны в правах перед законом

3. ИСЛАМСКОЕ ГОСУДАРСТВО

- мужчины имеют больше прав, чем женщины
- мусульмане имеют больше прав, чем немусульмане
- верующие имеют больше прав, чем неверующие
- верующие в Коран и Библию имеют больше прав, чем идолопоклонники
- рабство в святых книгах не запрещено

Стоит ли рам спорить об этих моделях, когда конституция Азербайджанской Республики так же, как и декларация независимости АДР 1918 года, фиксируют либеральную модель государства, где все (!) люди рождаются свободными и равными в правах перед законом? Думаю, стоит, ведь в сегодняшнем Азербайджане мы живем по сути по второй – Этатистской модели. Что касается исламской модели развития, то как я убедился, сегодня, к сожалению, мало кто из глубоко религиозных людей не мечтает воплотить ее в жизнь.

Ну вот вкратце и все, дорогие друзья, я еще раз приветствую вас на конференции, желаю всем нам плодотворной работы, взаимопонимания и терпимости в наших дискуссиях.

Satış üçün nəzərdə tutulmayıb

MƏN "TORPAQ!" QIŞQIRANAM[1]

Dədə-babalarımızın görmədiyi işlər yığılıb qalıb
və indi onları biz həyata keçirməliyik...

– Mən çox ciddi işlərlə məşğulam. Gördüyünüz gəmi bizik – Azərbaycan cəmiyyəti. Təbii ki, sonsuz şəkildə biz gəmidə üzə bilmərik. Nə vaxtsa şəkildə gördüyünüz torpağa gəlib çıxmalıyıq. İndi mən araşdırmaq, cəmiyyətimizin inkişaf dinamikasını dəqiqləşdirmək istəyirəm ki, biz okeanın harasındayıq? Kursumuz düzdürmü, səhvdirmi? "Torpaq" görünürmü, həmin torpağa çoxmu qalıb, yoxsa az və s.

(Yeri gəlmişkən, "rəsm əsəri" bir məqamı da aşkarladı. Sən demə, Hikmət bəy solaxay imiş və ümumiyyətlə, onun karikatura, rəsm çəkməkdən xoşu gəlirmiş. Lakin bu barədə az sonra).

Q.Abbasoğlu da öz növbəsində "gəmi"ni görcək dərhal öz sualına orijinallıq elementi qatır:

– Hikmət bəy, bəs üfüqdə nəsə görünürmü?

– Əlbəttə ki, nəsə görünür. O görünür ki, cəmiyyətdə hansısa böyük dəyişikliklər olacaq. Amma ondan sonra da xeyli işləmək lazım gələcək. Həm hakimiyyətə gəlmək, həm ölkəni qaydaya salmaq baxımından

– Bəs təsvir etdiyiniz gəmidə Siz haradasınız?

– Çəlləkdə oturan mənəm, ümumiyyətlə, mənim vəzifəm dünya demokratik şkalaşında Azərbaycanın yerini müəy-

[1] "Müsavat" qəzeti, 07 Oktyabr 2000

Satış üçün nəzərdə tutulmayıb

yənləşdirməkdir. *(Kiçik pauzadan sonra sözünə davam edir)* Deyim ki, başqa ölkələr də eyni yolu keçib. Yəni tərəddüdlər, qeyrimüəyyənliklər, anlaşılmazlıqlar, parçalanmalar, xəyanətlər mərhələlərini adlayaraq qabağa gediblər.

– Demək istəyirsiniz ki, Azərbaycan heç də möcüzələr ölkəsi deyil

– Bəli. Azərbaycan heç də nadir məkan deyil. *(Əvvəlki fikrinə qayıdır).* Mən bunları öyrənmək istəyirəm. Yəni demokratik inkişaf şkalasında Azərbaycanın yerini müəyyənləşdirib, ona dünyanın demokratik təcrübəsini tətbiq etməyin yollan barədə düşünürəm. Bu baxımdan hansısa təklifim yersiz və ya tələm-tələsik görünə bilər. Lakin onların heç biri yenilik xətrinə verilməyib. Onlar hərtərəfli düşünülmüş müzakirələrdən keçmiş təkliflərdir. Və biz istəyirik bu cür təklifləri əvvəlcə Müsavata, sonra demokratik düşərgəyə, daha sonra isə Azərbaycana sırıyaq. Yaxşı mənada. Eyni zamanda mən partiyanın analitik mərkəzinin rəhbəriyəm.

– Ölkənin əsas problemi qismində Siz nəyi görürsünüz?

– Əsas çətinliyimiz odur ki, bizim dədə-babalarımızın görmədiyi işlər yığılıb qalıb və indi onları biz həyata keçirməliyik. Bu gün düşdüyümüz vəziyyətin başlıca səbəbi məhz dədə-babalarımızın vaxtikən öz işlərinin öhdəsindən gələ bilməməyidir. İndi gərək elə çalışaq ki, bizim balalarımız normal cəmiyyətdə yaşaya bilsinlər. Demokratik inkişafımız üçün ikinci çətinlik bəzi adət-ənənələrimizlə bağlıdır. Onlara hərdən milli deyirlər. Deyim ki, onların bir çoxu milli deyil, arxaikdir, köhnəlib. Ancaq başqa ölkələr də eyni vəziyyətdə olub. İngiltərədə də, Fransada da padşahın botinkasından öpənlər, yaltaqlar və məddahlar, təlxəklər olub.

– Amma onların Heydər Əliyevi olmayıb.

– Olub. Hər yerdə ondan da betəri olub. Məsələn, mənasız piramidalar tikiblər. Ancaq nədənsə ingilislərin də, fransız-

Satış üçün nəzərdə tutulmayıb

ların da dədə-babaları əziyyətə qatlaşaraq bu problemləri yavaş-yavaş yoluna qoyublar. Biz də eyni şeyləri etmək zorundayıq. Bəs bunu necə reallaşdırmalı? Bax, mən bununla məşğulam.

– "Gəmi"də kimin yeri daha önəmlidir: kapitanın, yoxsa "torpaq" qışqıranın?

– Maraqlı sualdır və o həmişə aktual olan alimlə lider arasındakı ziddiyyətlərə köklənir. Tədqiqatçı alim daim lazım olan yeri göstərir: "Bura getmək, bunu etmək lazımdır. Lider isə alimin dediyindən mümkün olanını seçir "Ora gedə bilərik", "Bura dönmək mümkündür…" Və həyata keçirir. Əlbəttə, gəmidə hər adamın yeri vacibdir. Gəmi, yəni cəmiyyət, təşkilat nə qədər avtoritar olsa, bir o qədər liderin çiyinlərinə çox vəzifə düşəcək. Əksinə, demokratiya üstündürsə, demək, toplumda, qurumlarda öz-özünü idarə prosesi gedir və liderin işi yüngülləşir. Təbii ki, sonuncu halda söhbət daha mükəmməl sistemdən gedir.

– Milli adət-ənənələrimizə toxundunuz. Yaxınlarda Amerikada olarkən H.Əliyev Azərbaycana "demokratiyanın ixracından" yana narahatlıq keçirərək, "Azərbaycanın öz özəllikləri var" demişdi. Bu fikrin elmi əsası varmı?

– Sualın cavabı bir qədər mürəkkəbdir. Əvvəla, bu ifadə yeni deyil. Onu H.Əliyevdən əvvəl Lenin də, Den Syaopin da deyib. Həmçinin yaxşı inkişaf etmiş, lakin avtoritar rejimli Sinqapurun prezidenti Li Kuan Yu da eyni şeyi söyləyib. Onlar izah edirdilər ki, guya Qərbdə qəbul edilmiş bəzi insan haqlarını Şərqdə tətbiq etmək olmaz. Məsələn, kişi ilə qadının bərabərliyi qeyri-məqbuldur, çünki bu, ailələrin dağılması ilə nəticələnə bilər. Söz azadlığına gələndə isə bildirirdilər ki, bizdə xalq çox temperamentli olduğundan, kiminsə qəzetdə ifşası ya həmin adamın intihar etməsiylə sonuclanar, ya da bu adam gedib kimisə öldürər. Və bir neçə başqa hüquqları

 Satış üçün nəzərdə tutulmayıb

da sadalayırdılar ki, guya onların insanlara verilməsi cəmiyyətin dağılmasına gətirə bilər. Lakin adı çəkilən şəxslərin heç biri demirdi ki, seçkiləri saxtalaşdırmaq bizim milli xüsusiyyətimizdir. Məsələ bundadır. Deyirlər ki, İngiltərədə demokratiyanın qurulması üçün 700 il lazım olub. Bəs bu 700 ildə İngiltərə hansı yolu keçib?

1215-ci ildə bu ölkənin seçkilərində vur-tut 20 nəfər iştirak edib. Onlar da lordlar, baronlar olub. O vaxt həmin varlılar kralı məcbur edib belə bir sənədə imza atdırdılar ki, bundan sonra kral yanında parlament tipli xüsusi şura olacaq və biz də qərarları orda səsvermə ilə qəbul edəcəyik. Lakın həmin 20 nəfərin qatıldığı səsvermə düzgün, ədalətli idi. Orada heç bir saxtakarlıq yox idi! Az sonra səsverməyə ölkənin bütün varlı adamları qatıldılar. Tutaq ki, onlar artıq 500 nəfər idi. Yerdə qalan əhalinin səsvermə hüququ yox idi. Ancaq həmin 500 nəfərin də səsvermə prosedurası düzgün idi. Və 200 ildən sonra İngiltərədə bütün protestant kişilər də səsverməyə qoşuldular. Bunlar da olsun 500 min nəfər. (Katolikləri, qadınları, yəhudiləri seçkilərə buraxmırdılar.) Yenə düzgün seçki keçirilirdi. Bax, bu 700 il ona sərf olunub ki, səsvermə hüququ hamıya şamil olunsun, vəssalam.

– Bizdə isə belə problem olmadığından, təbil ki, Azərbaycana 700 il lazım deyil...

– Tamamilə doğrudur. Azərbaycan timsalında söhbət sırf seçkilərin saxtalaşdırılmasından gedir.

– Yəni əgər gəmini kəşf etmək üçün milyon il lazım olubsa, bu o demək deyil ki, onu düzəltməyə də bir o qədər vaxt gərəkdir.

– Bunlar heç gəmi də düzəltmək istəmirlər. Sözümün canı budur. Axı H.Əliyev demir ki, mən qanunla filankəslərə səs hüququ verirəm, filankəslərə yox, o səbəbdən ki, onlar seçmə qabiliyyətində deyillər. Sadəcə yalan danışmağa üstünlük verirlər. Azərbaycan özəlliyi budur! Car çəkirlər ki, yox

 Satış üçün nəzərdə tutulmayıb

bizdə seçki olub, seçki sənədləri də düzdür və s. və i.a. Halbuki belə saxtakarlıq nə 13-cü əsrdə İngiltərədə, nə də 200 il öncə Amerikada olub. Söz düşmüşkən, bir vaxt Amerikada zəncilər, katoliklər seçkilərə buraxılmırdı. Ancaq seçkilər orada da düzgün aparılırdı. Sadəcə, təkrar edirəm, səsvermə hüququ məhdud çərçivədə idi. Azərbaycanda isə belə hüquq hələ 1918–20-ci illərdə Müsavat hakimiyyəti dövründə hamıya verilib. Bir sözlə, Azərbaycanda demokratiyanın inkişafı üçün İngiltərə, Amerika "problemi" yoxdur. Bizdə yalan problemi, qatığa qara demək problemi var. İndi mən tarixə baxıb görürəm ki, heç bir ölkədə belə bir şey olmayıb. Hətta bəyənmədiyimiz İran da seçki keçirtdi və hakimiyyətdə olan bir mollanı seçkilər yolu ilə digəri əvəzlədi.

– Bəlkə, bu yalan, saxtakarlıq sovet dönəmindən gəlir.

– Ola bilər.

– Amma etiraf edək ki, Rusiyada seçkilər haradasa demokratik keçir.

– Bəli, o da var.

– Hikmət bəy, cəmiyyətimizdəki homo sovetkus amili nə dərəcədə önəm daşıyır?

– Artıq cəmiyyətimizdə nisbətdə 20-30 faizlik bir demokratik düşərgə yaranıb. Bura Müsavat Partiyası, "Yeni Müsavat" qəzeti, bizim qohum-qardaşlarımız, mitinqlərə gələnlər, qəzetinizi oxuyanlar daxildir ki, onlar artıq sovet adamı deyillər. Onlar düzgün yaşamaq, həqiqi seçkilər keçirilməsini istəyirlər və həmin həqiqi seçkilərdə hətta uduzmağa da hazırdırlar. Bax, son 10-12 ildəki gərgin əməyin ən müsbət yekunu budur ki, Azərbaycanda balaca da olsa, ədalətli, demokratik bir məkan yaranıb. Bu amil demokratiyanın inkişaf nəzəriyyəsində var.

– Bəs demokratiya nə vaxt ölür? Belə bir anlayış varmı?

– Var. Cəmiyyəti yalan bürüyəndə, seçki olmayan yerdə, zorakılığın baş alıb getdiyi məmləkətdə demokratiya ölür.

 Satış üçün nəzərdə tutulmayıb

Amma bizdə onun nüvəsi var. Məsələn, Müsavatdakı ilkin seçkiləri götürək. Müəyyən iradlarla bərabər hiss edirəm ki, həmin seçki düzgün keçib. Deyirdim ki, **Müsavatın** seçkiləri Azərbaycanda hələ ki, ən ədalətli seçkilərdir, 15-20 min adam gəlib vicdanla səs verib.

– Bayaqkı suala qayıtmaq istərdik. Bizim hansı milli xüsusiyyətlərimiz Azərbaycanda demokratiyanın inkişafına mane olur?

– Böyük-kiçiklik məsələsi, ailə başçısı, ölkə başçısı məsələləri, "böyük danışanda kiçik, ağsaqqal danışanda qarasaqqal susmalıdır" qaydası, həmçinin ər-arvad münasibətlərindəki eyni "normalar" və s. və i.a. Bir dəhşətli şey də var. Bilmirəm bu İslamdan gəlir, yoxsa qədim adət-ənənələrimizin təzahürüdür, hansısa fəaliyyət növü pis qəbul olunur. Məsələn, artistliyi götürək. Adama bambılı kimi baxırlar, təlxək deyirlər. *(Gülüşürük.)* Yaxud hansısa istedadlı bir müğənnidən müsahibə götürərkən, sual verirsən "Toylara gedirsinizmi?" O da cavab verir: "Yox, qətiyyən, Allah göstərməsin" *(Yenə gülüşürük).* Axı niyə müğənninin toylara getməsi ayıb hal sayılmalıdır? Bu kompleksdir. Qərbdə belə şey yoxdur. Orada ən varlı estrada müğənniləri əksinə, restoranlar üzrə xüsusi "turne" keçirirlər, əsas odur ki, gələsən, oxuyasan və halal pulunu alıb gedəsən, vəssalam. Burda axı gülməli heç nə yoxdur. O gün də "Azadlıq" radiosuna qulaq asıram. Müxbir Lənkəranda əhalinin rəyini öyrənir. Bir satıcı qadın başlayır ki, "iş yox, güc yox, dolanmaq çox çətindir, mənə burda durmaq ayıbdır" və s. Dur da. Dur, malını sat da. Bilirsiniz, söhbət ondan gedir ki, bu qadın öyrəşib evdə sakitcə otursun, əri isə gedib nəsə etsin: işləsin, qaçaqmalçılıqla məşğul olsun, baş kəssin, fərq etməz. O isə evdə oturmalıdır. Bax belə-belə şeylər inkişafımızı əngəlləyir.

– Bəs belə-belə şeylər seçkilərin saxtalaşdırılmasına əsas verirmi?

– Bütün bunlar hamısı bir yerdə ona gətirir ki, insan ədalətsizliklə barışır. Ailə başçısı necə, dairə seçki komissiyasının sədri də elə. Gəlir, deyir ki, mən deyən olmalıdır, qurtardı getdi.

– Belə çıxır, H.Əliyevin sözlərində müəyyən məntiq var.

– Xeyr. Bu halda söhbət yalandan gedir. H.Əliyev bu tip adamlara baxıb deyə bilər ki, demokratiya Azərbaycana uyğun gəlmir. Ona görə seçki keçirmirəm. Yaxud keçirirəmsə, məsələn, 100 nəfər elmlər doktoru arasında keçirirəm, yerdə qalan əhali demokratiyaya hazır deyil. Əgər belə desəydi, haradasa ədalətli olardı. Ancaq o belə danışmır. Hərçənd həmin 100 nəfər arasında da düzgün seçki keçirmək lazımdır.

(Davamı növbəti sayımızda)

Qabil, Şahin, Zahid

 Satış üçün nəzərdə tutulmayıb

ADAM GƏRƏK KİŞİ OLSUN, KİŞİ DƏ ADAM![1]

• **Onu az-çox tanıyanlar təpədən dırnağa qədər demokrat hesab edirlər. Azərbaycanda irticanın meydan suladığı bir vaxtda belə bir statusa malik olmaq və onunla fəxr etmək, təhlükəli olduğu qədər də şərəfli, yaxşı mənada örnəkverici keyfiyyət sayılmalıdır. Qəti əminik: Azərbaycanda belə statusa malik şəxslərin sayı çox yox, cəmi 100 nəfər olsaydı, başıbəlalı məmləkətimizin problemlərinin həlli, ölkədə demokratik cəmiyyətin formalaşması prosesi yəqin ki, xeyli yüngülləşərdi...**

• **Beləliklə, Bizim Qonaq rubrikasının növbəti müsafiri, belə demək mümkünsə, demokratiya missioneri Hikmət Hacızadədir. Müsavatın Divan üzvü H.Hacızadə eyni zamanda partiyanın analitik mərkəzinin rəhbəridir. AXC hakimiyyəti dönəmində Azərbaycanın Rusiyadakı səfiri işləyib. Bizi sual vermək çətinliyilə qarşılaşmağa qoymayan bizim qonaqla söhbətimiz təəssüf ki, bu dəfə də qəzetimizin baş yazarı Rauf Arifoğlusuz keçdi. Ümid edirik ki, bu, rubrika çərçivəsində baş redaktorsuz gerçəkləşən sonuncu görüşümüz olacaq. Hələliksə Rauf Bəyin əvəzindən bizim qonağa ilk sualı yenə baş redaktor müavini Qabil Abba-**

[1] "Müsavat" qəzeti, 07 Oktyabr 2000

Satış üçün nəzərdə tutulmayıb

soğlu ünvanladı. Söhbətdə həmçinin baş redaktorun digər müavini Şahin Cəfərli və qəzetin siyasət şöbəsinin müdiri Zahid Səfəroğlu iştirak edirlər.

– Gəlin söhbətimizin yönünü azca dəyişək və Azərbaycanın mövcud hakimiyyətinin demokratiyaya hazırlıq göstəricisini analiz edək. Heydər Əliyevi demokratik etmək mümkündürmü?

– Heç vaxt. Artıq gecdir. Əlbəttə ki indiki hakimiyyət qeyri-demokratikdir və bu çox şeydə öz əksini tapıb. YAP-i götürək. Orda seçkimi gedir? Qürurla bəyan edirlər ki, "bizim proporsional siyahımızı prezident şəxsən özü tərtib edəcək!"

– Halbuki Ölkə başçısı partiya sədri ola bilməz...

– Hələ bununla işimiz yoxdur. Söhbət ondan gedir ki, nə üçün YAP-çılar öz hüquqlarını, proporsional siyahını tərtib etmək hüququnu kiməsə verməlidirlər? Yaxud bir də görürsən hansısa qanun qəbul edildikdən sonra Prezident Aparatında ona xəlvətcə düzəliş edirlər. Axı ay məmur, sənin nə ixtiyarın var?

– Görünür, bu da Azərbaycanın bir özəlliyidir.

– Bəli. Yadınıza bir hadisəni salmaq istərdim. 1998-ci ilin prezident seçkisi ərəfəsi seçki qanunu layihəsi hazırlamışdılar. Sonra Amerika səfirliyi bu layihəni istəmişdi. Ancaq layihə həddən artıq anti-demokratik olduğundan həmin sənədi yox, başqa birisini vermişdilər *(Gülüşürük).* Səfirlikdə isə bir azərbaycanlı, çox çətinliklə də olsa, başa düşüb ki, yox e, bunu soxuşdurublar.

Prezidentin sağlıq durumu ilə bağlı məsələni götürün. Nə üçün H.Əliyev səhhəti haqda məlumat vermir? Bu onun göstəricisidir ki, hakimiyyətdəkilər qapalı adamlardır. Hamı çalışır ki, belə şeyləri ört-basdır etsin.

 Satış üçün nəzərdə tutulmayıb

– Bu isə yəqin mentalitetdən irəli gəlir...

– Elədir. Amma bayaq dediyim o "demokratik nüvə"də təmsil olunmuş müstəqil jurnalistdən elə-belə canını qurtara bilməzsən. Jurnalist gəlibsə, deyə bilmirsən mən evdə yoxam, yaxud buxarlanmışam. Bu mənada indi hakimiyyətdə olanlardan heç vaxt demokrat çıxmayacaq. Onlar heç bilmirlər ki, demokratiya nədir. İqtidardakıların anlayışına görə, demokratik olmaq təzə kostyum geyib qalstuk taxmaq və əcnəbi bir vətəndaşı götürüb operaya getməkdir. Harada ki, durub qulaq asırlar, amma heç nə başa düşmürlər.

– Yəni demokrat imitasiyası yaradırlar.

– Bəli.

– Hikmət Bəy, Sizcə, səbəb nədir. Onlar sovet şüurundan ayrıla bilmədikləri üçün demokrat ola bilmirlər, yoxsa bu, onlara sərf etmir? Bəlkə lap yuxarıda oturanlar imkan vermir və ortada bir qorxu amili var?

– Hər üçü mövcuddur. İntəhası çox çətin, lakin eyni zamanda sadə bir nüans var – demokratiya hər bir insanın qəlbində olmalıdır. Mənim tez-tez təkrarladığım bir tezis var: Adam gərək kişi olsun, kişi də gərək adam! Bu sizə sadə görünməsin. Bəzən bu ifadənin birinci hissəsini yaddan çıxarırlar. Məsələ ondadır ki, sən demokrat yox, faşist ola bilərsən, ancaq əsl kişi olmalısan. Yəni ləyaqətin, şəxsiyyətin olmalı, sözünün üstündə durmalısan. Misal üçün. Teymurləng, Çingizxan demokrat-zad olmasalar da kişi adam olublar. Di gəl ki, kişi olmadan da demokrata çevrilmək mümkün deyil. Rəhmətlik Əbülfəz bəydən də nümunə deyim. 80-ci illərin sonlarında o, sadə adamlarla söhbətləşəndə deyərdi ki, "axı sən Çingizxanın nəvəsisən, Çinə bayraq taxmısan!" Mən də baxıb düşünürdüm ki, əşşi, nə Çingizxan, heç dəxli var? Mən o vaxt adamları tanımırdım. O isə tanıyırdı. Çünki

Satış üçün nəzərdə tutulmayıb

mən başqa mühitdə böyümüşdüm. Sonra başa düşdüm ki, Elçibəy camaatın ürəyində xof olduğunu bildiyi üçün belə deyirmiş və düz də edirmiş. Təsəvvür edin, həmin adam düşünən zaman ki, mən heç bir şeyəm, soxulcanam, mənə təzyiq etmək, məni tapdamaq, əzmək olar, bu zaman Elçibəy gəlib onun qulağına deyir ki, "sən Çingizxanın nəvəsisən!" Mənim kimi adamlar isə tələb edirdik ki, Çingizxan kimdi e, gəlin diskussiyalar keçirək, seçki təşkil edək, ləyaqətli olaq. O adam necə ləyaqətli ola bilər ki, özünü heç nə sayır?! Odur ki, mən bir çox adamları, qabaqlar raykomun, indi isə icra başçısının əlindən öpən bədbəxt kəndçiləri görəndən sonra anladım ki, Elçibəy düz deyirmiş.

– Demək, "kişi olmaq - adam olmaq" tezisi aktuallığını saxlayır.

– Bəli, bəli. Kişi olmadan demokratiyaya keçmək mümkün deyil. Bir də görürsən ki, şəxsiyyəti olmayan adam gəlib deyir ki, mən demokrat olmaq istəyirəm. Heç vaxt mümkün deyil!

– Kişilik" anlayışı Azərbaycanda da, Qərbdə də eyni cürmü qəbul edilir?

– Eyni cür. Bu, ümumbəşəri anlayışdır. Mən sizə sadə ingilis və amerikanların kişiliyindən nə qədər istəsəniz, danışa bilərəm. Hansılar ki, öz mənafelərini tapdayıb, işdən qovulmaq təhlükəsi altında da olsalar, mənə, Azərbaycan demokratlarına kömək edirdilər.

– Bu blok sualları yekunlaşdırmaq istərdik: Azərbaycan hakimiyyəti demokrat olmaq istəmir, yoxsa bunu bacarmır?

– Hər ikisi var.

– Onda keçək müxalifətimizə. Buradakı vəziyyət necə, ümidvericidirmi?

– Ümidvericidir, bir şərtlə: xeyli işləmək lazımdır.

– Sizcə, Azərbaycanın müxalif düşərgəsində həqiqi demokratlar varmı?

 Satış üçün nəzərdə tutulmayıb

– Bilirsiniz. Avropada hər şeyi bal sistemi ilə ölçürlər. Məsələn, filankəsin demokratlığı 100 ballıq sistemdə 70 baldır, deyirlər. Asiyada isə elə şey yoxdur. Orada iki qiymət var: pis və yaxşı. Bu, düzgün dəyərləndirmə deyil. Bax, bal sistemilə götürsək, demokratik düşərgədə demokratiyanın balı daha çoxdur. Müxalifətdə əsl demokratlar var.

– Bir neçəsinin adını çəkərdiniz.

– Mənə elə gəlir ki, kimlər ki Müsavatın ilkin seçkilərində, yaxud heç olmasa, rayon səviyyəli liderin seçkisində ləyaqətlə iştirak ediblər, onlar demokratik insanlardır. Həmçinin mübarizəni ləyaqətlə uduzub gedənlər də. Demokratiyanın kəlmeyi-şəhadətini deyim. "Mən seçilməsəm, küsməyəcəm. (Əlbəttə, söhbət həqiqi seçkilərdən gedir) Və kim düzgün seçilsə, onu qəbul edəcəyəm".

– Necə düşünürsünüz, Əliyev iqtidarının demokratik normalara bunca etinasızlıq göstərməsində müxalifət düşərgəsinin demokratiklik göstəricisi nə dərəcədə rol oynayır?

– Rol oynayır. Bundan əlavə, H.Əliyev Amerikaya, Qərbə göstərir ki, baxın, bunlar da diktə ilə işləyir, didişirlər, birləşə bilmirlər və s. Bu mənim yolum, o da onların özünüidarə yolu.

– Axı demokratiya təkcə birləşməkdən ibarət deyil...

– Yox, amma dezinteqrasiya da, inteqrasiya da ləyaqətli şəkildə getməlidir. Kişi kimi. Bununla belə, o qənaətdəyəm ki, demokratların vəziyyəti o qədər də acınacaqlı deyil. Neqativ hallarla yanaşı, çox sevindirici məsələlər də var. İnanın ki, ilkin seçkilərlə bağlı hansı əcnəbi ekspert gəlirsə, bizə deyir: "Biz seçki prosesini diqqətlə izlədik, Azərbaycan xalqı seçki keçirə bilər". Diqqət yetirin, artıq söhbət xalqdan gedir, təkcə Müsavatdan yox. Heç təsadüfi deyil ki, Konqresdəki məlum dinləmələr də insan haqlarından başqa Azərbaycan xalqının demokratiyaya nə dərəcədə hazır olması məsələsinə

 Satış üçün nəzərdə tutulmayıb

həsr edilmişdi. İndi fikir verin: bir yandan İsa Qəmbər, digərləri qalxıb deyəndə ki, xalqımız demokratiyaya hazırdır və s. o yandan ABŞ-dakı səfir Hafiz Paşayev durur və deyir (təəssüf ki, onun çıxışı indiyədək də dərc olunmayıb): "Hörmətli Cənab sədr! Bizdə belədir ki, seçkiyə gedən kişi arvadının, uşaqlarının da pasportlarını götürüb gəlir. Siz hansı demokratiyadan danışırsınız?" Təbii ki, bununla H.Əliyevın hərəkətinə haqq qazandırır. Mən bu fikri xüsusi vurğulamaq istəyirəm: bunlar hakimiyyətdə qalmaq üçün bütöv bir xalqı biabır etməyə, alçaltmağa belə hazırdırlar. Qoy H.Paşayevin çıxışını çap etsinlər. Niyə etmirlər?

– Müxalifət hansısa mənada gələcək hakimiyyət deməkdir. Sizcə, Azərbaycan xalqı indiki müxalifəti iqtidara gətirsə, peşman olmayacaq ki?

– Yox. Əminəm ki, vəziyyət yaxşı olacaq.

– Yəni "torpaq" qışqıra biləcəksiniz, eləmi?

– *(Gülür)* Mən artıq görürəm ki, demokratik düşərgədə vəziyyət xeyli düzəlir və düşərgənin avanqardı olan Müsavatda gedən proseslər – möhkəmlənmə, düzgünlük, müzakirə və tənqidə dözümlülük, avtoritarizmin azalması deməyə əsas verir ki, demokratik hökumət qurmaq üçün bizim çox böyük şansımız var.

– Sözlərinizdən belə çıxmırmı ki, H.Əliyev hakimiyyətdən gedəndən sonra cəmiyyətimiz hansısa siyasi kataklizmlə üzləşməyəcək?

– Yox, ola bilər. Ona görə də işləmək lazımdır. Çox şey bizdən asılı olacaq. Azərbaycanda destabilliyin yaranmasında maraqlı olan xarici, daxili qüvvələr var.

– Hansıların ki, ədalətli seçkilərdə uğur qazanmaq şansı yoxdur.

– Onları heç bir seçki maraqlandırmır. Məsələn, gömrükdən yaxşı rüşvət alıb yığmağı bacaranlar o qədərdir ki.

 Satış üçün nəzərdə tutulmayıb

Həmçinin də başqaları. Ancaq Azərbaycandakı sağ təmayüllü qüvvələr demokratik parlamenti təşkil edə bilərlər.

– Bu düşərgədə Rusiyaya meylli qüvvələr varmı?

– Məncə, yox.

– Hikmət bəy, Müsavat Partiyası rəhbərliyinə daxil olan şəxslərdən biri kimi partiyadaxili demokratiyanın vəziyyətini necə qiymətləndirirsiniz?

– Müsavatda demokratiya genişlənir. Heç bir ləyaqətsiz qruplaşma, liderə xüsusi səcdə, pərəstiş görünmür. Məncə, bu Azərbaycan üçün son 5 min il ərzində çox böyük nailiyyətdir.

– Belə bir fikrə münasibətinizi öyrənmək istərdik. Bəziləri düşünür ki, partiyada az da olsa, İsa Qəmbərin şəxsiyyətinə pərəstiş var. Onu əvəzləyə biləcək şəxslər yoxdur, yaxud bir çox parametrlərə görə ondan kəskin geri qalırlar.

– Düzdür.

– Yəni yaxşı olardı ki, onu heç olmazsa 100-də 90 əvəzləyəcək siyasi şəxslər yetərincə olsun.

– Əlbəttə ki yaxşı olardı. Birdən İsa bəyin ayağı burxuldu və iclaslara gəlmədi… *(Burda özümüzü gülməkdən saxlaya bilmirik.)* Əvəzləyəcək adam yoxdur.

– Ümumiyyətlə, Azərbaycan şəraitində şəxsiyyətə pərəstişi birmənalı rədd etmək düzgündürmü?

– Mümkün deyil.

– Burada sizin bir tezisiniz yada düşür: "Demokratiya ağılların yox, sevimlilərin seçimidir". Amma İsa bəy də Sizə o vaxt düzəliş etdi ki, sevimlilər eyni zamanda ağıllı olsalar lap yaxşı olar.

– Doğrudur. Söz düşmüşkən, bəzi qəzetlər İsa Qəmbərin avtoritarlığı barədə yazırlar. Yenə deyirəm, Müsavatın ilkin seçkisi misli görünməyən bir hadisədir. Çünki söhbət həm də liderin insanlar üzərində nəzarəti onların özlərinə qay-

Satış üçün nəzərdə tutulmayıb

tarmasından gedir. Axı siyahını İ.Qəmbər özü də müəyyənləşdirə bilərdi.

– Yəni İsa bəy Heydər Əliyevin bacarmadığını edib...

– Təkcə onun yox, heç kimin bacarmadığını edib. Bu, mədhiyyə deyil, lazım olanda mən ona öz sözümü deyirəm. Amma konkret halda İsa bəy qeyrət nümunəsi göstərib.

– Siz siyahıdakı yerinizdən razı qaldınızmı?

– Tam. Bilirsiniz, yer məsələsi bir neçə şkalada müəyyənləşə bilər. Bu şkalada yerim 9-cu oldu. Eybi yox. Digər şkalalar da var axı. Mən mütəxəssisəm. Hökmən deyil ki, seçkili orqanlarda öndə olum. Amerikanı idarə edən Nobel mükafatı laureatları var ki, iqtisadiyyatı qururlar. Ancaq onlardan heç biri nə konqresmendir, nə də prezident. Prezident hansısa intellektual, dahi olmur, tutaq ki, Reyqan kimi aktyor, Klinton kimi saksafon çalan olur. Sözümün canı odur ki, Azərbaycanda heç kim İ.Qəmbər kimi insanlar üzərində nəzarəti onların özünə verməyib. O, ipləri əlindən buraxdı. Hansılarından ki, başqaları maksimum faydalanmağa çalışır.

– Eyni ilkin seçkiyə AXCP də gedə bilərdi. Sizcə, niyə cəbhəçilər bu variantı seçmədilər?

– Gedə bilmədilər. Ona görə ki, bu partiyada bürokratik məsələ çox pis durumdadır. Bilinmir kim AXCP-nın üzvüdür, kim yox. Sənədlər axıradək düzgündür, yoxsa yox. Partiyanın nə qədər üzvü var, kim kimi partiyadan çıxarır və s. Seçkilər belə şəraitdə keçə bilməz. Demokratiyanın isə bir çətin tərəfi də var ki, o da proseduradır. Prosedura mükəmməl olmalıdır. Müsavat bu məsələni həmişə işləyir.

– AXCP-nın parçalanma perspektivi Sizə necə görünür?

– Mən bu partiyanı vahid təşkilat kimi qalmasını istəyirəm. Bunun yeganə yolu isə şərti desək, həm "klassiklər",

 Satış üçün nəzərdə tutulmayıb

həm də "islahatçılar"ın birləşib ümumi bir seçki keçirməsidir. Necə ki, 1990-cı ildə AXC liberallara və radikallara parçalanmışdı. O vaxt hər iki tərəfi təmsil edən təşkilat komitəsi yaradıldı və düzgün seçki keçirildi. AXC yaşadı. Eyni şeyi bunlar da etməli, bütün sənədləri qaydaya salmalı və demokratik düşərgənin müşahidəçilərinin iştirakı ilə ədalətli bir seçki keçirməlidirlər. Kim qalib gəlsə, Müsavat da onunla danışacaq. Kim seçkiyə getməsə, onu dəstəkləməməliyik.

Qabil, Şahin, Zahid

Satış üçün nəzərdə tutulmayıb

İDEYALARIMI HƏYATA KEÇİRMƏK ÜÇÜN 3 İL VAXT LAZIM OLUR[1]

(Əvvəli ötən sayımızda)

– Millətçilikdə xoşunuza gələn nəsə varmı?

– Əgər kişidirlərsə, ləyaqətli millətçilərdisə, yalan danışmırlarsa onları da qəbul edirəm. Burada yenə Əbülfəz bəyin o ifadəsini yada salmaq istəyirəm. Əgər Elçibəyin "Sən Çingizxanın nəvəsisən" deyimini hansısa sadə kəndçi uşağı qəbul edirsə, mən bunu onun əvvəlki statusu ilə müqayisədə qiymətli hesab edirəm. Yoxsa mən soxulcanam, mən heç kəsəm! Qoy Çingizxanın nəvəsi olsun. Bu daha yaxşıdır.

– Hikmət bəy, o məsələ də yenə açıq qalır ki, dövlətin mənafeyi üstündür, yoxsa fərdin?

– Çox mürəkkəb sualdır. Əlbəttə insan haqları vacibdir. Amma cəmiyyəti də nəzərə almaq lazımdır. ABŞ Konstitusiyasına baxaq. Orada ifadə belə keçib: "Konqres insana özünü ifadə etməyə mane ola bilməz". Bilin ki, insan hüququ dövlətdən qorunmaq hüququdur! (Bunu xüsusi intonasiya ilə vurğulayır.) Əliyev isə partapart, mənasına varmadan bu tip bəyannamələri imzalayır. Yenə deyirəm: insan hüququ vətəndaşı prezidentdən və parlamentdən qorumaq üçündür.

BMT-nin "İnsan haqları bəyannaməsi"ndə 29 hüquq var ki, dövlət onları insanın əlindən ala bilməz. Ancaq orada bir

[1] "Müsavat" qəzeti, 07 Oktyabr 2000

 Satış üçün nəzərdə tutulmayıb

maddə var: "Bütün bu haqları həyata keçirərkən insan cəmiyyətin sağlamlığı və dövlətin möhkəmliyini unutmamalıdır. İnsan hüquqları cəmiyyəti dağıtmamalıdır". Bax həmin bu vacib "mismarı" bəyannaməyə vurublar.

– Bu da millətçilərə arqument verir.

– Elədir. Ümumiyyətlə, dünyada insan haqları məsələsinə iki cür baxış olub; fransız və ingilis yanaşması. Birinci variantа görə insanın filan-filan hüquqlara malik olduğu göstərilir. İngilis baxışı isə belədir ki, insan heç bir hüquqa malik deyil. Və parlament nə qərara gəlsə, o hüquqa da malik olacaq. Nəticə etibarilə ingilis yanaşması qalib gəldi. Doğrudan da insanın hüquqları var, amma o, cəmiyyəti dağıtmamalıdır. Vacibi odur ki, burada söhbət yalnız demokratik cəmiyyətdən gedir, diktaturanı isə dağıtmaq olar!

– Bəs insanın hansı hərəkətləri demokratik cəmiyyəti dağıda bilər?

– Yerində verilmiş sualdır. Doğrudan da, tutaq ki, mən prezidentin pis olduğunu deyirəmsə, bu, cəmiyyətin dağılmasına gətirə bilərmi? Diktator deyir ki, bəli, bilər. Amerika qanunvericiliyi deyir ki, xeyr, dağıtmaz.

– Demək, düz başa düşdüksə, bu, cəmiyyətin inkişaf səviyyəsindən asılıdır.

– Bəli. Cəmiyyətin vəziyyətindən və demokratik mədəniyyətin səviyyəsindən. Bu əsrin əvvəllərində Amerikada hakimiyyəti zorakı üsullarla dəyişməyə çağırışı əks etdirən "listovka"lar yaymaq üstündə cinayət məsuliyyəti nəzərdə tutulurdu. Baxmayaraq ki, Amerika Konstitusiyası o vaxt indiki kimi idi. Ancaq çox böyük mübarizədən sonra baxıb qərara gəldilər ki, istənilən şeyə çağırış edə bilər və bunun üstündə o, tutula bilməz. Çünki bununla dövlət dağılmayacaq.

 Satış üçün nəzərdə tutulmayıb

– Ona görə ki, normal cəmiyyətin heç bir üzvü bu çağırışlara əhəmiyyət verməyəcək.

– Bəli...

(Burada suallarımızın növbəti blokuna keçməyə qərar veririk.)

– Necə düşünürsünüz? Bu seçkilərdən sonra müxalifət düşərgəsində hansısa keyfiyyət dəyişikliyi baş verə bilərmi? Ümumiyyətlə, müxalifət düşərgədə yeni bir klassifikasiyaya ehtiyac varmı?

– Mütləq. Münasibətlər aydınlaşdırılmalıdır. Həm o baxımdan ki, kişi olaq – bir, – demokratik dəyərləri qəbul edək – iki, bürokratik cəhətcə mükəmməl olan qüvvələr bir yerə toplaşmalıdır – bu da üç. Bunları kənara qoyub daxildə mənasız manevrələrlə məşğul olmaq nəyə lazımdır? Nə üçün mən böyük taktiki dostum olan Pənah Hüseynova qarşıyam? Belə adam günlərlə manevr etməklə məşğuldur. Onu nə "torpaq" maraqlandırır, nə də bu "torpaq" gorünürmü, görünmürmü, bu tipli narahatlığı var.

– Bəs gəmidə onun yeri haradadır?

– Heç bilmirəm. O, daim manevr etmək istəyir. Bununla birləşir, onu irəli sürür. Bütün bunlar demirəm ki, lazım deyil. Ancaq "torpaq" hələ görünmədiyi halda biz "gəminin" qurulması ilə və düz yol tapmaqla məşqul olmalıyıq. Bax, P. Hüseynov həbsxanadan çıxıb. Ondan soruşmaq lazımdır: ötən müddətdə nə ilə məşğul olmusan? SİDSYh-u verdilər ona, saxlaya bilmədi. (Yeri gəlmişkən, mən bu qurumu çox əhəmiyyətli hesab edirəm.) Arada başladı çox lazımlı kitablar buraxmağa. O da yarımçıq qaldı. Onunçun bu maraqlı deyil. O manevr etməyi sevir: "Mən Bəyi qəbul edirəm", sonra deyir: "Bəylə İsanı qəbul edirəm", "Onu qəbul edirəm, bunu qəbul edirəm..." Olmaz ki, sən gündəlik işi, əziyyəti qəbul edəsən? Axırıncı manevri belə idi: "Mən

istəyirəm İsa Qəmbər Demkonqresin sədri olsun, mənə də vəzifə versin".

– Deyirsiniz ki, hələ "sahilə" çox var, "torpaq" görünmür. Bəs qorxmursunuz ki, gəmidəki sərnişinlər dözməyib üsyan edərlər?

– Hövsələləri çatmasa edə bilərlər. Ancaq gəmidə kitabxana da var axı. Ora biz başqa bu tipli səyahətlərin təcrübəsinə həsr olunan kitablar, xəritələr doldurmuşuq. Yəni digərləri bu yolu necə keçib, nələr baş verib... Darıxanlar bu kitablardan oxuya bilərlər ki, "torpağa" çox qalsa da, yolumuz düzdür. Bir də, xalqın üsyan etmək haqqı da var. Şəxsən mən "çəlləyin" üstündən düşməyə hazıram.

– Siz orijinal təkliflərinizlə, ideyalarınızla fərqlənən adamsınız. Çətin olmur ki, onları həyata keçirmək?

– Çox çətin olur. Təkliflərimin hər birinin həyata keçməsinə orta hesabla 3 il vaxt lazım olub. Bir acınacaqlı şeyi də deyim. 12 ildir hərəkatdayam. Liderlərdən hələ heç kəs gəlib mənə deməyib ki, Hikmət, gəl oturaq bir şey müzakirə edək. Bir dəfə də! İndi təsəvvür etdinizmi ki, bir situasiyada hansısa təklifi keçirmək mənimçün nə qədər ağır olub? Ancaq mən təkliflərimi əlimdə hakimiyyət olmaya-olmaya, populyar olmaya-olmaya reallaşdırıram. Və hesab edirəm ki, bu nadir hadisədir. Təkliflərimin çoxunu mən dünya təcrübəsindən götürmüşəm, amma onları Azərbaycanda həyata keçirmək metodu – bu, mənim ixtiramdır.

– Yəni Siz inandıra bilirsiniz.

– Bəli. Mən həm də səbirliyəm.

– Hikmət bəy, Siz ilkin seçkilərlə bağlı araşdırma komissiyasının üzvüsünüz. İşlər nə yerdədir?

– Bilirsiniz, Müsavatın seçkilərə buraxılmamasıyla bağlı yaranmış vəziyyət bir qədər gözləməyi diktə edir. Bir az

Satış üçün nəzərdə tutulmayıb

insafdan deyil də. Ancaq mən həmin işi mütləq axıra çatdıracağam. Hər bir şikayətçi razı qalacaq. Ədalət bərqərar ediləcək.

– ***Şikayət varmı?***

– Hələ ki, yox. Sadəcə, kimsə kiminsə haqqında nəsə deyib, bu tiplidir. Yoxsa bülletenləri oğurlamaq və s. belə şikayətlər yoxdur.

(Q.Abbasoğlu söhbəti son dövrün ən aktual olan mövzusu üzərinə kökləyir)

– ***Hikmət bəy, bu kreslonun sahibi həbsxanadadır...***

– *(Sualı kəsir)* Allah qapısını açsın. Səbirsizliklə Rauf bəyi gözləyirik. *(Xatırladaq ki, müsahibə R.Arifoğlu azadlığa çıxmamışdan qabaq götürülüb.)*

– ***Rauf bəyin yazılarını, yəqin ki, oxuyursunuz. Belə bir hal olubmu ki, orada dövlət quruluşunun dəyişdirilməsinə çağırışlar görəsiniz?***

– Heç vaxt görməmişəm. Bilirsiniz, Rauf Arifoğlunun tutulması Azərbaycanın ən böyük absurdlarından biridir. Bu həbslə bütün dünyada biabır olmuşuq. İndi bunlar onu buraxmaq üçün bilmirlər hansı vasitəyə əl atsınlar. Rauf bəyin həbsi Azərbaycanın, onun dövlətçiliyinin tarixində bir ləkə kimi qalacaq. Deyim ki, başqa ölkələrdə də diktatura ilə mübarizə gedəndə belə adamlar əbədi qəhrəman qalıblar. Bax, konkret bu hal dərsliklərə düşəcək. Həmin dərsliklər insan haqları, Azərbaycan tarixi, onun mətbuatı haqda olacaq. Bu həbs – yazılarına, fikrinə, mövqeyinə görə intiqam aktıdır.

– ***Ölkədə söz azadlığının durumunu necə qiymətləndirirsiniz? Bizim işimiz kənardan sizə asan görünür, yoxsa çətin?***

– Çox çətin. Ancaq deyəcəyəm: Azərbaycanca söz azadlığı yoxdur! Daha dəqiq, qanunla təmin olunmuş söz azadlı-

 Satış üçün nəzərdə tutulmayıb

ğı yoxdur. Məmur kefi istəyəndə dözür, istəməyəndə qəzeti bağlayır. Hər şey məmurun simpatiyasına tabe etdirilib. R.Arifoğluna dözdülər, dözdülər və ilişdilər. İnsan bilmir ki, onu nə vaxt və nəyin üstündə həbsə atacaqlar.

– Saxta seçkilər keçirilən məmləkətlərdə, yəqin ki, elə belə də olmalıdır. Mümkündürmü ki, söz azadlığı olsun, amma normal seçkilər keçirilməsin.

– Ola bilməz... Söz azadlığı ən birinci azadlıqdır. Məsələn, Məhəmməd Peyğəmbərin hədislərindən bir sitat gətirmək istəyirəm. Deyir, "şərlə rastlaşmısansa, mübarizə apar, mübarizə edə bilmirsənsə, danış. Danışa da bilməsən, ürəyində saxla, gözlə. Hərçənd bu, imanın ən zəif dərəcəsi olacaq". İslamda avtoritarla yanaşı çox böyük demokratik dəyərlər də var. Ancaq nədənsə bizim mollarımız bu şeyləri qoyurlar kənara, yapışırlar avtoritar xarakterli məqamlardan.

– Siz Quranın türkcə oxunmasına, türkcə ibadətə necə baxırsınız?

– Çox müsbət. Belə də olmalıdır. Quranı ana dilində oxumağa hətta tələb var. Orda deyilir ki, "mən sizə bu Quranı ərəb dilində göndərirəm ki, siz başa düşəsiniz". Yəni başa düşməyərək başınızı bulayırsınızsa, bu, günahdır... Quranın tələbi budur.

– Bəziləri düşünür ki, əksinə, öz dilimizdə oxusaq, Quranın ülviliyi itər, mistika pozular və s.

– Axı mən gərək Allahın kəlamını başa düşəm. Deyirlər müsəlman odur ki, namaz qıla, oruc tuta, həccə gedə, donuz əti yeməyə... Xeyr! Sadalananlar ikinci məsələdir. Əsas odur ki, müsəlman gərək ən əvvəl kişi olsun. Sonra adam olsun. Riyakar olmasın. Əhdinə sadiq qalsın.

– Düzgün seçki keçirsin.

– Bəli. Yoxsa sən ol saxtakar, amma həccə get... Bu baxımdan mən Nəriman Qasımoğlunun islahat təklifini iki əllə

 Satış üçün nəzərdə tutulmayıb

dəstəkləyirəm. Onun kimi insanları biz dini reformator kimi qəbul etməliyik.

– Bir sual da yaranır: Nə üçün Türkiyə eyni reformaya getmədi?

– Bacarmadılar. Həm də axı Türkiyə nə demokratiya, nə də insan haqları məsələsində bizə örnək deyil. Bu ideyalar Azərbaycandan bütün Şərqə gedib. Respublika ideyası da, M.F.Axundov vasitəsilə liberalizm ideyası da. Götürün Türkiyə Konstitusiyasını. O, ADR-in müstəqillik aktından götürülüb. Həmin müstəqillik aktı bu cümlə ilə başlayır: "Azərbaycanın dövlət şəkli cümhuriyyətdir". Eyni cümlə ilə Türkiyə Konstitusiyası başlayır.

– Hikmət bəy, Amerikanın "dünya demokratiya jandarmı" rolu, Sizcə, gərəklidirmi?

– Gərəklidir. Doğrudur, hərdən ABŞ-ın ikili standartları da görünür. Məsələn, "genosid", 907 məsələsi. Amerika rəsmiləri ərəb və ya türk diktatoru ilə görüşüb-öpüşürlər və s.

Amma qlobal baxanda, demokratiya üçün bu ölkə qədər kömək edən ikinci dövlət yoxdur. SSRİ kimi şər qüvvəsini kim yıxdı? Faşizmi kim məhv edib yerinə demokratik dövlətlər qurdu? Çini və başqa diktaturaları kim küncə sıxıb?

Bütün dünyanı kim utandırır? Bu gün ABŞ-a hətta ən böyük diktatorlar, fundamentalistlər belə dillərinə gətirib demirlər ki, demokratiya pis şeydi. Bunlar hamısı Amerikanın təsiridir. Bütün bu Miloşeviç, Fuximori, Heydər Əliyev – bunları divara kim sıxıb? – Amerika...

– Rubrikamızın ənənəsinə uyğun olaraq Sizdən soruşuruq: Bizə suallarınız varmı?

– Var. Birinci sualım belədir: Rauf bəyin yeri görünürmü?

– Görünür. Rauf bəy yaxşı inzibatçı olmaqla bərabər, həm də ideya generatorudur. Onun bir az da xarizması var idi ki, onun da yoxluğu hiss edilir.

 Satış üçün nəzərdə tutulmayıb

– *(Bu arada H.Hacızadə ümumən müstəqil mətbuata təklif xarakterli bir iradını bildirir.)* Mənim xoşum gəlmir o cəhətdən ki, jurnalist hər gün nə haqdasa yazmalıdır. Bu səbəbdən də onun hansısa ciddi mövzuda araşdırma aparmasına vaxtı qalmır. Bunu da başa düşürəm. Dolanışıq çətindir. Ancaq jurnalist həftə ərzində bir babat məqalə hazırlasa da, normal pul almalıdır.

Satış üçün nəzərdə tutulmayıb

ŞƏKİLİLƏR DİKTATURAYA QARŞI HƏMİŞƏ MÜBARİZƏ APARIBLAR[1]

Hikmət Hacızadə: "Şəki camaatı daxilən mübariz ruhlu olsa da, çox zaman, bəlkə həddindən də artıq sülhsevərlik göstərir. Əgər indi şəkililər bu cür ayağa qalxıblarsa, deməli, artıq bıçaq sümüyə dirənib".

Müsavat Partiyasının Divan üzvü Hikmət Hacızadənin fikrincə, kütləvi həbslərlə, "dubinka"lamaqla, qoşun yeritməklə xalqın ürəyindəki, beynindəki narazılığı yox etmək olmaz.

Noyabrın 18-də müxalifət qüvvələrinin Bakıda keçirdikləri mitinqlə eyni gündə ölkənin bir sıra bölgələrində, rayon mərkəzlərində yerli əhalinin mövcud iqtidarın fəaliyyətindən doğan kəskin narazılıqlarının ifadəsi olan kütləvi etiraz aksiyaları keçirildi. Bu baxımdan, Şəkidə baş verən hadisələr, rayonda müxalifət nümayəndələrinin təşkilatçılığı ilə keçirilən yürüş mitinq, eləcə də polislə əhali arasında yaranan ciddi, açıq qarşıdurma xüsusilə geniş əksəda doğurdu. 18 noyabrda Şəkidə baş verənlər son illərdə ölkə əhalisinin, cəmiyyətin rejimə, hakim dairələrə qarşı ən kəskin və iri miqyaslı etiraz aksiyası sayıla bilər. Başqa sözlə, Şəki hadisələri bir tərəfdən artıq xalqın əvvəlki kimi itaətkar olmadığının, iqtidarın

[1] "525" qəzeti, 22 Noyabr, 2000

 Satış üçün nəzərdə tutulmayıb

zorundan qorxub-çəkinmədiyinin, digər tərəfdən isə daha rejimin zorakılıqla, polis dəyənəyi ilə öz istəyinə nail ola bilmədiyinin bariz göstəricisi oldu. Son hadisələrdə əvvəllər iqtidarın daxili siyasətinə qarşı radikal mövqeyi ilə asan şəkildə o qədər də seçilməyən Şəki əhalisinin xüsusi fərqlənməsi proseslərin diqqəti cəlb edən məqamlarındandır. Bununla əlaqədar, ölkənin əslən Şəkidən olan tanınmış ziyalılarının, siyasətçilərinin mövqeyi, onların baş verənlərə münasibəti xüsusi maraq doğurur.

Müsavat Partiyasının Divan üzvü, Azərbaycanın Rusiyadakı keçmiş səfiri Hikmət Hacızadə "525"in müxbirilə söhbətində 18 noyabrda Şəkidə baş verən hadisələr barədə həm ziyalı-siyasətçi, həm də bir şəkili kimi fikirlərini açıqlayır.

– Hikmət bəy, sizcə, nə üçün ölkə əhalisinin mövcud iqtidardan narazılığı Şəkidə xüsusilə kəskin etiraz doğurdu və hansı səbəblərdən bu narazılıq həmin bölgədə daha qabarıq formada təzahür etdi?

– Vallah, bu sual elə qoyulub ki, mən məcburam deyəm, şəkililər kişi adamdırlar. Özüm də şəkili olduğuma görə bəlkə də bu, təvazökarlıqdan uzaq olar, amma mən bunu deməliyəm. Bilirsiniz, məncə, Şəki, onun əhalisi başqa bölgələrdən bir sıra xüsusiyyətlərinə görə fərqlənir. Şəkililəri fərqləndirən xüsusiyyətlərdən biri onların çox qədim şəhər mədəniyyətinə məxsus oturaq ənənələrin daşıyıcısı olmasıdır. Sonralar yaranan şəhərlərdə, qəsəbələrdə, ümumən yaşayış məntəqələrində mənzərə, əhalinin xarakteri qədim tarixə malik, əhalisi çox-çox əvvəllərdən oturaqlaşmış şəhərlərdəkindən xeyli fərqlidir. Tarixi nisbətən sonralardan başlayan yaşayış məntəqələrində, sosium hələ tam formalaşmayıb, yetişməyib. Amma Şəki çox qədim bir şəhərdir, əhalinin qədim dövrlərdən gələn ənənələri, xarakterik xüsusiyyətləri var. Köklü sənətkarlıq, elmi ənənələri, bir qədər spesifik

 Satış üçün nəzərdə tutulmayıb

dünya görüşü şəkililəri fərqləndirən cəhətlərdəndir. O ki qaldı son günlər Şəkidə baş verənlərə, kəskin sosial-siyasi etirazlara – bunlar doğrudan da, müəyyən qədər gözlənilməz oldu. Ümumiyyətlə, bu cür etirazları, bir növ "partlayışı" proqnozlaşdırmaq üçün nə müasir sosiologiyada, nə politologiyada, nə də başqa kimdəsə hansısa metod yoxdur. Belə hadisələrin nə vaxt, harada baş verəcəyini heç kəs əvvəlcədən deyə bilmir. Heç kəs qabaqcadan söyləyə bilmir ki, sosial partlayış harada baş verəcək, kim necə "partlayacaq", bu nə qədər davam edəcək. Şəkidəki "partlayış"ı əvvəlcədən proqnozlaşdırmaq daha çətin idi.

– Bu çətinlik nədən irəli gəlir, hansı konkret, xüsusi səbəblər var?

– Bilirsiniz, şəkililər adətən üzdən çox sakit adamlara, həddsiz dərəcədə sülhsevər insanlara oxşayırlar. Onların əksər hissəsi boş yerə konflikt yaratmağı, qalmaqal salmağı sevmir. Amma hansısa məsələ barədə, nəyinsə uğrunda mübarizə, konflikt qərarı verildisə, onda şəkililərin sona qədər mübarizəni davam etdirmək, işin axırına çatmaq ənənəsi var. Məncə, bütöv bir bölgənin əhalisinin xarakteri də, hardasa, bir adamın xasiyyəti ilə müəyyən uyğunluq daşıyır. Adam var mübarizədə, konfliktdə tez qızışıb tez də soyuyur, adam da var ki, sakit durur, bir xeyli dözür, başqa çarə qalmayanda güclü və davamlı mübarizəyə qalxır. Mən bunu yalnız son hadisələrlə bağlı yox, ümumiyyətlə deyirəm.

– Fikrinizi bir qədər də aydınlaşdırmaq üçün müəyyən tarixi etnik analogiyaları misal gətirmək mümkündürmü?

– Misal üçün, götürək İkinci Dünya Müharibəsi zamanı ingilislərin Hitler rejiminə, alman işğalçılarına münasibətini. Məsələyə tarixi analitik aspektdən yanaşsaq, məncə, bunu müqayisə üçün analoji fakt kimi götürmək olar. İkinci

 Satış üçün nəzərdə tutulmayıb

dünya müharibəsi zamanı almanlar savaşa, konfliktə meylli idilər, özlərini aqressiv aparırdılar. Amma ingilislər konfliktə girmək, müharibə etmək istəmirdilər, məsələni ləngitmək istəyir, vaxtı uzadır, səbir göstərirdilər. Amma gördülər ki, Hitler ölkələri işğal edə-edə gəlib yaxınlaşıb, sülhə ümid yoxdur, müharibə qərarı verdilər. Onda hələ heç SSRİ də Almaniyayla vuruşmurdu, müttəfiq idilər. İngilislər əvvəldən axıracan – 1939-cu ildən 45-ci iləcən almanlarla vuruşdular, mübarizəni axıra qədər apardılar. Sonrakı dövrdə isə ingilislər Sovet rejiminin süqutu uğrunda hər cür vasitəylə inadla mübarizə aparmağa başladılar. Çünki onlar yaxşı anlayırdılar ki, kommunistlərə barmağını versən, qolunu da kəsib apararlar. Məncə, oturuşmuş ənənələri, kökü, xarakteri olan millətlər, yəni ingilislər, o cümlədən bölgə əhalisi, konkret desək, şəkililər məhz bu xüsusiyyətlərinə görə fərqlənirlər.

– Belə demək olarmı ki, şəkililərin xarakteri, dünya görüşü avtoritarizmi, diktaturanı qəbul edə bilmir və tədricən güclənən narazılıqlar nə vaxtsa sərt, kəskin etirazlar formasında üzə çıxır?

Prinsipcə məsələyə bu cür yanaşmaq mümkündür. Amma etiraz və narazılıqlar dalğası başqa bölgələrdə də üzə çıxa, yarana bilər. Azərbaycanın əksər zonalarında əhali diktaturanı, avtoritar rejimi sevmir, qəbul etmir. Bu gün bir sıra rayonlarda mitinqlər, yürüşlər, etiraz aksiyaları keçirilir. Burada əsas məsələ etiraz aksiyalarının kütləviliyində və davamlılığındadır. Zənnimcə, Şəki əhalisinin etirazları digər bölgələrdəkinə nisbətən daha kütləvi, qlobal, daha davamlı xarakter kəsb etdi.

– İndiki iqtidarın Sovet kommunist rejiminin davamçısı olması tez-tez vurğulanır. Şəki əhalisinin mövcud iqtidara

 Satış üçün nəzərdə tutulmayıb

münasibəti ilə şəkililərin kommunist rejiminə münasibəti arasında hansı oxşarlıqları müşahidə etmək olar?

– Bu rejim Sovet hökumətinin davamçısından daha çox onun karikaturasıdır. Bir məsələ var ki, kommunistlər nə qədər pis olsalar da, heç olmasa müəyyən dərəcədə xalqa, millətin güzəranına fikir verirdilər. İndi isə çox eybəcər bir rejim yaranıb. Diktaturanın olması bir yana, xalq göz görə-görə acından ölür. Camaat acından qırılır, bunlar isə villalar tikirlər, mersedeslərdə gəzirlər, digər tərəfdən də diktatura qurublar. Şəki əhalisi lap ilk vaxtlardan həmişə Sovet rejiminə, diktaturaya, avtoritarizmə müqavimət göstərib. 1920-ci illərdən başlayaraq, dəfələrlə şəkililər Sovet hökumətinə qarşı açıq şəkildə etirazlarını nümayiş etdiriblər. Hətta kütləvi repressiyalar dövründə, yəni 1935–37-ci illərdə də Şəkidə etiraz aksiyaları, narazılıq çıxışları olub. Etirazlar müxtəlif formalarda təzahür edib. Adamlar dağlara çəkiliblər, hər vasitəylə Sovet rejiminə qarşı mübarizə aparıblar. Rejim kütləvi həbslər, repressiyalar aparıb, insanlar tutulub, sürgün ediliblər, kimlərsə mühacirət etməli olublar. Bir sözlə, şəkililər avtoritarizmə, diktaturaya qarşı həmişə davamlı, uzunmüddətli mübarizə aparıblar və elə indi də bu mübarizəyə hazır olduqlarını nümayiş etdirirlər. Allah köməkləri olsun.

– Fikrinizcə, şəkililər bu dəfə də öz xarakterlərinə sadiqlik göstərəcəklərmi? Yəni Şəki əhalisinin budəfəki etiraz dalğası da davamlı olacaq və axıra qədər davam edəcəkmi?

– Hər halda şübhəm yoxdur ki, Şəkidəki etirazlar başqa yerlərdəkilərdən davamlı olacaq. Əlbəttə, şəkililərin etirazını zorakılıqla müəyyən qədər boğurlar, əhalini zorla sakitləşdirməyə çalışırlar. Bu rejimə nə var ki? Uzaqbaşı 1000–2000 nəfəri tutub basacaqlar içəri, elə hesab edəcəklər ki, hər şey qurtardı. Amma ürəklərdəki, beyinlərdəki narazılığı boğ-

 Satış üçün nəzərdə tutulmayıb

maq, mübarizəni yatırmaq mümkün deyil axı. Xalqın da, Şəki əhalisinin də mübarizəsi ürəklərdə davam edəcək. Bəli, iqtidardakılar adamları kütləvi şəkildə həbs edə bilərlər, küçəyə çıxmağa qoymazlar. Səsini qaldıranı "dubinkalayarlar, yaxud da lap güllələyərlər, Şəkiyə hərbi qüvvə, qoşun da yeridə bilərlər. Ancaq bununla xalqın düşüncəsindəki narazılığı, etirazı yox etmək olmaz.

– Necə bilirsiniz, iqtidarın Şəkidə gördüyü tədbirlər əhalini qorxuya saldı, yoxsa əksinə, narazılıqları daha da artırdı?

– Demək olar ki, bunların hamısından var. Yəni kimsə bir az qorxub, kimlərsə rejimə qarşı daha da radikallaşıb. Amma bir daha deyirəm ki, bu cur üsullarla xalqın etirazlarını yatırtmaq mümkün olmayacaq. Tutaq ki, kimlərisə həbs edib basdılar içəri. Nə olsun axı? Problemlər ki, həll olunmayıb. Camaatın çörəyi yox, işığı, suyu, qazı yox, cibləri boş, bir yandan da əhalinin böyük ümidlə getdiyi seçkilər saxtalaşdırıldı. Xalqın səsi oğurlandı, millət təhqir olundu. Əhali də daha bunlara dözmür, etirazını bildirir. Bu məsələdə yenə qayıdaq Şəki əhalisinin üzərinə. Hamıya məlumdur ki, şəkililər davakar deyillər, xırda şeylərə görə vəziyyəti dramatikləşdirmək, konflikt yaratmaq istəməzlər. Məsələn, Azərbaycanın bəzi bölgələri üçün "Niyə mənə birtəhər baxdın?", "Niyə belə dedin?" kimi boş şeylər üstündə davaya çıxmaq, qan salmaq müəyyən qədər xarakterikdir. Amma Şəkidə belə hallara, demək olar ki, rast gəlmək mümkün deyil. Yəni Şəki camaatı daxilən mübariz ruhlu olsa da, çox zaman, bəlkə həddindən də artıq sülhsevərlik göstərir. Əgər indi şəkililər bu cür ayağa qalxıblarsa, deməli, artıq bıçaq sümüyə dirənib, daha dözmək mümkünsüzdür.

– Hazırkı şəraitdə əslən şəkili olan ziyalıların, siyasətçilərin, xüsusən də, Şəkidən deputat seçilən millət vəkillərinin

Satış üçün nəzərdə tutulmayıb

üzərinə hansı funksiya düşür? Onlar indiki vəziyyətdə, məlum hadisələrlə bağlı neyləməlidirlər?

– Onlar bu barədə bəyanatla çıxış edib, hadisələrə münasibət bildirməlidirlər, mövqelərini cəsarətlə ortaya qoymalıdırlar. Məncə, bu, birinci növbədə, parlamentdə Şəkini təmsil edən millət vəkillərinə aiddir. Şəkidən seçilən deputatlar gedib öz seçicilərilə, şəkililərlə görüşməlidirlər. Onlar haqları tapdanan, hüquqları pozulan seçicilərinin hüquqlarının müdafiəsinə qalxmalıdırlar, belə gərgin bir şəraitdə şəkililərlə birgə, camaatın yanında olmalıdırlar. Həmin adamlar əhalinin vəkilidirlər. Əgər belə bir vaxtda da camaatın yanında olmayacaqlarsa, nəyə görə millət vəkili olublar?

Seyfəddin Hüseynli

 Satış üçün nəzərdə tutulmayıb

ВЫСТУПЛЕНИЕ ПЕРЕД АССОЦИАЦИЕЙ АЗЕРБАЙДЖАНСКИХ ВЫПУСКНИКОВ АМЕРИКАНСКИХ ОБРАЗОВАТЕЛЬНЫХ ПРОГРАММ (ALUMNİ ASSOCİATİON, ACCELS)[1]

(28 ФЕВРАЛЯ, 2001, БАКУ)

Дорогие участники встречи и гости!

Тема, на которую меня попросили выступить организаторы этой встречи "Мораль и политика" достаточно известна и хорошо разработана, ибо споры о совместимости морали и политики продолжаются с самого зарождения цивилизации.

Но я хочу подчеркнуть, что для сегодняшнего Азербайджана, а конкретно для каждого из нас эта тема как никогда актуальна, ибо мы живем в тяжелый переходный период, в котором старые ценности и способы жизни уже неприемлемы, но новые – пока еще не выработаны.

Тут, во-первых, возникает вопрос видим ли мы себя участниками политического процесса, способными влиять на его ход или мы лишь субъекты в этой игре. Вот поэтому-то я и назвал свой доклад "Мораль, Политика

[1] https://minval.az/news/39388

Satış üçün nəzərdə tutulmayıb

и Мы". Ведь от ответа на данный вопрос зависит наша жизненная позиция, а в конечном счете и судьба нашей страны.

В поисках ответа на поставленный здесь вопрос мы можем погрузиться в Аристотеля, Макиавелли, Канта или международные соглашения по Правам Человека, но я предлагаю рассмотреть воззрения и сомнения о совместимости морали и политики, появившиеся у каждого из нас при первом же столкновении с кажущимся хаосом открытой политики, начавшейся у нас в 1988 году вместе с Перестройкой.

Вот наши сомнения:

– Мир несправедлив с его сотворения и до наших дней и ничего в этом мире изменить невозможно;

– Люди в ходе истории также не изменились и ими управляют лишь их личные

интересы;

– Я не смогу изменить этот мир, и мне остается лишь или восклицать "Эй вы там наверху, мы здесь внизу";

– Я специалист и занимаюсь своим узким делом, а политикой должны заниматься профессионалы;

– А вот еще постоянно сверлящая наши души мысль посетившая еще Фигаро у Бомарше "Все вокруг (и наверху) воруют и только от меня требуют порядочности". Или в нашем случае: "демократы сменяют партократов, и наоборот, но все они одинаково бессовестно разъезжают на мерседесах, а от меня требуют самопожертвования". Но меня больше красивым словом не зажжешь…

Эти поедающие нас сомнения наводят нас на мысль об полнейшем аморализме в общественной жизни, политике и бизнесе. Зачем жертвовать своим временем и ресурсами, а в наше время и безопасностью ради общего

 Satış üçün nəzərdə tutulmayıb

дела если это ничего не изменит и самое обидное, за это никто не похвалит, зачем работать добросовестно, если капитализм как утверждал Маркс это – воровство.

Для религиозного человека ответ на этот вопрос прост – Бог все видит, ангелы Инкиль и Минкил все записывают, и за мои добрые дела я буду вознагражден по меньшей мере на том свете.

Но для тех кто верит не так глубоко, а таковых сегодня большинство, вопрос, сформулированный Ницше, зачем творить добро, если бог умер, остается открытым.

Честно говоря, и у меня нет ясного ответа на этот вопрос. Почему я участвую в общественной жизни и вовлечен в политику, несмотря на все вышеперечисленные сомнения и риск. Я просто делаю так и не могу иначе, меня этому ни в школе, ни в семье не учили. Но это, конечно слабое, обоснование.

Но попытаемся хоть что-то противопоставить нашим сомнениям:

Меняется ли мир, изменился ли человек за 50 000 лет развития цивилизации?

– 50 000 лет тому назад – Люди повсеместно едят людей.

– 35 000 лет назад – Люди уже едят только врагов

– 10 000 лет назад – появляются религии и люди приносят в жертву людей. Надолго распространяется рабство и женское неравноправие.

– 6 000 лет назад – библейский Авраам уже вместо человека приносит в жертву ягненка (таков смысл нашего Гурбан байрама – это первый праздник прав человек).

– 2 300 лет назад – Появляются первые республики

– 800 лет назад – появляются первые законы ограничивающие власть государства и общества над человеком.

 Satış üçün nəzərdə tutulmayıb

– 350 лет назад – парламенты начинают побеждать королей.

– 200 лет назад – в Европе распространяется законодательство защищающее прав человека от государства.

150 лет назад – начинается успешное всемирное движение за отмену рабства.

– лишь 80 лет назад – женщины получают право голоса.

– 50 лет назад – Сверхдержавы соглашаются, что права человека не являются внутренним делом страны.

– 30 лет назад – массовое движение за расширение гражданских прав потрясает демократические страны.

– 10 лет назад – коммунистический блок рушится и историки объявляют о "Конце Истории" – необратимой победе демократии и прав человека во всем мире.

– 2 года тому назад начинается массовое антиглобалистское движение – люди в успешных странах начинают бороться за экономические права людей из бедных стран.

Итак, хотя сегодня в некоторых точках земли люди продолжают есть людей, согласимся, что мир изменился. Ведь всего 12 лет назад мы не смогли бы свободно собраться здесь и подискутировать без разрешения правительства. Нам также придется признать, этот мир изменился не сам по себе, а в результате активности таких же как мы с вами людей. И если лично кто-нибудь из нас ничего не сделал для того, чтобы завоевать право свободно здесь собираться, то это не означает, что это право появилось само по себе, а лишь означает, что кто-то другой воевал за свободу, которой мы сегодня пользуемся.

Из этой хронологии ясно так же, что положительные перемены в мире не могут быть объяснены лишь следованием людей своим корыстным интересам. Какие ко-

 Satış üçün nəzərdə tutulmayıb

рыстные интересы преследовали активисты, борющиеся не за свои, а за чужие права, а ныне выступающие за права человека и в других странах?..

Но у нас и другие сомнения. Что, нам например ответить на вопрос Фигаро "вокруг все воруют и лишь от меня одного требуют порядочности"?

Тут есть парадокс. Нас трудно переубедить, что за редким исключением все вокруг воруют, а политики продажны, но, при всем этом мир, как мы выше убедились улучшается. Каков же механизм улучшения?

Наверно нам здесь помог бы непривычный для нашей культуры количественный подход к оценке общественной деятельности людей. Не считать человека плохим и хорошим, но поддержать человека в его благих начинаниях и бойкотировать его несправедливые шаги. Ибо, как удачно выразился известный "моралист" Ричард Никсон "в свободном обществе никто не может побеждать все время, никто не может идти своим путем все время и никто не может быть прав все время".

Не считать, что есть плохие и хорошие люди, а считать, что один из них менее испорчен чем другой. И тогда следует выйти на арену и поддержать менее испорченного политика. И поступать так во всем и постоянно.

Итак, если вы займетесь общественной деятельностью и примете этот количественный оценочный метод то ваша постоянная поддержка менее коррумпированных политиков приведет к тому, что НЕВИДИМАЯ РУКА ПОЛИТИЧЕСКОГО РЫНКА (по аналогии с невидимой рукой экономического рынка, введенной в обиход Адамом Смитом) начнет улучшать ситуацию.

 Satış üçün nəzərdə tutulmayıb

Пусть даже каждый политик продажен, но если есть политическая конкуренция, то НЕВИДИМАЯ РУКА ПОЛИТИЧЕСКОГО РЫНКА приведет к тому, что соперничающие друг с другом политики вынуждены будут шаг за шагом удовлетворять ваши требования. Будьте активны и тогда соперничающие политики в борьбе за ваши голоса будут стараться разоблачать друг друга, ограничивая шаг за шагом возможности друг для друга лгать и воровать. Только будьте активны.

И рассмотрим еще одно последнее сомнение.

Моя активность требует сил и средств, а порой даже и риска. Что же лично я получу взамен. И кто же оценит мое самопожертвование?

Тут я с большой уверенностью предскажу вам, что никто не оценит вашего самопожертвования. На собственном опыте могу сказать, что не будет вам признательности ни от людей на этом свете, ни от ангелов на том свете, которого, скорее всего, нет. Молча и с достоинством наш герой-демократ идет на встречу своей судьбе и, возможно, одинокой смерти…

Но награда все же есть! Она в чувстве комфорта, что вы испытываете, находясь среди людей; она в вашем прямом и открытом взгляде в глаза людей; она в той особой теплоте, с которой люди иногда пожимают вам руку. А еще она в том, что когда дети других пишут в своих альбомах, что хотят быть похожими на Шварценегера, ваш сын напишет, что “хочет быть похожим на своего отца”. Что и сделал мой сын в свои 10 лет.

 Satış üçün nəzərdə tutulmayıb

ÖLKƏNİN BÖHRAN ŞƏRAİTİNDƏ İDARƏ EDİLMƏSİ HAQQINDA KENNEDİ VƏ KUBA BÖHRANI[1]

Sərhəd və sərhədyanı neft yataqları ətrafında Azərbaycan–İran böhranı gənc Azərbaycan dövləti üçün dramatik sınaq və bütün cəmiyyətimiz üçün güclü sarsıntı oldu. İran hərbi qüvvələrinin gəmisi və təyyarəsi güc tətbiq etmək hədəsiylə Azərbaycan geofizika gəmisini İran–Azərbaycan sərhədinin mübahisəli xətti yaxınlığındakı dəniz kəşfiyyatı yerini tərk etməyə məcbur etdi. Ölkə vətəndaşları bir an içində dərk etdilər ki, Azərbaycan eyni zamanda Ermənistan, Rusiya, Türkmənistan və indi də İranla müxtəlif ağırlıqlı münaqişələrə cəlb olunub.

Əvvəllər İranın mübahisəli dəniz ərazilərində işlərin dayandırılması haqqındakı xəbərdarlıqlarına məhəl qoymayan hökumət isə münaqişədən sonra İran təyyarələrinin Xəzərin Azərbaycan sektorunda davam edən uçuşlarına heç bir reaksiya vermədi; ictimaiyyət və müxalifət İran təyyarələrinə hücum edilməsinə, ölkədə NATO hərbi qüvvələrinin yerləşdirilməsinə və Güney Azərbaycan inqilabına təkan verilməsinə çağırırdılar.

Göründüyü kimi, bu tamamilə gözlənilməz böhrana ölkənin cavab reaksiyası tam uyğun olmadı. İranın rəftarının

[1] Məşvərət jurnalı, N-3, 2001

Satış üçün nəzərdə tutulmayıb

qeyri-adekvatlığı (münaqişə İranın mühafizəkar dini rəhbərliyi tərəfindən təhrik edilmişdi) haqqında isə danışmağa da dəyməz. Tərəflərin münaqişə zamanındakı hərəkətlərini "rəşadətli" adlandırmaq olar.

Ancaq göstərək ki, böhran vəziyyətindəki çaşqınlıq daha yetkin və güclü cəmiyyətlərə də xasdır. Biz, aşağıda oxucunu orta təsir radiuslu sovet raketlərinin Kubada yerləşdirilməsindən sonra prezident C.F.Kennedinin "rəşadətli" davranışının yeni aşkarlanmış maraqlı təfərrüatı ilə tanış edəcəyik. Bu, Bryus Mayrofun "Demokratiyanın simaları" *(Bruce Miroff, ICONS OF DEMOCRACY, Basic Books, A Division of Harper Collins Publishers)* kitabında yaxşı təsvir olunub.

MAKSİMAL TƏHLÜKƏ VAXTINDA "RƏŞADƏTLİ" RƏHBƏRLİK

Con Kennedi özünün inaqurasiya nitqində söyləmişdir: "Bəşər tarixinin uzun əsrləri boyu maksimal təhlükə vaxtı azadlığın müdafiəçisi rolu çox az şəxsə qismət olub. Mən bu məsuliyyətdən kənara çəkilmirəm. Mən onu qəbul edirəm". O, milləti beynəlxalq böhranlardan çıxarmaq vədini bu sözlərlə ifadə etmişdi. Kennedinin kommunizmin qlobal qüvvələrinə qarşı "soyuq müharibə"də mübarizənin qüvvətləndirilməsi üzrə çağırışları onun prezidentliyinə stimullar verir və onun daxili siyasət problemlərinə münasibətdə özünü göstərməyən məqsədi ortaya çıxarırdı. Kennedi xəbərdarlıq edirdi ki, bu mübarizə təhlükəli olacaqdır, lakin bunun nəticəsində Amerika öz gücünü və möhtəşəmliyini yalnız bərqərar edəcəkdir. "Heç bir millət heç bir zaman bu kimi çağırışla qarşılaşmadığına görə, heç bir millət azadlığın yükünü və bəhrəsini öz üzərinə götürməyə bu qədər hazır deyildi". Kennedinin fikrincə, "soyuq müharibə"nin intensivləşdirilməsi qəhrəman tərəfindən ilhamlandırılan yeni səylər tələb etməliydi.

 Satış üçün nəzərdə tutulmayıb

Kennedi hələ prezidentliyə namizəd olanda xarici siyasətdəki amerikan "yumşaq sentimentalizm"ini özünün "sərt planları və fəaliyyəti" ilə əvəz etməyə söz vermişdi. Kennedi vəzifəyə Amerika xarici siyasəti üçün çox irəli gedən məqsədlə gəlmişdi. Bu strategiyanın əsasında kəsilməz münaqişə halında olan dünya haqqında konsepsiya dururdu. Kennedinin və onun xarici siyasət üzrə əsas müşavirlərinin nəzərində 1957-ci ildə Yerin süni peyki uçuşa buraxıldıqdan sonra Sovet İttifaqı və kommunist düşərgəsinin qarşısıalınmaz irəliləyişi Yer kürəsinin hər bir guşəsini Şərq və Qərb arasında mübarizə meydanına çevirmişdi. Kennedi üçün Amerika strateji qüvvələrinin kütləvi surətdə çoxaldılması və fövqəldövlətlərin qarşıdurmasında amerikan qətiyyətinin nümayiş etdirilməsi vasitəsilə sovet nüvə şantajını pozmaq zəruriydi.

Kennedinin qlobal strategiyası qlobal vüsətli və qətiyyətliydi. Ancaq belə siyasətdə dərrakə yox, lovğalıq əlamətləri gördükdə onu məziyyətə deyil, daha çox çatışmazlığa aid etmək olardı. Onun xarici siyasəti qlobal mübarizədə məhəlli münaqişələri böhranlı döyüşlərə çevirərək daim hadisələrin ciddiliyini artırırdı. Berlindəki, Kubadakı və Vyetnamdakı qarşıdurmalar onun meydan oxuması, amerikan qətiyyətinin, təmkininin və cürətinin sınağı kimi qəbul olunurdu. Onların hər biri Birləşmiş Ştatları öz qüdrətini sübuta yetirməyə, yaxud haradasa azadlığın dönmədən yox olmasını müşahidə etməyə məcbur edən taleyüklü anlar yaradaraq iradə böhranına gətirib çıxarırdı. Kennedinin əqidəsinə görə, böhran onun dövrünün fərqləndirici əlaməti və onun rəşadətli rəhbərliyinin meydanı idi. "Soyuq müharibə"nin ən qorxulu böhranlarının məhz onun hakimiyyəti illərində baş verməsi heç də təsadüfi deyildir.

Kennedi söyləyirdi: "Şübhəsiz ki, bu qətiyyətli və güclü sistem (yəni kommunizm) hər yerdə – Berlində, Asiyada, Yaxın Şərqdə, bizim yarımkürədə əsəblərimizi və iradəmi-

 Satış üçün nəzərdə tutulmayıb

zi yoxlayaraq bu yaxın illərdə bizi çox sınaqlara çəkəcəkdir. Biz bir-birinin ardınca meydan oxumaqlarla qarşılaşacağıq".

Əlbəttə, belə bəlağətli bəyanatın arxasında müəyyən siyasi niyyət gizlənirdi. Kennedi Eyzenhauerdən də kəskin danışaraq, bununla özünü sağdakı qatı antikommunistlərdən qoruyurdu. *Onun "soyuq müharibə" zamanı şücaətli səylər göstərilməsi barədəki çağırışları vətəndaşları birləşdirdi və ona bütün prezident seçkiləri tarixində ən yüngül qələbəni çalmağa imkan verdi*. Fəqət belə çıxışlar hədsiz tez-tez olur və Kennedi ilə müşavirləri arasındakı söhbətlərə olduqca bənzəyirdi; bunlar geniş auditoriya qarşısında söylənilən nitqlərdə işlədilə bilməzdi. Kennedi öz söylədiyinə prinsipcə inanırdı. O, həmin dövrdə sovet lideri Nikita Xruşşovun göndərdiyi siqnallara məhəl qoymurdu. Bu siqnallarda isə artıq hər iki fövqəldövlət arasındakı gərginliyin aradan qaldırılmasının mümkünlüyü sezilirdi.

Bu davakar bəyanatlardan, silahlanmanın gücləndirilməsindən, amerikalıların təşkil etdiyi Kuba basqınından qıcıqlanan Xruşşov da hirslənərək davakar tona keçdi və Vyanada Kennedi ilə keçirilən yüksək səviyyəli görüşdə Berlinin və hər iki Almaniyanın həll edilməmiş statusu üzrə sovet-Amerika qarşıdurmasının başlanğıcını qoydu. Eyzenhauer 1958-ci ildə Xruşşovun Berlindəki vəziyyətlə bağlı ultimatumu ilə qarşılaşmış və onu rədd etmişdi. Fəqət o, bu vəziyyətə mülayim münasibətlə onun gərginliyini azaltdı və danışıqların aparılması arzusunu bildirdi. Maykl Beşlossun yazdığına görə, *"xarici siyasət böhranlarının yatırılmasında Eyzenhauerə kömək edən instinkt"* Kennedidə yox idi. Doğrudur, o da alman məsələsi üzrə danışıqların aparılmasına hazırdı, amma Amerikanın qətiyyətli və möhkəm mövqeyini kütləvi nümayiş etdirdikdən sonra, 1961-ci il mayın 25-də televiziya ilə verilən dramatik nitqində o, Qərbi Berlini "Qərb cəsarətinin və iradəsinin böyük sınaq mey-

 Satış üçün nəzərdə tutulmayıb

danı" kimi təsvir etmişdi. Berlin ətrafında *cəmləşən hərbi gücün hətta qeyri-əlverişli tarazlığı şəraitində belə* o, bu cür çətinlikdən çəkinmədi. "Əgər insanlar – mərd insanlar istəsələr, təhlükə altındakı istənilən mövqe müdafiə oluna bilər".

Kommunistlər Berlin səddini tikdikdən sonra Xruşşov qarşıdurmadan tərəddüdlü danışıqlara keçdi. Fəqət 1961-ci ildə Berlinlə əlaqədar olan münaqişə qızğın silahlanmanı daha da sürətləndirdi və hər iki fövqəldövlətə sirayət edən böhran əhvali-ruhiyyəsini gücləndirdi. Bu, "soyuq müharibə" tarixinin ən təhlükəli böhranına müqəddimə oldu.

Son 10 ildə əvvəllər məxfi sayılan sənədlərin nəşri və Kuba böhranının Amerikalı, Sovet və Kubalı iştirakçılarının görüşdüyü elmi konfransların ardıcıllığı onun necə keçdiyi barədə yeni versiyanı üzə çıxartdı. Bir çox şeylərin vəziyyətin şərhindəki və hər iki tərəfin mülahizələrindəki səhvlərdən irəli gəldiyi aydın oldu. İndi sovet alimləri etiraf edirlər ki, Xruşşovun orta təsir radiuslu raketləri Kubaya gizlicə göndərməsi düşünülməmiş hərəkət idi. Sovetlər Kubadakı vəziyyətin prezident Kennedi üçün siyasi tikan olduğunu nəzərə almadan bu addımı atmışdılar. Hər halda, amerikalı iştirakçılardan bəziləri (və amerikalı alimlərin əksəriyyəti) sovet liderinin bu qambitinin aqressiv yox, daha çox müdafiə xarakteri daşıması və Kennedi hökumətinin əvvəlki hədələyici aksiyalarına (özünü Kastro Kubasının qorxudulmasında və Amerikanın nüvə üstünlüyü barədəki Xruşşovu heyrətləndirmiş kütləvi bəyanatlarda göstərmiş) cavab olması ilə razılaşırlar.

Prezidentin yanındakı İcra komitəsinin (EKSKOM) iclaslarının açıqlanmış stenoqramları və yazıları böhran zamanı prezident Kennedinin ruhi vəziyyəti və davranışı barədə daha tam xəbər verir. Bizdə raket böhranının yalnız birinci və sonuncu günlərindəki (16 və 27 oktyabr) iclasların tam yazısı

 Satış üçün nəzərdə tutulmayıb

var və buna görə də hadisələrin yarımçıq mənzərəsini görürük. Buna baxmayaraq, Kennedinin böhranın əvvəlindəki və sonundakı davranışının müqayisəsi təəccüblü dönüşü, müzəffər amerikalı "qəhrəman"ın hərəkətləri barədə ilkin hesabatlarda ciddi-cəhdlə gizlədilən hansısa kulminasiya nöqtəsini göstərir. Bu iclas yazıları, böhranın əvvəlində riskə qətiyyətlə gedən Kennedinin *onun sonunda qorxmuş, ehtiyatlı və daha cəzbedici insana çevrildiyini göstərir*.

Böhranın birinci günündə (16 oktyabr) EKSKOM-un iclaslarında Kennedi Kubada sovet raketlərinin yerləşdirilməsinə qarşı müşavirlərinin təklif etdiyi xüsusi diplomatik cavabı rədd etdi və hərbi tədbirlərin bir sıra variantları barədə fikirləşməyə başladı. Ona xüsusilə də üç variant təklif olunmuşdu: raket mövqelərinə məhdud hava hücumu; bütün Sovet-Kuba HHM sistemlərinin havadan tammiqyaslı bombalanması; Kubaya basqın. O, EKSKOM üzvlərinə cavabında aşağıdakını demişdi: "Mən hesab etmirəm ki, bu raketlərin öhdəsindən gəlmək üçün bizim kifayət qədər vaxtımız var... Biz, basqına hazır olacağımız iki həftəni də gözləyə bilmərik... Biz, əlbəttə ki, birinci variantı seçəcəyik. Biz həmin raketləri neytrallaşdıracağıq".

Onun milli təhlükəsizlik məsələləri üzrə xüsusi köməkçisi Makcorc Bandi elə oradaca onun nəzərinə çatdırdı: *"Cənab prezident, siz dəqiq deməlisiniz ki, biz həqiqətən də siyasi variantdan imtina etməyə qərar veririkmi?" Kennedi bunun məhz belə olduğunu söylədi*. Halbuki o, havadan güclü zərbəni seçdiyi halda "dünyadakı mənfi reaksiya təhlükəsini" anladığı zaman onun diqqəti, demək olar ki, tamamilə hərbi tədbirlərin görülməsinə cəmləşmişdi. Kennedi hətta EKSKOM-un iclasının gündəliyini də təklif etdi. Burada əsas məsələ hərbi aksiyaların tətbiq edilib-edilməməsi yox, onlardan hansının həyata keçiriləcəyi idi.

Böhranın birinci gününün əhvali-ruhiyyəsində təsadüfən yaranmış məzəli anlar bu böhrana Kennedinin ilkin baxışlarının nə qədər dumanlı olmasını göstərir. O, Xruşşovu Kubada öz raketlərini yerləşdirməyə təhrik edən səbəblər barədə düşünərək demişdir: *"bu, ona bərabərdir ki, biz qəflətən Türkiyədə çoxlu sayda orta məsafəli ballistik raketlərimizi yerləşdirməyə başlayaq. Mən zənn edirəm ki, bu, çox təhlükəli olardı". Bandi burada onun sözünü kəsib dedi: "Cənab prezident, biz bunu artıq çoxdan etmişik".* Kennedinin buna cavabı lap mənasız oldu: *"Bəli, lakin bu, beş il bundan əvvəl olub"*. Bizim qəhrəman lider heç cür etiraf etmək istəmirdi ki, hər iki tərəfin səbəbləri eyni ola bilər və onlar eyni cür hərəkət ediblər. O, böhrana xeyirlə şərin mübarizəsi kimi baxmaqla şəxsən özünü bundan çox asılı etmişdi. Amerika raketlərinin Türkiyədə, sovet raketlərinin isə Kubada yerləşdirilməsinin simmetrikliyinin etiraf edilməsi, ehtimal ki, onu bu problem üzərində dərin düşüncələrə qərq etmişdi. Bu da öz növbəsində, onu Xruşşovun düşünülməmiş ehtiraslı oyununda onun özünün "soyuq müharibə" aksiyalarının oynadığı rolu qiymətləndirməyə gətirib çıxarmışdı.

16 oktyabr iclaslarının bir çox iştirakçısı öz təşkilatlarının və institutlarının maraq və vəzifələrinə uyğun mövqedə dururdu. Dövlət katibi Din Raskı ADT (Amerika Dövlətləri Təşkilatı) və NATO ilə məsləhətləşmədən Birləşmiş Ştatların hərbi aksiyalara başladığı halda həmin qurumların çəkəcəyi diplomatik məsrəflər qayğılandırırdı. Müdafiə naziri Robert Maknamara rəyini aşkar bildirərək dedi: *Kubadakı raketlər Amerikanın strateji üstünlüyünü maddi planda zərrə qədər də azaltmır*. "Mən düşünmürəm ki, qarşımızdakı hərbi problemdir... Bu, daxili, xalis siyasi problemdir".

Prezident Kennedinin bu dialoqa yeganə *töhfəsi onun qeyd etdiyi rəşadətli rəhbərlik perspektivi oldu*. O, Sovetlərin belə

 Satış üçün nəzərdə tutulmayıb

avantürist addım atmaqla sanki öz ənənəvi ehtiyatlı davranışından əl çəkdiyinə əmin olduğuna görə çıxılmaz vəziyyətə düşmüşdü.

Kennedi və EKSKOM bir neçə gün fikirləşdikdən sonra açıq qarşıdurma variantına razılaşdılar. Onlar ümid edirdilər ki, Sovetləri Kubadan raketlərini çıxarmağa məcbur edəcəklər. EKSKOM-un bəzi iştirakçıları "quzğun" mövqeyində qalınmasının və havadan zərbə endirilməsinin tərəfdarı kimi çıxış edərək birinci günün iclaslarına müvafiq əhvali-ruhiyyə aşılamalarına baxmayaraq, prezident və onun ən yaxın müşavirləri daha düşünülmüş istiqamət götürməyə səy göstərirdilər: onlar ilk addım kimi adanın dənizdən blokadasına üstünlük verirdilər. Əlbəttə, hərbi dəniz "karantin"i bir qədər mülayim cavabdı, amma hər halda, hərbi addımdı və onun arxasında dənizdə qüvvələrin mübarizəsi ehtimalı dururdu. Sovet mənbələrinin göstərdiyinə görə, hirslənmiş Xruşşovun özü belə qarşıdurmaya hazır idi, amma qarşılıqlı nüvə zərbələrinin dəhşətini anladıqdan sonra sakitləşdi. Raket böhranı sanki dayanmadan zirvə nöqtəsinə yaxınlaşdıqca blokada və artıq Kubada yerləşdirilmiş sovet raketlərinin həll olunmamış problemi ilə bağlı gərginlik getdikcə Kennediyə öz təsirini daha çox göstərməyə başladı. Oktyabrın 27-də EKSKOM üzvləriylə görüşəndə, sonrakı addımların müzakirəsi zamanı onun mövqeyi oktyabrın 16-dakı mövqeyindən kəskin surətdə fərqlənirdi. *Kubaya münasibətdəki hədələriylə və Amerikanın iri nüvə üstünlüyünün nümayişi ilə Xruşşovu təhrik etdikdən, eləcə də açıq qarşıdurma xeyrinə dinlomatiyadan imtina etdikdən sonra Kennedi, Tomas Pattersonun qeyd etdiyi kimi, "axırda elə özünü də qorxutmuşdu". Bu qorxu onun faydasına oldu.*

EKSKOM oktyabrın 27-də öz iclaslarına başladığı zaman çaşqınlıq baş vermişdi: onun üzvləri Xruşşovdan bir-birinin ardınca gələn iki məktuba necə reaksiya verəcəklərini bilmirdilər. Onlardan birində amerikalıların Kubaya basqın etməyəcəyi vədi əvəzində raketlərin adadan çıxarılması tək-

 Satış üçün nəzərdə tutulmayıb

lif olunurdu. İkincisində, Sovetlər əvvəlki təklifi bir qədər gücləndirərək Türkiyədəki və Kubadakı raketlərin qarşılıqlı surətdə çıxarılmasında israr edirdilər. Sovetlərin birinci təklifi məqbul qiymətləndirildi. Amma EKSKOM-ün üzvlərinin əksəriyyəti raket "alveri" ideyasının qəti əleyhinə oldu. Onların ehtimalına görə, bunu xüsusilə Amerikanın NATO üzrə müttəfiqləri zəiflik əlaməti kimi qəbul edə bilərdi. Fəqət Kennedi bir neçə dəfə söhbəti "alver" variantı tərəfinə çəkmişdi. Böhranın nəzarətdən çıxdığı və nüvə silahının məcburi tətbiqi halında məhv olacaq milyonlarla insan həyatına görə öz məsuliyyətini hiss edərək o, indi hər cür hərbi aksiyadan aralanmağa səy göstərirdi. Kuba raket böhranı kimi bir anda vahimə, *Cozef Payın qeyd etdiyi kimi, "dərrakənin kəskinləşməsini" oyatmağa qabildir*. Məhz elə bu da Kennedinin başına gəldi. İndi o, EKSKOM-u Xruşşovun raketlərin qarşılıqlı çıxarılması təklifinə baxmağa təhrik edirdi və bu addımı dünya ictimai rəyi nöqteyi-nəzərindən qiymətləndirirdi. "Əgər onun təklifi keçərsə biz bu məsələdə olduqca qibtəolunmaz vəziyyətdə qalacağıq. Birincisi, biz keçən il Türkiyədən raketləri çıxarmağa cəhd etmişdik, çünki hərbi nöqteyi-nəzərdən onlar orada lazımsızdır... İkincisi, istənilən dərrakəli insan kimi BMT-dəki hər bir insan üçün bu yetərincə ədalətli alver şəklində görünəcək". EKSKOM üzvlərinin əksəriyyətinin adından çıxış edən Makcorc Bandi söylədi ki, raketlərin qarşılıqlı çıxarılması Birləşmiş Ştatlara olan etimada zərər vuracaq. "Əgər biz NATO üzrə müttəfiqlərimizə və bizimlə saziş münasibətlərilə bağlı olduğumuz başqa ölkələrə bu alveri həyata keçirmək niyyəti haqqında desək əsl bəlaya düşərik". Lakin Kennedi böhranın inkişafı istiqamətində daha uzağa baxaraq Amerikanın müttəfiqlərinin hələ dərk etmədiyi dəhşətli perspektivi görürdü.

"Siz anlayırsınız ki, onların heç bir alternativi yoxdur. Və onlar deyəcəklər: "Ay Allah, biz Türkiyədəki raketlərdən imtina etmək istəmirik". Axı onlar anlamırlar ki, biz iki-üç gündən sonra Ku-

Satış üçün nəzərdə tutulmayıb

baya zərbə vura bilərik, bu da, çox güman ki, Sovetlərin Berlini tutmasına, yaxud Türkiyəyə zərbə vurulmasına gətirib çıxaracaq. Və o zaman onlar deyəcəklər: "Allah, bağışla, biz buna razı olmalıydıq".

Bu an bu otaqda olanların hamısından çox Kennedi *inamsızlıq paranoyasının* şərtləndirdiyi bütün "soyuq müharibə" tələlərinin hesaba alınması əhvali-ruhiyyəsindəydi. Böhran zamanı o anlayırdı ki, *hətta həddindən artıq yolayovuq görünmək riskiylə bağlı olan sülhsevər mövqe daha müdrik olur, nəinki özüylə fəlakət riski gətirən sərt inadcıllıq*.

Oktyabrın 27-də hökm sürən əsəbi şəraitdə EKSKOM-un bir neçə üzvü hələ də güc tətbiq etmək qərarında israrlıydı, Qərargah rəislərinin birləşmiş komitəsi isə Kubaya havadan 48 saat ərzində güclü zərbə endirilməsinə səy göstərirdi və bundan sonra da adaya basqın başlamalıydı. Böhranın birinci günü Kennedi, güman ki, heç bir gizli fikri olmadan "quzğun" avazına köklənmişdi, indi isə o, hərbi əməliyyatların gətirib çıxaracağı nəticələrin qarşısında geri çəkildi. O demişdi: "Mən düşünürəm ki, biz Türkiyə və Kubadan raketlərin qarşılıqlı çıxarılmasına qərar versək yaxşı olar, çünki onların həm Türkiyədə, həm də Kubada, hər bir yerdə ləğvinin hərbi üsulu çox təhlükəli və çox qanlı ola bilər".

Alınmış son məlumata görə Kennedinin Amerikanın Kubaya zərbəsi hər iki tərəfdən nəzarətdən çıxmış münaqişənin gücləndirilməsinə gətirib çıxaracağı qarşısında qorxusu özünü tamamilə doğrultmuşdu. 1992-ci ilin yanvarında Havanadakı konfransda sovet iştirakçıları öz amerikalı həmkarlarına məlumat verdilər ki, Kubadakı Sovet komandanlığının ixtiyarında taktiki nüvə silahı vardı və ona həmin silahı Amerika basqınına qarşı istifadə etməyə icazə verilmişdi. Robert Maknamara bu açıqlamadan dəhşətə gələrək dedi: *"Bu, o deməkdir ki, əgər raketlər çıxarılmasaydı və Birləşmiş Ştatlar basqını həyata keçirsəydi, doxsan doqquz faiz əmin olmaq olardı ki, bunun ardınca nüvə müharibəsi başlanacaqdı"*.

 Satış üçün nəzərdə tutulmayıb

Nəhayət, EKSKOM Kennedini Türkiyədəki raketlərin məsələsini təxirə salmağa və Birləşmiş Ştatların basqın etməyəcəyi variantla Sovetlərin razı salınmasına nail olmağa inandıra bildi. Türkiyədəki raketlərin bir neçə aydan sonra sökülməsi barədəki *məxfi zəmanəti* Sovetlərə çatdırdıqdan sonra qorxmuş Xruşşov bu razılaşmanı bəyəndi.

Beləliklə, Kennedi böhranın qızğın çağında nə qorxmaz qəhrəman, nə də dəlibaş cəngavərdi. Öz pərəstişkarlarının güman etdiyindən də yüksək dərəcədə qorxmuş Kennedi daha ehtiyatla və daha məsuliyyətlə (bunu onun tənqidçiləri bilirlər) hərəkət etdi. Hansı bir andasa nüvə savaşının kabusu "rəşadətli" rəhbərliyin bütün boşluğunu və mənasızlığını ona aydınlaşdırdı. (Fəqət Kennedinin dəyişilməsi tam deyildi. Böhran sona çatandan sonra – onun Xruşşov üzərindəki qələbəsi kütləvi məftunluğun artan dalğalarına səbəb olanda prezident öz yaxın dostları qarşısında öyünərək demişdi: "*Mən onu axtaladım!*").

Kennedi Sovet İttifaqı ilə gərginliyin azaldılması siyasətinə doğru yavaş-yavaş hərəkət etməsinə baxamayaraq, o, strateji silahlanmanın sürətini azaltmırdı. Prezident isə əvvəlki kimi öndərliyin qəhrəmanlıq obrazından həzz almaqda idi: "Biz öz ölkəmizdə, indiki nəslin yaşadığı dövrdə azadlıq qalasının keşikçiləri olmağa öz istəyimizlə deyil, tale tərəfindən seçilmişik".

 Satış üçün nəzərdə tutulmayıb

AZƏRBAYCANIN İLK DİSSİDENTİ VƏ İLK PREZİDENTİ[1]

22 avqustda müstəqil Azərbaycanın ilk prezidenti Əbülfəz Elçibəy uzun sürən xəstəlikdən sonra 63 yaşında Ankara hərbi qospitalında dünyasını dəyişdi və onun cənazəsi Türkiyə hökuməti nümayəndə heyətinin müşayiəti ilə hökumət təyyarəsində Bakıya gətirildi.

Ertəsi gün Bakıda Elçibəyin dəfn mərasimi bu insanın bütün ömrü boyu təbliğ etdiyi müstəqillik və demokratiya ideyalarına sadiq olan on minlərlə insanın həmrəylik nümayişinə çevrildi.

Elçibəy (əsl adı Əbülfəz Əliyevdir) 1938-ci ildə Naxçıvan vilayətinin dağlıq Kələki kəndində sadə kəndli ailəsində doğulub. Atası İkinci Dünya müharibəsi cəbhəsindən geri qayıtmayıb və Elçibəy anasının yanında daimi ehtiyac içərisində böyüyüb.

19 yaşında o, Bakıda Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə daxil olub və burada öz dostları ilə birgə gizli millətçi təşkilat yaradaraq kommunistlərin ölkədə yürütdüyü Azərbaycan xalqını zorla assimilyasiya etmək siyasətinə qarşı çıxıb.

1975-ci ildə artıq Universitetin müəllimi olan Elçibəy gizli antisovet təşkilat yaratdığına və tələbələr arasında açıq "millətçi təbliğat" apardığına görə il yarımlıq həbsə məhkum

[1] Yeni Musavat 15.08.2001

 Satış üçün nəzərdə tutulmayıb

edilib. Elçibəyin yaxın dostları bildirir ki, onun çıxışlarının həbslə nəticələnəcəyi haqqında özünə xəbərdarlıq etdikdə deyirmiş: "Qoy mən zindanda yatım, ancaq mən oğurluq və əclaflıq üstündə yatmağa hazır olan bir çox adamlara sübut etmək istəyirəm ki, ideyalar üstündə dustaq olmaq elə də qorxulu deyil".

Həbsdən çıxandan sonra Elçibəyə müəllimliklə məşğul olmaq yasaqlandı və o, Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda iş tapdı, ancaq orda da DTK-nın daimi nəzarəti altında oldu. Elçibəy milli müqəddəratı təyinetmə problemlərinə dair görüşlərini yaymaqda davam edir. Bu zaman Əbülfəz Əliyev öz silahdaşları arasında "xalqın elçisi" mənası verən gizli "Elçibəy" təxəllüsü ilə tanınır.

"Yenidənqurma"nın başlanması ilə Elçibəy demokratiya və Rusiyadan asılılığın azaldılması uğrunda ümummilli hərəkata fəal qoşuldu. Artıq xalq içərisində geniş tanınan Elçibəy 1989-cu ildə Azərbaycan Xalq Cəbhəsinin – Azərbaycana müstəqillik bəxş etmiş hərəkatın sədri seçildi. Elçibəy Sovetlər Birliyinin dağılmasından söz düşərkən "mən həmişə bilirdim ki, bu quruluş dağılacaq" deyərdi.

1992-ci ildə Elçibəy ölkə prezidenti seçildi və onun başçılıq etdiyi hökumət çoxpartiyalı sistemin tətbiqi, etnik azlıqların və özünüifadə azadlığının qorunması haqqında qanunların qəbul edilməsi, milli valyutanın tətbiqi, ticarət və valyuta dövriyyəsi azadlığı... kimi fundamental demokratik dəyişiklikləri həyata keçirtdi. Repressiya olunmuş tarixi və milli mədəniyyəti özünə qaytarılmış (30-cu illərdə kommunistlərin kirillitsa ilə əvəz etdiyi latın əlifbası bərpa edildi) yeni millətin yetişməsində də Elçibəyin xidmətləri çox böyükdür.

Elçibəy hökuməti ölkənin xarici siyasət kursunu kəskin dəyişdi – MDB-yə girməkdən imtina etdi və NATO ölkələri ilə, ilk növbədə Türkiyə ilə əlaqələri sürətlə inkişaf etdirməyə başladı. 1993-cü ilin mayında Elçibəy hökumətinin və parlamentin təzyiqləri altında sonuncu Rusiya qoşunları

 Satış üçün nəzərdə tutulmayıb

Azərbaycan ərazisini tərk etdi, halbuki onlar SSRİ-nin Pribaltikadan başqa bütün respublikalarında indiyədək qalmaqdadır.

Bu cür xarici siyasət Dağlıq Qarabağ uğrunda müharibədə Ermənistana kömək etməklə Azərbaycana təzyiq göstərməyə cəhd edən Rusiyanı qəzəbləndirdi. 1993-cü ilin iyununda Rusiya xüsusi xidmətinin dəstəyi ilə ölkədə hərbi çevriliş baş verdi və Elçibəy öz postunu tərk etdi. O, öz doğma Kələki kəndində sığınacaq tapdı, burada dörd ildən artıq qaldı və bu zaman özünü ölkənin qanuni prezidenti saymaqda davam etdi.

1997-ci ilin sonlarında Elçibəy Bakıya qayıtdı və artıq hərəkat deyil (Cəbhə müxtəlif güclü bir neçə demokratik partiyaya parçalanmışdı), partiya olan Azərbaycan Xalq Cəbhəsinin sədrliyini ömrünün sonunadək davam etdirdi.

Elçibəy haqqında düşüncələr həmişə ziddiyyətli olub: "müstəqilliyimizin ilhamvericisi" və "demokratik hərəkatı dalana dirəşdirən adam", "millətin atası" və "zəif inzibatçı", "milli ideyanın daşıyıcısı" və "irticaçı millətçi" – pərəstişkarları və tənqidçiləri onu belə adlandırırdılar.

Onun baxışları və əməlləri bir çox hallarda ziddiyyətli olurdu. Ənənəvi avtoritar Şərq mədəniyyəti mühitində tərbiyə almış Elçibəy daim Qərbə və plüaritar demokratiyaya can atırdı; o, Şərq qadınının istismar olunmasına qarşı qətiyyətlə çıxdı, qadının ictimai həyatda iştirak etməsini alqışladı, ancaq heç vaxt öz həyat yoldaşı ilə qəbullarda və ziyafətlərdə görünmədi; o, insanın şəxsi və siyasi hüquqlarını müdafiə edən qanunları tərəddüdsüz qəbul edirdi, ancaq bu zaman aydınlaşırdı ki, konkret insanın hüquqlarının pozulması onu elə də həyəcanlandırmır və o, bu pozuntulara tarixi prosesin labüd hissəsi kimi baxır. Elçibəy hakimiyyətdən – insanlar üzərində ağalıqdan qətiyyən zövq almayıb; o, ideyalar aləmində yaşayırdı, o, "tarixi yaradırdı", xırda problemlər və gündəlik inzibati məsələlər onu əsla cəlb etmirdi.

 Satış üçün nəzərdə tutulmayıb

Ermənistanla müharibədə və Rusiya ilə gərgin münasibətlərdə olan Elçibəy 20 milyonluq İran azərbaycanlılarının Azərbaycan Respublikası ilə birləşməsi məsələsini daim qaldırır, bununla da İranın şəxsində özünə qəddar düşmən qazanırdı. Elçibəy Rusiya və İranla qarşıdurmasında Qərbin və Türkiyənin yardımına ümid bəsləyirdi, ancaq görmürdü ki, Qərb də, Türkiyə də ona tam həcmdə köməklik göstərməyə hələ hazır deyillər...

Elçibəyin ölkədəki demokratik prosesə töhfəsini dəyərləndirərkən Azərbaycan cəmiyyətinin 70 və 80-ci illərdə nə qədər zəif olduğunu xatırlamaq gərəkdir. SSRİ-nin başqa respublikalarında Helsinki sazişlərinin müdafiəsi uğrunda dissident hərəkatı genişlənməyə başladığı zaman Azərbaycanda belə bir şey müşahidə olunmurdu. Ölkədə gizli nəşrlər ("samizdat") anlayışı da yoxdu, Azərbaycan yazıçıları senzuranın icazə verdiyi romanlar yazır, tarixçilər isə "Azərbaycanın əbədi səadəti Rusiya ilə ittifaqdadır" düşüncəsini təsdiqləmək üçün ölkə tarixini həvəslə yenidən yaradırdılar. Belə görünürdü ki, cəmiyyət əxlaqsız sovet sistemi ilə tam ahəngdarlıqda yaşayır. Bax, belə bir xəstə durum fonunda elə bir insan meydana çıxdı ki, adamları vicdanımız və milli kimlik üzərində zorakılıqdan ibarət dəhşətli yuxudan ayılmağa çağırdı.

Çoxları unudur ki, Xalq Cəbhəsinin liderləri arasında Elçibəy yaşlı nəslin yeganə nümayəndəsi idi, Cəbhənin qalan öncüllərinin hamısının və fəallarının çoxunun yaşı 35-dən artıq deyildi və Xalq Cəbhəsi prezidentliyə namizəd irəli sürərkən Elçibəydən başqa ictimai xadimlərin yaşlı nəsli içərisində ənənəvi əhvali-ruhiyyəli Azərbaycan əhalisinin ümummilli lider saya biləcəyi heç kəs yoxdu.

Elçibəyin bir böyük xidməti də bundadır ki, məhz onun və ona bənzər insanların sayəsində Xalq Cəbhəsi Akademiya intellektualları təşkilatından ümummilli hərəkata çevrildi. Sadə insanlar arasında onun böyük xarizması vardı. Elçi-

Satış üçün nəzərdə tutulmayıb

bəy onları başa düşürdü, onları sevirdi, onlarla ən mürəkkəb məsələlər haqqında onların öz dilində danışırdı və insanlar onun arxasınca gedərək, müstəqillik uğrunda hərəkata dönməzlik qazandırırdılar.

Bu gün deyirlər ki, Elçibəyin ölümü ilə Azərbaycan siyasətində romantizm dövrü bitdi. Belə olduğunu düşünmürəm; millətin on illərcə irəlini görməyi bacaran, əşyalar aləmində deyil, ideyalar aləmində yaşayan insanlara həmişə ehtiyacı olacaq. Bu deyilənin doğruluğunu Elçibəyi milli himn və vətənpərvər mahnılar oxuya-oxuya neçə kilometrlər boyunca öz çiynində son mənzilə yola salan on minlərlə insan da təsdiqlədi.

 Satış üçün nəzərdə tutulmayıb

İNSAN HAQLARI "XEYRİMİZƏ" POZULURSA[1]

Ölkəmizdə insanın siyasi haqlarının pozulması adi, barəsində kifayət qədər yazılmış bir işdir və bu həm cəmiyyətdə, həm də mass-mediada etirazlar doğurur. Ancaq Konstitusiya ilə müdafiə olunan hüquqlar arasında elələri də var ki, cəmiyyət onların pozulmasına biganə qalır və hətta bunları razılıqla qəbul edir. Belə hesab edilir ki, bu pozuntuları hökumət "ictimai maraqlar"a uyğun, yəni "bizim xeyrimizə" edir. (Xatırladaq ki, "İnsan Haqları" termini "Dövlətin bizim şəxsi, ictimai və siyasi həyatımıza müdaxiləsindən müdafiə haqları" deməkdir).

Müstəqillik dövründə pozulması bizim təəssüfümüzə səbəb olmayan insan haqları qrupuna din və mülkiyyət azadlığı kimi vacib şəxsi hüquqlar da daxil olub. Bu cür vəziyyət qeyri-adidir, çünki tarixən orta əsr Avropasında İnsan Haqları uğrunda hərəkat din azadlığının vahid kilsənin diktəsindən və şəxsi mülkiyyətin Dövlətin qəsdindən müdafiəsi hərəkatı ilə başlayıb.

"BİZİM DİN", YOXSA DİN AZADLIĞI?

Heç şübhəsiz, ekstremist dini təşkilatlar ətrafında baş verən hadisələr ("Ceyşullah"ın hərəkətləri, akademik Ziya

[1] "Yeni Müsavat" qəzeti, 04 Sentyabr 2001

Satış üçün nəzərdə tutulmayıb

Bünyadovun qətli, bəzi iranmeyilli şiə fəallarının aktivləşməsi və s.) bizi narahat etməyə bilməzdi. Ancaq hökumətin və hətta bizim bəzi demokratların təklif etdiyi mübarizə üsulları Konstitusiyanın ziddinədir və yalnız əks nəticə verə bilər.

Mən dindar olmasam da, din azadlığını bizim Konstitusiyamızda təsbit olunmuş digər azadlıqların (həm şəxsiyyət, həm də bizim bütövlükdə demokratiyamız üçün) heç birindən az əhəmiyyətli hesab etmirəm.

Deyirlər bizdə din azaddır. Əfsus ki, bu belə deyil. Əgər ölkədə məscid və kilsə varsa, bu, heç də din azadlığının mövcudluğundan xəbər vermir. İranda, Səudiyyə Ərəbistanında və Çində hakimiyyətin icazəsi ilə fəaliyyət göstərən məbəd olsa da, orada din azadlığı yoxdur. Kim öz Allahına öz istədiyi kimi ibadət etmək istəsə, bu, həm hakimiyyət, həm də cəmiyyət tərəfindən təqib olunur. Həmin nöqteyi-nəzərdən yanaşsaq "Azərbaycanda din azadlığı mövcuddur" kimi ifadələr son beş il ərzində mübahisə doğurur. Və əgər hökumətin və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) bu sahədə planları həyata keçirilsə, onda bu mübahisəli azadlıqdan da heç nə qalmayacaq.

"Exo" qəzetinin İnternet Forumunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Rafiq Əliyevin çıxışını oxuyarkən sanki qarşında Dövlət məmurunu yox, hakimiyyətə gəlmiş din xadimini görürsən. Bu müsahibədən aydın olur ki, Komitə QMİ ilə birlikdə vətəndaşların dini işlərinə təsirli müdaxilə etmək istəyir. Bundan əlavə, onun kimə və necə ibadət etməsi kimi dövlət məmuru üçün yolverilməz olan xüsusi rəyi də var: "Fikrimcə, məktəblərdə dinin tarixi məcburən tədris olunmalıdır." Qeyd edək ki, ABŞ və Avropa Şurası ölkələrində "din tarixi"nin öyrənilməsi könüllüdür.

 Satış üçün nəzərdə tutulmayıb

“Vətəndaşlar dinin tarixi və... dinin zərurət olması barədə informasiya almalıdırlar”. Dünyəvi Dövlətlərdə dinin heç bir zəruriliyi, labüdlüyü ola bilməz.

Müsahibədə dindarlara nəyə və necə ibadət etmək tövsiyə edilir: “Müqəddəs adamlara yox, Allaha ibadət etmək lazımdır; duanı istənilən dildə oxumaq olar, ancaq namazı ərəbcə yerinə yetirmək lazımdır; dini mahnılar insanlara təsəlli versə də, bu heç də lazım olan şey deyil, gərək insana sözlərlə və örnəklə təsir edəsən”; və nəhayət, “Ömür çox qısadır, və arzuolunmaz nəticələrə aparan cürbəcür yolları sınamağa ehtiyacımız yoxdur”. Maraqlıdır, müəllim, “ehtiyacımız yoxdur” dedikdə kimi nəzərdə tutursunuz?

Bu cür fikirlər din xadiminə yaraşsa da, dövlət məmuru üçün qəti surətdə qadağandır və demokratın dilindən bu cür sözlər çıxmamalıdır. Ona görə ki, onların hamısı üçün heç bir “bizim” dinimiz yox, yalnız din azadlığı mövcuddur!

Bəs görəsən, etiqadı R.Əliyevin baxışları ilə üst-üstə düşməyənlər necə olacaq? R.Əliyevin sözlərindən belə çıxır ki, bu cür dini təşkilatlar qeydiyyatdan məhrum ediləcək. Dini sahədə hakimiyyətin nəzarətini həyata keçirən bu Komitə Şeyxülislamın idarəsi ilə yaxın əməkdaşlıq etmək fikrindədir. Şeyx isə artıq cümə günləri məscidlərdə axundların yalnız onun təsdiq etdiyi duaları oxuyacaqlarını bildirib. Axı, bu cür ancaq dinsizlər ibadət edə bilər! Bəs şəxsi seçim? Allah qarşısında şəxsi məsuliyyət və dindarın vicdanı harada qalır?

“Dövlət dindən ayrıdır”. Təəssüf ki, bu tanış tezis düzgün başa düşülmür, çoxsaylı islamçılar tərəfindən rədd edilir və ədəbiyyatda düzgün istifadə edilmir. Amma ABŞ Konstitusiyasında bu çox dəqiq göstərilib: “Konqres hansı-

sa dini təsis edən və ya onun azad yerinə yetirilməsini qadağan edən qanunlar qəbul edə bilməz...” Beləliklə bu Komitənin planlarına baxsaq, onların antikonstitusion olduğu aydın görünər.

Konstitusiyamıza və imza atdığımız İnsan Haqları üzrə Avropa Xartiyasına uyğun olaraq ancaq aşağıdakı təşkilatları qadağan etmək olar: 1.Demokratik hökuməti, yaxud demokratik quruluşu devirmək istəyənləri; 2.İnsanların diskriminasiyasını və müharibəni təbliğ edənləri; 3.Öz üzvlərini azadlıqdan məhrum edənləri (öz üzvlərinin psixikası üzərində total nəzarət etməyə cəhd göstərənləri). Dini təşkilatların qalan fəaliyyətinə heç bir müdaxilə etmək olmaz.

QEYDİYYAT HAQQINDA

Bir neçə kəlmə də ictimai və dini təşkilatların qeydiyyatı barədə. Keçmiş ədliyyə naziri Südabə Həsənovanın qeydiyyatı olmayan təşkilatların fəaliyyətinin qanunsuz olduğu barədə cəmiyyətə yaydığı fikir düzgün deyil. Nə Konstitusiya, nə qanun həmfikir olanların bir yerə yığışmaq və ictimai aktivlik göstərmək üçün qeydiyyata alınmağı tələb etmir. Qeydiyyat onlara yalnız möhür almaq və bankda hesab açmaq kimi əlavə hüquqlar verir. Azərbaycanın imza atdığı Vyana Konfransı aktına və Avropa Şurasının xüsusi qərarına görə bizim hakimiyyət “bütün təşkilatlara qeydiyyat hüququ verir, qeydiyyata alınmayan təşkilatların fəaliyyətinə isə mane olmur” kimi öhdəlik götürüb.

DİN AZADLIĞI NƏYƏ LAZIMDIR?

Din azadlığı bizə nə üçün lazımdır? Hamının eyni Allaha, eyni hökumətin müəyyənləşdirdiyi yolla ibadət etməsi cəmiyyət üçün daha məqsədəuyğun deyilmi? Xeyr, məqsə-

dəuyğun deyil. Hətta bu, bizim mənəviyyatımız üçün təhlükəlidir. Çünki dinin cəmiyyət üçün qiyməti təkcə avtoritetlərin sözünə baxmaq və insanın axirət günündən qorxusu ilə deyil, ilk növbədə vicdanla ölçülür. Məhz əsl dindar adamın təmiz vicdanı ona yalan danışmağı, oğurlamağı və ədalətsizlik qarşısında susmağı yolverilməz edir. Təsadüfi deyil ki, demokratiyanın nəzəriyyəçiləri vicdanı demokratik Dövlətin "sementi" və "respublikaçılıq dəyərlərinin" (bərabərlik, düzgünlük, fədakarlıq, həmrəylik və s.) əsas tərkib hissəsi kimi hesab edirlər. Təəssüf ki, postsovet məkanında politoloq və publisistlər bu dəyərləri demokratiya üçün o qədər də vacib saymır və əvəzində gen-bol insanın "cib maraqlarından" bəhs edirlər.

Siz təmiz vicdanlı dindara rast gəlmisinizmi? Bu gün onlar az olsa da, mən belələrini görmüşəm. Onlardan biri öz ticarət köşkündən sahə müvəkkilinə "haqq" ödəməkdənsə, iki ay türmədə yatmağı üstün tutmuşdu. O, deyirdi ki, "bu, günahdır, vicdanım belə hərəkət etməyə yol vermir". Bu insan indiyə qədər də polisə rüşvət vermir. Dirçəlişimizin ümidi varsa, o məhz bu cür adamlardır. Həm də hökumətin dindarların vicdanına nəzarəti ilk növbədə məhz belələrinə zərbə olacaq.

Mən cəmiyyətin dini sahədə neqativ hallarla bağlı narahatlığını qəbul etsəm də, hökumətin din strukturlarını katolik kilsəsi kimi mərkəzləşdirilmiş şəkildə idarə etmək barədə planlarını kənara qoymağın tərəfdarıyam. Bu, həm Konstitusiyanın, həm də İslamın ziddinədir. Hökumət mollaları öz istədiyi kimi geyindirə, onları təsdiq olunmuş dualarla təchiz edə bilər, amma bu yolla nə onların, nə də digər dindarların vicdanını oyada bilməz.

 Satış üçün nəzərdə tutulmayıb

MÜLKİYYƏT HÜQUQU MƏTBUAT SƏHİFƏLƏRİNDƏ

Kommunist quruluşundan sonra sonadək anlamadığımız şeylərdən biri də mülkiyyət hüququdur. İnsanın mülkiyyəti Konstitusiya ilə müdafiə edilir və ancaq müharibə və ya təbii fəlakət zamanı hökumət ədalətli kompensasiya şərtləri ilə vətəndaşı öz mülkiyyətindən ayıra bilər. Hökumətimizin insanın mülkiyyətinin başına hansı oyunu açdığı barədə yazmağa ehtiyac yoxdur. Ancaq mülkiyyət hüququnun pozulmasına cəmiyyətin və qəzetlərin münasibəti diqqətlə araşdırılmalıdır. Cəhd etdikdə məlum olur ki, cəmiyyətdə mülkiyyət hüququ anlayışı kifayət qədər dağınıqdır. "Mülkiyyət – insanın düz yolla əldə etdiyi maddi və intellektual dəyərlərdir". Bizim qəzetlərdə isə insanın nəzarət etdiyi istənilən əmlak mülkiyyət hesab olunur.

Biz qəfil qəzet səhifələrindən öyrənirik ki, dünyada bütün(?) mülkiyyətin əsasında oğurlanmış sərvət durur və dünyanın heç yerində(?) bu (oğurluq) mülkiyyət yenidən müzakirə mövzusu olmur. Stabil olaraq hər rübdə bir dəfə qəzetlərimizin iqtisadi şərhçiləri parlamenti oğurlanmış sərvətlərə amnistiya tətbiq etməyə çağırır. Bunu onunla əsaslandırırlar ki, belə olsa, "biznesmenlərimiz" pullarını xaricə çıxarmazlar. Acınacaqlı haldır ki, ölkədə bu cür amnistiya hələ AXC hakimiyyəti dövründən fəaliyyət göstərir. Bu zaman bizim şərhçilər "biznesmenlərin" heç də hamısının "kimsəsiz" alüminium və neft hesabına varlanmadığını, çoxlarının zorla başqa vətəndaşların pullarını və əmlakını əlindən aldıqlarını unudurlar. Mən həmin şərhçinin öz mənzilinə güclə girmiş nüfuzlu şəxsin amnistiyasına çalışacağına şübhə edirəm.

Hökumətin insanın mülkiyyətini ələ keçirməsini cəmiyyət də bağışlamağa hazırdır. Xüsusən o vaxt ki, bu zəbtetmə "cəmiyyətin maraqlarına uyğun", yəni bizim "xeyrimizə" baş

 Satış üçün nəzərdə tutulmayıb

verir. Şəhərdəki yeni fontanları bizim vətəndaş alqışlayır. Ancaq həmin fontan onun götürülmüş köşkünün yerində olsa, reaksiya tamam fərqli olardı. Heç kim də maraqlanmır ki, "meriya" bu qədər fontanın tikilməsinə pulu hardan tapır? Büdcədə belə vəsait yoxdur. Bəs bu pullar haradandır, müəllim? Yeri gəlmişkən, Bakıda köşkləri kompensasiya ödəmədən hələ 1992-ci ildə, mərhum "mer" Rauf Gülməmmədovun vaxtında götürməyə başlamışdılar. Görünür, bu, zaman xaricində olan, ideologiyadan kənar və dərin milli bir təzahürdür.

"Meriya"nın avtobus sahiblərindən təqaüdçüləri və veteranları (sərnişinlərin 30%) pulsuz daşımağı tələb etməsi də insanın mülkiyyət hüququnu pozmaqdır. Axı, nəyə görə, xəzinəyə vergi ödəyən avtobus sahibi özünün o qədər də böyük olmayan gəlirindən məhrum olmalıdır? Əgər hökumət güzəştli şəxslərə kömək etmək istəyirsə, onda həmin şəxslərə gediş haqqı üçün pul ödəsin, ya da avtobus sahiblərinin ödədiyi verginin 30%-ni ləğv etsin. Yeri gəlmişkən, bu gün avtobus sahibləri "meriya"nın bu qərarından məhkəməyə şikayət edə bilərlər. Eyni əhvalat Bakı Elektrik Şəbəkəsinin Almaniyanın məşhur SİMENS şirkətinə verilməsində də baş verib. Hökumət əhaliyə verilən güzəştlərin ödənilməsini SİMENS-dən tələb edib. Nəticədə ölkəyə pul gətirmək istəyən SİMENS mülkiyyət hüququnu müqəddəs bilərək ölkəmizi tərk edib.

İnternetdən istifadə edənlərə Rabitə nazirliyi tərəfindən heç bir əlavə xidmət göstərmədən onlardan 20 min manat tələb etmək də insan haqlarını pozmaqdır...

"ETİMAD" QƏZETİ İLƏ BAĞLI QALMAQAL BARƏDƏ

Şeyxülislam barədə təhqiredici lətifə dərc etmiş qəzetin tam məğlubiyyəti ilə nəticələnmiş qalmaqal "söz azadlığının

sərhədi varmı?" kimi fundamental bir suala cavab axtarmağı zəruri edir.

"Etimad"ın redaktorunu heç kim ürəkdən müdafiə etmədi, suallarıma cavab verən jurnalistlər bunu onunla izah etdilər ki, yumşaq desək, redaktorun şəxsi keyfiyyətləri o qədər də yüksək deyil. Qəzetlərdə və televiziyalarda kimi-kmi, Şeyxi və ona bərabər tutulan nüfuzluları "tənqid etməyin mümkün olduğu, ancaq onları təhqir etməyin yolverilməzliyi" barədə şərhlər verildi. Ancaq bu, səhvdir, demokratik ölkələrin ənənələrinə və qanunvericiliyinə görə, ictimai əhəmiyyətli insanları təhqir etmək adi vətəndaşı təhqir etməkdən qat-qat asandır.

Mən Şeyxi başa düşürəm və bu hadisədə onun yerində olmağımı istəməzdim, ancaq qalmaqalın miqyasını və qəzetin bağlanmasını artıq hesab edirəm. Karikatura və lətifə heç də iddiaçının istədiyinə uyğun, yəni "böhtan" kimi qiymətləndirilə bilməz. Bundan əlavə, karikatura və lətifələrə siyasi diskussiyanın bir hissəsi kimi baxmaq lazımdır. Onlardakı ən emosional, hətta təhqiredici ifadələrə belə dözmək lazımdır. "Xalq Larri Flintə qarşı (People v. Larry Flint)" adlı məşhur Amerika filminin qəhrəmanının sözlərinə görə, bu cür karikaturaların məqsədi ondan ibarətdir ki, cəmiyyətin sütunları olan adamları adi adamlar səviyyəsinə endirsinlər ki, bu "sütunlar" qəfil özlərinin müqəddəs və günahsız olduqlarına yəqinlik hasil etməsinlər. İmkanlı adamların üzərində vətəndaş nəzarətinin əsas vəzifələrindən biri elə bundan ibarətdir.

Qaldı "Etimad" qəzetinin redaktoruna, onu kimliyindən asılı olmayaraq müdafiə etmək lazım idi. "Xastlers" əyləncə jurnalının redaktoru, lap "Etimad"ın redaktoru kimi amerikan "şeyxülislamı" ilə məhkəmə çəkişməsinə çıxmış real

 Satış üçün nəzərdə tutulmayıb

şəxs olan Larri Flint məhkəmədə qələbəsindən sonra jurnalistlərə belə deyir: “Düzdür, mən pis adamam, ancaq əgər qanun məni müdafiə etsə, bilin ki, sizi daha artıq müdafiə edəcək”.

P.S. Özəl telekanallardan xahiş edirəm ki, “Xalq Larri Flintə qarşı” filmini bir daha göstərsinlər, onda biz o filmin qəhrəmanları arasında özümüzü görüb tanıyarıq.

Satış üçün nəzərdə tutulmayıb

КАРАБАХСКИЙ КОНФЛИКТ И ДЕМОКРАТИЯ[1]

Нет темы тяжелее для публичного выступления, чем тема "Война и демократия", казалось бы, они несовместимы. Для успешных военных действий предполагаются единоначалие, жесткий порядок, секретность и патриотическим самопожертвование. В это же время демократия в странах подобных Азербайджану ассоциируется с бесконечными обсуждениями, ослаблением дисциплины, скандалами вокруг военных секретов и стремлением людей к собственному интересу.

Много говорят о демократическом подходе и в связи с урегулированием конфликтов, подобных карабахскому, однако и здесь пока успехи демократии невелики, а успехи тоталитаризма (хотя бы временные) очевидны. Кроме того, сегодня нам тяжело говорить о предоставлении прав и даже привилегий армянам Карабаха, принесшим столько бедствий и нашему и своему народу.

Но мир, как показывает история, требует больше мужества, чем война и я убежден, что как бы тяжело это не было, мы должны открыто говорить на эту тему, должны

[1] ЛЕКЦИЯ ДЛЯ СЕМИНАРА, ОРГАНИЗОВАННОГО ОРГАНИЗАЦИЕЙ "ОСВОБОЖДЕНИЕ КАРАБАХА". Баку, 18.11.2002

 Satış üçün nəzərdə tutulmayıb

найти в себе это мужество без эмоций обсуждать все стороны конфликта, все причины его породившие и все возможные пути выхода из него. Другого пути я просто не вижу.

* * *

Трудно себе представить, что нынешние мирные переговоры стали бы успешными при нынешнем положении вещей, когда армянские войска, поддержанные Россией, оккупируют 20 % нашей территории и когда в обеих наших странах существуют антидемократические режимы.

Для того чтобы прекратить армянскую агрессию необходимо наличие трех факторов:

- Мы должны быть обороноспособнее Армении и не потенциально, а реально.
- У нас должен быть такой же союзник, которым для Армении является Россия.
- Мы должны стать демократической страной, способной гарантировать армянам Карабаха права и свободы, зафиксированные в Европейских документах по правам человека, а, кроме того, на наш взгляд, демократия есть важнейшее условие усиления обороноспособности страны.

ДЕМОКРАТИЯ И УРЕГУЛИРОВАНИЕ КОНФЛИКТА

"Как же вы *будете* управлять нами, если вы своих граждан превратили в рабов?", – этот риторический вопрос все чаще раздается во время армяно-азербайджанских диспутов на международных встречах и форумах. И тут

Satış üçün nəzərdə tutulmayıb

нам ответить нечего. Можно, правда, напомнить нашим оппонентам, что движение армян Карабаха началось не в защиту прав и свобод, а под лозунгами отделения от Азербайджана и при этом никаких убедительных фактов дискриминации армян в Азербайджане не приводилось. Но сегодня такое наше напоминание не станет достаточным аргументом для мирового сообщества, и не будет способствовать примирению. Сегодня жить по советским правилам мы и сами не желаем. Понимание важности реального самоуправления и прав человека за последние 10 лет сильно возросло и сегодня армяне Карабаха, отставив прошлое в сторону, имеют право спросить нас: "Как же вы *будете* управлять нами, если вы своих граждан превратили в рабов?".

Ответ на этот вопрос "как же вы *будете* управлять…" является обязательным также и для мирового сообщества, пристально следящего за подобными конфликтами. Все в мире убеждены, что только демократия сможет урегулировать наш конфликт. И это несмотря на то, что мир полон примеров того, как межнациональные конфликты до сих пор тлеют или полыхают в таких демократических странах как Бельгия, Франция, Ирландия, Испания. И если посмотреть в историю, то армяне и тюрки враждовали часто, и только авторитарные режимы могли гасить эти пожары.

Но как бы ни был авторитаризм эффективен в прошлом, сегодня такой метод решения конфликтов неприемлем. Ни мировое сообщество, ни мы, демократы страны, не смогли бы решить этот вопрос с помощью подавления политических и культурных прав армянского меньшинства в Карабахе.

 Satış üçün nəzərdə tutulmayıb

Будущий демократический Азербайджан не может быть демократическим наполовину. В философии международного права все больше укрепляется принцип "права этнических меньшинств на сецессию". Согласно этому принципу, компактно проживающее национальное меньшинство не имеет изначального право на отделение и выход из страны, но оно получает такое право в том случае, если права этого этнического меньшинства постоянно и в грубой форме нарушается.

Таким образом сегодня демократическому решению проблемы армян Карабаха нет альтернативы. Все обсуждаемые в общественной сфере и на переговорах по Карабаху унитаристские и федералистские модели предполагают демократический поход. Например, обсуждаемая Аландская и другие мировые модели рассчитаны сугубо на демократическое государство.

Итак, недемократическому Азербайджану никто не позволит восстановить свой суверенитет над Карабахом. Чего же нам не хватает для того, чтобы стать реальной демократией? Когда мы говорим "демократический Азербайджан – родина для всех этнических групп, проживающих здесь" то мы должны для начала добиться следующего:

- Искренности, открытости, беспристрастности, критического подхода к познанию мира, и антиавторитаризм (демократизм) должны стать нашими моральными императивами;
- Проведения честных и свободных выборов на любом уровне;
- Ослабления нашей "суперпрезидентской власти" и установления над ней Парламентского контро-

 Satış üçün nəzərdə tutulmayıb

ля. Еще лучше было бы вообще установить парламентскую республику, которая как показывает мировая статистика намного более способствует переходу от авторитаризма к демократии;

- Установления Гражданского контроля за государством, осуществляемого посредством прессы добровольными ассоциациями граждан через независимый суд;
- Установления выборности судей;
- Введения суда присяжных, который как никакой институт формирует истинного гражданина;
- Расширения доступа граждан к Конституционному суду;
- Прозрачности в деле принятия государственных решений и проведение беспощадной борьбы с коррупцией (тема это настолько популярна сегодня, что подробно на ней я не останавливаюсь);
- Децентрализации власти и делегировании ее на места – широкое самоуправление;
- Приватизации, дерегулирования экономики, строгой защита права собственности и других экономических прав. Экономические свободы и помощь правительства производителям, позволили бы нам заняться созиданием и, возможно, забыть конфликт (рынок примирит всех);
- Обеспечения прав и свобод наших граждан на высоком уровне Европейских конвенций (в том числе и конвенций о правах этнических меньшинств) подписанных нашим государством.

Но все это только начало. После установления реального равенства армян и азербайджанцев перед демократическим законом и беспристрастным судом мы должны

 Satış üçün nəzərdə tutulmayıb

быть готовы и к предоставлению на первых парах армянам Карабаха особых льгот, подобных тем, что были предоставлены им в Советский период. Речь идет и о экономических дотациях, и о квотировании мест в высших учебных заведениях, и даже о предоставлении им квот в правительственном аппарате.

Да, такие привилегии в советские времена были предоставлены, но они не удержали армянский сепаратизм. Но, тут у нас выбора не остается и мы можем лишь надеяться, что непосредственные участники конфликта за последние 10 кровавых лет стили мудрее.

К тому же советская автономия вовсе автономией и не была. Армянское население Карабаха не самоуправлялось, а управлялось ставленниками из Баку. Не известно было что кому принадлежит, кто за что и из каких средств должен платить, то есть население было отчуждено от управления. В такой ситуации при первом же затруднении появляются подозрения в нечестной игре и обвинения в национальном угнетении.

Стремясь применить демократию для разрешения карабахского конфликта, нам позволено также надеяться, и что за 10 последних лет мир сильно изменился в сторону здравого смысла и он меняется с каждым годом все быстрее: глобализация и такие ее составные части, как эрозия суверенитета, наднациональные структуры власти, подобные Европейскому суду, Военному Трибуналу ООН и нарождающемуся Международному Уголовному Суду, ускорение обмена информацией, товарами и людьми позволит конфликтующим сторонам вырваться из объятий прошлого, почувствовать себя более защищенными и начать мирную жизнь.

 Satış üçün nəzərdə tutulmayıb

ДЕМОКРАТИЯ И ОБОРОНА

Но может случиться и так, что те, кто оккупировал наши земли, отвергнут протянутую нами руку, тогда война неизбежна. Мы имеем моральное и юридическое право восстановить справедливость силой – вернуть наши земли и вернуть наших беженцев в их дома. Но сможет ли тут нам помочь демократия? Этот вопрос до сих пор не решен в мире окончательно, или, во всяком случае, он не решен для стран с нашим уровнем развития.

Диспут о том, кто лучше воюет – тоталитарные режимы или демократические, продолжается уже свыше 2000 лет, со времен Пелопонесских войн между демократическими Афинами и милитаризованной тоталитарной Спартой. Ведь руководить свободными людьми, которые не будут подчиняться приказам, пока не буду убеждены в его верности, несоизмеримо сложнее, чем членами тоталитарного государства, готовыми без слов выполнять любой приказ лидера.

“Мы не думаем, что открытое обсуждение может повредить ходу государственных дел”, – говорил в самом начале это исторического диспута главнокомандующий Афинской армией, выдающийся демократ Перикл Афинский. И вот еще одна загадки демократии, обозначенная тогда Периклом: “Наши противники при их способе воспитания стремятся с раннего детства жестокой дисциплиной закалить отвагу юношей; мы же живем свободно, без такой суровости, и, тем не менее, ведем отважную борьбу с равным нам противником...”.

К сожалению, в итоге, Афины проиграли эту войну коалиции тоталитарной Спарты и деспотической Персии, но сегодня, спустя 2000 лет экономическая и военная

 Satış üçün nəzərdə tutulmayıb

мощь демократических режимов неоспорима. Не хочу здесь касаться темы “демократия и общее развитие”, которая достаточно разработана и сомнений не вызывает. Но тема “демократия и оборона” требует особого внимания.

Так теоретики демократии, раскрывая смысл загадки Перикла, указывают на то, что демократия и права человека внутри страны повышает достоинство и сознательность ее граждан, вызывают появление у них чувства ответственности за свою страну, вырабатывают у них способности контролировать ход событий. Такого чувства ответственности и способности управлять событиями у подданных монарха или тоталитарного режима нет, а это в конечном итоге ведет к успехам в военном деле.

Кроме того, демократический режим характеризуется наличием такого важного общественного института, как “Гражданский контроль над вооруженными силами” (под этим термином я имею в виду контроль над деятельностью государства, который осуществляют граждане или их добровольные ассоциации через свободную прессу, посредством свободных судов и честно избранного парламента.) Такой контроль необходим, поскольку, как указывает исторический опыт, военные люди весьма склонны создавать свою закрытую касту со своими собственными, отличными от остального общества целями и характером поведения.

Гражданский контроль позволил бы поставить перед военными демократические политические цели, зафиксированные в доктрине страны об обороне и безопасности, способствовал бы минимизации людских и материальных потерь.

 Satış üçün nəzərdə tutulmayıb

Конституция должна обеспечивать эффективный контроль гражданских лиц над армией. В демократическом государстве сфера обороны должна быть подчинена пристальному контролю парламентских комиссий по обороне и безопасности. Парламент должен иметь возможность создавать комиссии по расследованию правонарушений в армии и финансовых нарушений при материальном обеспечении армии.

Военный бюджет демократический страны должен быть прозрачен и открыт для обсуждения.

Министр обороны и главы отдельных управлений Минобороны должны быть гражданскими лицами. Гражданские лица должны так же отвечать за распоряжение ресурсами, необходимыми для проведения успешной военной операции. Милитаризация или Конверсия военной промышленности должна проходить под руководством гражданских лиц и под гражданским и парламентским контролем.

Военные суды должны на деле (у нас это положение уже закреплено в законодательстве) применять кодекс гражданского правосудия, а Верховный суд иметь реальное право пересматривать решение военных трибуналов.

Наше нынешнее правительство особенно часто говорит об "ограничении или самоограничении гражданских свобод" после начала военной операции. Тут особенно хочется подчеркнуть, что в демократическом государстве ограничение прав человека в военное время должно происходить строго согласно закону, при этом должно учитываться, что есть перечень неотъемлемых прав, которые не могут быть ограничены даже в военное время. В случае же если ограничение прав (например, имущес-

 Satış üçün nəzərdə tutulmayıb

твенных) произошло или нанесен ущерб здоровью граждан, то им следует выплачивать компенсацию.

Много у нас обсуждений и вокруг создания профессиональной армии. Однако, на мой взгляд, призывать к переходу на профессиональную воинскую систему в нашем случае, когда 20% нашей земли оккупированы, несвоевременно.

* * *

Итак, мировое демократическое сообщество пришло сегодня к заключению, что демократия – демократические методы управления полезны в рассматриваемых нами выше случаях, будь то управление страной, разрешение конфликтов или даже военные действия, честный вопрос заключается в том, что подходит ли все это нам, сегодняшнему Азербайджану?

На этот вопрос трудно ответить, трудно что-либо сказать пока не двинешься по пути демократических преобразований. Одно точно известно, диктатура, которая вот уже 8 лет правит страной, оказалась не способна ни мирным, ни военным путем разрешить карабахскую проблему. Эта диктатура оказалась неспособной разрешить ни какую либо вообще проблему, кроме личной.

Satış üçün nəzərdə tutulmayıb

AZADLIĞIMIZIN HÜDUDLARI VƏ ETİQAD AZADLIĞI[1]

Elə bir vaxt gələ bilər ki, ... bizlərdən hər birimiz azlıqda qala bilər. Belə bir məqam üçün özümüzü də, başqalarını da hazırlamalıyıq.

Sayğılı seminar iştirakçıları. İnsan haqlarına nəzər salarkən qarşılaşdığımız bəzi problemləri bu gün sizinlə birlikdə araşdırmaq və onun nəticələrini bizi bu gün narahat edən bir problemə – Etiqad Azadlığı probleminə tətbiq etmək istərdim.

Azadlığımızın hüdudları

Müstəqillik qazandığımız son 12 ildə İnsan haqları ən populyar mövzu olub. Düzdür, Sovet Konstitusiyasında da insan haqları, söz, siyasi baxış, din azadlığı təsbit olunmuşdu, lakin bununla yanaşı, antisovet və antikommunist təbliğatı da qadağan edilirdi. Nəticədə bu azadlıqlardan heç nə qalmırdı.

İnsan haqları 1988-ci ildən – Xalq Cəbhəsinin proqramı yaranandan sonra yenidən geniş müzakirə edilməyə başladı. Həmin sənəddə insanın haqları bəşəriyyətin əsas dəyəri,

[1] 2003

 Satış üçün nəzərdə tutulmayıb

onun qorunması isə dövlətin başlıca vəzifəsi kimi qiymətləndirilirdi. *Xüsusi qeyd edim ki, proqramda bu hüquqlar heç nə ilə məhdudlaşdırılmır, azadlıq haqqında gen-bol danışılır, məsuliyyət haqqında isə heç nə deyilmirdi.*

Ancaq AXC özü hakimiyyətə gəlib reallıqla qarşılaşdıqdan sonra bu hüdudsuz azadlıq tədricən gödəlməyə başladı. Düzdür siyasi partiyalar açıq fəaliyyət göstərmək hüququ, hökuməti tənqid etmək imkanı qazandılar. Lakin aşağıdakı suallar yaranmağa başladı: müharibə aparan ölkədə ordudan açıq yazmaq olarmı? İqtidarın icazəsi olmadan mitinq keçirmək olarmı? Prezidenti mətbuatda söymək olarmı? Ölkədə İslam Respublikasını yaratmağa çağırışa icazə vermək olarmı?

Bəs hüdudları necə müəyyən etməli: insan hara qədər söz deməkdə azaddır? Axı bəzən insanlar mətbəxdə söhbət edərkən prezidentin ölkədə diktatura rejimi yaratdığını, dövlətin sərvətlərini taladığını deyir, onda həmin insanların fikrini qanuni hakimiyyətin devrilməsinə çağırış kimi yozmaq olarmı?

Tarix göstərir ki, özünüifadə azadlığının hüdudları problemi İngiltərə, Amerika, Fransa, hətta İslam inqilabından sonra da olub.

Əziz seminar iştirakçıları, bir anlığa özünüzü həmin gənc respublikaların rəhbərinin yerində təsəvvür edin və elə qanunlar qəbul etməyə çalışın ki, azadlığı da təmin etsin, dövlətin əsaslarını da sarsıtmasın. Onda görəcəksiniz ki, bu məsələ çox çətindir.

* * *

Gəlin, tarixə nəzər salaq. Bəşəriyyət tarixində insan haqları uğrunda mübarizəyə dair çoxlu fakt göstərmək olar. La-

 Satış üçün nəzərdə tutulmayıb

kin bu prinsip yalnız 18-ci əsrdə Amerika (1776) və Fransa (1789) inqilablarının gedişində qanunla dəqiqləşdirildi.

Bu mənəvi və hüquqi prinsip ondan ibarət idi ki, insanlar cinsindən, millətindən, dinindən və sosial mənşəyindən asılı olmayaraq azad doğulurlar: onlar anadangəlmə yaşamaq, azadlıq və təhlükəsizlik məsələsində bərabər hüquqludurlar. *Bu hüququ ona dövlət vermir, insan özü dünyaya gələndən həmin hüquqları qazanır, sadəcə ona görə ki, o insandır. Dövlət bu haqları məhdudlaşdıra bilməz, əksinə, dövlətin əsas vəzifəsi həmin haqları qorumaqdır.*

İnsan haqlarının bu cür yozumu elmdə şərti olaraq "fransız konsepsiyası" adlanır. Həmin dövr nə Amerika, nə də Fransa konstitusiyasında insan haqlarının məhdudlaşdırılmasının zəruriliyilə bağlı bir söz də tapa bilməzsiniz. Bu da aydındır. Çünki azadlıq uğrunda vuruşan adam, onun məhdudlaşdırılması barədə düşünməyə meylli deyil.

Həmin vaxtlar Fransa inqilabı və "hüdudsuz azadlıq"la bağlı Fransa konsepsiyası Avropada diqqətlə öyrənilirdi. Bu konsepsiyaya qarşı nəinki köhnə feodal ideoloqları, həmçinin İngiltərənin məşhur liberalları çıxış edirdi. Belə ki, məşhur ingilis filosofu "liberalizmin atası" sayılan Ceremi Bentam (Jeremy Bentham) (1748-1832) fransalıların insan haqları konsepsiyası ilə kökündən razılaşmırdı: "İnsanın anadangəlmə və cəmiyyətdən azad heç bir hüququ yoxdur. Real həyatda cəmiyyət insana nə qədər azadlıq verirsə, insan ancaq o qədər azad ola bilər" – Bentam deyirdi[1].

Həmin tarixi diskussiyalardan artıq 200 il keçib. Bəli, bu gün insan haqları ilə bağlı "fransız" konsepsiyası dünyanın

[1] İlk dəfə olaraq Bentam bu ideyanı irəli sürüb və iddia edirdi ki, insan haqları və azadlığı insanın və cəmiyyətin inkişafı üçün zəruri komponentdir. Bentama görə, insan anadan olduğuna görə yox, cəmiyyətə xeyirli olduğuna görə həmin hüquq və azadlıqlara malik olmalıdır.)

 Satış üçün nəzərdə tutulmayıb

idealına çevrilib, fəqət demokratik ölkələrin hüquqi praktikasında "ingilis" konsepsiyası qalib gəlib. Həmin konsepsiyaya görə, real həyatda insan ancaq ona cəmiyyətin və dövlətin verdiyi hüquqa malikdir.

Bu mənada BMT-nin İnsan Haqları üzrə Ümumi Bəyannaməsinə baxaq. Bəyannamədə insanın iyirmi səkkiz anadangəlmə və ayrılmaz hüququ təsbit olunur və *yalnız 29-cu maddədə tələb olunur ki, insan cəmiyyətlə hesablaşmalıdır,* çünki yalnız cəmiyyətdə insanın inkişafı və hüquqlarının reallaşması mümkündür... Bu kimi müddəa İnsan haqları üzrə Avropa konvensiyasında da özünə yer tapıb.

Bu gün hətta demokratik ölkələrin qanunvericiliyində insan haqlarının məhdudlaşdırılması ilə bağlı belə bir maddə var: "insanın ..... hüququ" var, lakin bu hüquq mənəviyyat, ictimai asayiş, cəmiyyətin rifahı, milli təhlükəsizlik naminə məhdudlaşdırıla bilər.

Bəs onda insan haqlarından nə qaldı? Axı, Azərbaycan reallığına baxanda, görürük ki, 29-cu "ingilis" maddəsi, demək olar ki, hər hansı azadlığın məhdudlaşdırılmasını qanuniləşdirə bilər.

Mitinq eləmək istəyirsiniz? – olmaz, çünki bu, ictimai qayda-qanuna təhlükə yarada bilər. Prezidenti söymək istəyirsiniz? – olmaz, çünki bu, milli əxlaqımıza ziddir. Allaha istədiyiniz kimi dua etmək istəyirsiniz? – olmaz, çünki bu, milli birliyə təhlükə yarada bilər və s. və i.

Və bütün bu "olmazlar" qanuni görünür! Bütün bunlar təkcə ölkəmizin yox, həm də istənilən demokratik ölkənin qanunlarında dəqiq yazılıb.

Deməli, bizim hüquqlarımız ictimai qayda-qanuna, əxlaqa, təhlükəsizliyə ziddirsə, məhdudlaşdırıla bilər. Əgər biz hü-

 Satış üçün nəzərdə tutulmayıb

quqlarımızın müdafiəsi üçün, deyək ki, Amerika təcrübəsindən misal gətirsək, onda bizim məhkəmə deyəcək: Amerikada icazə verilən şeylərə, Azərbaycanda icazə verilməyə də bilər, axı biz başqa-başqa cəmiyyətlərdə yaşayırıq. Amerikalıların öz, azərbaycanlıların öz, türkmənlərin isə, deyək ki, tam başqa cəmiyyətləri var. Bu "düzgün" sözə nə etiraz eləyəsən?...

* * *

Dünyada bu problemin həllini ilk dəfə 1919-cu ildə ABŞ Ali Məhkəməsinin hakimi Oliver Vendel Holms təklif edib. Həmin zamana kimi ABŞ-da özünüifadə azadlığı ilə bağlı vəziyyət belə idi: bayaq xatırlatdığım kimi, ABŞ Konstitusiyası özünüifadə azadlığına heç bir məhdudiyyət qoymurdu. Lakin Amerika məhkəmələri bu sahədə ayrı-ayrı ştatlarda, yaxud Konqresdə qəbul edilmiş qanunlara əsaslanırdılar. Həmin qanunlarda "ingiliscəsinə" ictimai qayda-qanun, mənəviyyat və dövlət təhlükəsizliyi və s. naminə məhdudiyyətlər nəzərdə tutulurdu. Bu gün bunu təsəvvür etmək çətindir, lakin XX əsrin əvvəllərində adamları, misal üçün, antimüharibə təbliğatına, hökuməti, yaxud Konstitusiyanı tənqid etdiyinə görə məhkəməyə çəkirdilər.

